AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

***Elmi-nəzəri və elmi-metodik jurnal***

***ISBN: 90000000060074***

**2017, 1 (16)**

**BAKI-2017**

**Tarix, insan və cəmiyyət**
Elmi-nəzəri və elmi-metodik jurnal № 1(16), 2017

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutnda nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2011-ci ildən tarix, tarixin tədrisi metodikası, 2015-ci ildən psixologiya və pedaqogika elmi istiqamətləri üzrə də "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

## REDAKSİYA HEYƏTİ

**Cəfər Cəfərov** (baş redaktor), **Asəf Zamanov, Bəxtiyar Əliyev, Urxan Ələkbərov, Yaqub Mahmudov, Vəli Əliyev, İzzət Rüstəmov, Abbas Seyidov (**baş redaktorun müavini**), İradə Hüseynova, Oqtay Sultanov, Anar İsgəndərov, Ramiz Əliyev, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə, Sevinc Quliyeva** (məsul katib),

# QARABAĞIN ERKƏN OTURAQ ƏKİNÇİ-MALDAR TAYFALARINA AİD YAŞAYIŞ MƏSKƏNLƏRİ

**(**2012-ci ilin tədqiqatları)

***Xəqani Alməmmədov***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*

***Açar sözlər:*** *"Qarabağ neolit-eneolit ekspedisiya"sı, İsmayılbəytəpə yaşayış məskəni, Fərmantəpə yaşayış məskəni, Leylatəpə mədəniyyəti, Qarabağ neoliti*

Azərbaycanın təbii zənginliklərə malik Qarabağ bölgəsi qədim dövrlərdən insan cəmiyyətinin formalaşdığı və inkişaf etdiyi mühüm ərazilərdən biri olmuşdur. Qətiyyətlə söyləyə bilərik ki, Qarabağ düzənliyi Qafqazda erkən oturaq əkinçi-maldar tayfalara aid mədəniyyətlərin təşəkkül tapdığı ən əsas mərkəzlərdəndir. Burada yerləşən erkən oturaq əhaliyə aid məskənlərin yayılma coğrafiyası və topoqrafiyası, neolit dövründə Qafqazın heç bir bölgəsində Qarabağ ərazisində olduğu kimi məskunlaşma səviyyəsinin olmadığını sübut edir. Qarabağın erkən oturaq əkinçi-maldar tayfalarına aid mədəniyyətin tədqiqi istiqamətində "Qarabağ neolit-eneolit ekspedisiyası" qarşısına qoyduğu uzunmüddətli kompleks tədqiqat planına əsasən, Ağdam, Ağcabədi, Bərdə və Tərtər rayonları ərazisində arxeoloji kəşfiyyat, İsmayılbəytəpə və Fərmantəpə yaşayış yerlərində arxeoloji qazıntı işləri aparmışdır.

## ПОСЕЛЕНИЯ РАННИХ ЗЕМЛЕДЕЛЬЧЕСКО-СКОТОВОДЧЕСКИХ ПЛЕМЕН ГАРАБАХА

(исследовани 2012 г.)

***Хагани Алмамедов***

***Ключевые слова:*** *«Гарабахская неолит-энеолитическая экспедиция», поселения Исмаилбейтепе, поселения Фармантепе, Лейлатепинская культура, Гарабахской неолит.*

«Гарабахская неолит-энеолитическая экспедиция» по разработанному плану долговременных комплексных исследований, провела археологические раскопки и топосъёмки на поселениях Исмаилбейтепе и Фармантепе, расположенных на территории Агдамского района.

Основной объект исследования экспедиции поселение Исмаил-бейтепе находится на северо-востоке села Хындрыстан Агдамского района, в 250 м к западу от шоссейной дороги Гузанлы-Хындрыстан (С $40^0$ $08^I$ $09.2^{II}$; В $047^0$ $07^I$ $48.8^{II}$; обс. выс. - 119 м). Раскопочные работы площадью 200 $м^2$, проведены на восточном склоне поселения имеющего форму холма диаметром 100 м и высотой 4 м. В результате на уровне одного строительного горизонта представляющего раннее оседлое земледельческо-скотоводческого населения Гарабаха, были выявлены остатки 8 строений и характерные для эпохи предметы материальной культуры различного назначения. Были проведенаы дифференциация и статистический анализ керамического материала, снят топоплан холма.

Второй основной объект исследований экспедиции поселение Фармантепе находится в лесу Султанбуд, в 2 км к востоку от села Аяг Гярвянд Агдамского района (С $40^0$ $11^I$ $09.7^{II}$; В $047^0$ $06^I$ $41.3^{II}$; обс. выс. - 113 м). На поселении, генетически принадлежащем к лейлатепинской культуре, была проведена топосъёмка, собран подъёмный материал.

В 2012 году была продолжена работа по электронной фиксации и картографированию археологических памятников Гарабахской равнины. Для проведения разведочных работ и составления карт был выделен грант Фонда Развития Науки при Президенте Азербайджанской Республики. В рамках грантового проекта на гарабагской равнине было зафиксировано более 100 археологических памятника относящихся к различным хронологическим периодам. Из зафиксированных памятников 71 относится к ранне-земледельческо-скотоводческому населению Гарабаха.

## THE SETTLEMENTS EARLY FARMER-CATTLE BREEDER TRIBES OF GARABAGH OF PLAIN

(researches in 2012)

***Khagani Almammadov***

***Keywords:*** *"Garabagh Neolithic-Eneolithic expedition", settlement Ismailbaytepe, settlement Farmantepe, Leilatepe culture, The Neolithic of Garabagh.*

In line with the drafted plan of long-term complex studies, the Garabagh Neolithic-Eneolithic expedition carried out archeological excavations and topographic surveys at settlements Ismailbaytepe and Farmantepe located in the territory of the Agdam region.

The key object of the study – settlement Ismailbaytepe – is located northeast of village Khyndrystan of the Aghdam region, 250 meters west of highway Guzanly-Khyndrystan (N $40^{0}$ $08^{I}$ $09.2^{II}$; E $047^{0}$ $07^{I}$ $48.8^{II}$; elev.-119 meters).

The excavations covering an area of 200 square meters were carried out at the eastern slope of a hill-shaped 100-diameter, 4-meter high settlement. As a result, one of construction horizons representing an early settled farming and cattle-raising population of Garabagh revealed the remains of 8 buildings and implements of material culture of various designation, typical for this epoch. There were carried out differentiation and statistical analysis of the ceramic material; a topographic survey of the hill was made.

The second key object of the study – settlement Farmantepe – is located in forest Sultanbud, 2 kilometers east of village Ayag Garvand of the Aghdam region. (N $40^{0}$ $11^{I}$ $09.7^{II}$; E $047^{0}$ $06^{I}$ $41.3^{II}$; elev. - 113 meters). In 2012, a topographic survey was carried out, and material to be lifted was collected in a settlement genetically belonging to the Leilatepe culture.

In 2012 there were continued works on digital fixation and mapping of the archeological monuments of the Garabagh lowland. The Science Development Foundation under the President of the Republic of Azerbaijan assigned a grant to carry out exploration works and compose maps. Within the framework of the grant project, there were fixed more than 100 archeological monuments relating to different chronological periods in the Garabagh lowland. Of the fixed monuments, 71 pertain to the early agricultural-cattle-raising population of Garabagh.

İsmayılbəytəpə yaşayış yeri əsas tədqiqat obyektlərindən biridir [1, s. 17-32]. Abidə Ağdam rayonunun Xındırıstan kəndinin şimal-şərqində, Quzanlı-Xındırıstan şose yolundan 250 m qərbdə yerləşir (Şm $40^{0}$ $08^{I}$ $09.2^{II}$; Şq $047^{0}$ $07^{I}$ $48.8^{II}$; h-119 m). Diametri 100 m, hündürlüyü 4 m olan təpə formalı yaşayış yerinin şərq, cənub və qərb hissəsini su arxları kəsir. Xırda dağıntıları nəzərə almasaq, təpə çox yaxşı vəziyyətdə qalmışdır. 2010-cu ildə yaşayış yeri elektron şəkildə qeydiyyata alınaraq, xəritələşdirilib. 2012-ci ildə yaşayış yerində topoqrafik ölçü işləri aparılaraq, onun topoplanı tərtib edilib və şərq yamacında 200 kv. m ərazini əhatə edən 2 kvadratdan (A1, B1) ibarət arxeoloji qazıntı sahəsi qoyulub.

Qazıntılar zamanı A1 kvadratında aşkar olunan ilk memarlıq nümunəsi 1 saylı tikili qalığıdır (tablo 1). Dairəvi planlı tikili qalığının diametri 3 m-dir. Onun divarlarının hündürlüyü 50-80 sm arasında dəyişir və iri ölçülü saman qatışıqlı çiy kərpiclərlə hörülmüşdür. Müxtəlif ölçülü bu kərpiclərin eni 18-20 sm, uzunluğu 38-40 sm-dir. Kərpiclərin tərəfləri ovalvaridir. Ehtimal ki, onların

hazırlanması zamanı qəlibdən istifadə olunmamışdır. Kərpiclər saman tərkibli gil məhlulla hörülüb. Sonuncu kərpiclərin üzərinə 12-15 sm qalınlığında möhrə kəmər salınıb. Divar həm daxili, həm də xarici tərəfdən xırda döyülmüş saman qatışıqlı gil məhlulu ilə suvanıb. Suvağın qalınlığı hörgünün vəziyyəti və istiqamətdən asılı olaraq 5-11 sm arası dəyişir.

Tikili qalığının divarının qərb hissəsi nəzərə çarpacaq ölçüdə enli tikilmişdir. Ehtimal ki, bu cür tikinti üsulu təpənin səviyyəsi və yağış sularından qorunmaq ehtiyacından irəli gəlmişdir. Burada divar iki qat və dörd cərgədən ibarət kərpiclərdən inşa edilib. Tikili qalığının şərq hissəsində 28x28 sm ölçülərində dairəvi deşik açılıb. Ehtimal ki, bu, havanın oynaması üçün açılıb. Bundan 75 sm şimalda, divar dibində mərkəzi hissəsi işlənərək oyulmuş daşa təsadüf olundu. Bu daş döşəməyə xüsusi, saxsı fraqmentləri əlavə olunmuş palçıqla bərkidilib. Vizual görünüşünə görə dabandaşını xatırladan nümunə dirək və ya hansısa əşyanın altlıq hissəsinə aid olub. Dairəvi formalı tikili qalığının döşəməsi oxra əlavə olunmuş saman tərkibli palçıqla suvanıb. Onun qalınlığı 6-8 sm arası dəyişir və dəfələrlə suvandığından bir neçə qatdan ibarətdir. Bu qatlar bir-birindən ağ xətlərlə ayrılır. Döşəmə al qırmızı rəngdə olub, bir neçə yerdə insan ləpirinin izlərini də özündə saxlayır. Belə döşəmə qalıqlarına Çalağantəpə yaşayış yerinin qazıntıları zamanı da təsadüf edilib [2, s.1-12]. Tikili qalığının daxili hissəsi təmizlənərkən şimal tərəfində -132 sm dərinlikdə ağzının diametri 40 sm, hündürlüyü 41 sm olan təsərrüfat küpünün basdırıldığı müəyyən edildi. Təsərrüfat küpündən güman ki, saxlanc kimi istifadə olunmuşdur. Döşəmədə hər hansı bir ocaq yerinə təsadüf olunmadı.

1 saylı tikili qalığında aparılan qazıntılar zamanı ən çox maraq doğuran məsələ kremasiya (ölüyandırma) icra edilmiş qəbirə təsadüf olunması idi. Qəbir tikili qalığının şərq tərəfində, döşəmə qalığının altında aşkar edildi. Döşəmədə xüsusi olaraq dərinliyi 11 sm olan qəbir çalası qazılmış və buraya yandırılmış insan sümükləri, mis, pasta və daşdan hazırlanmış muncuqlar oxra ilə qarışdırılaraq tökülmüşdür. Sümüklər yanğına çox məruz qalmış və ovxalanmış vəziyyətdə idi.

Tikinti qalıqlarının təsnifatına yekun vuraraq qeyd edək ki, qazıntılar müddətində 8 tikinti qalığı aşkar edilmişdi. Bunlar dairəvi və düzbucaqlı planlı çiy kərpicdən inşa edilmiş tikililərdir.

İsmayılbəytəpə sakinləri eyni tikinti dövründə həm dairəvi, həm də düzbucaqlı planda evlər inşa edmişlər. Tikinti üçün istifadə edilmiş kərpiclər standart ölçü və quruluşa malik olmasalar da, o dövrün bənnaları bağlama, arakəsmə kimi çətin memarlıq texnikasını evlərin tikintisində tətbiq etmişlər. Tikinti zamanı təbii amillər nəzərə alınaraq, evlərin girişi şərq istiqamətində qoyulmuş, divarların qərb və şimal hissələri nəzərə çarpacaq ölçüdə qalın inşa edilmişdir. Düzbucaqlı tikili qalıqları Qafqaz neoliti üçün xarakterik olmasa da,

Qarabağın İlanlıtəpə yaşayış yerində də bu tip memarlıq xüsusiyyətləri izlənilmişdir.

Qazıntılar zamanı izlənilən ən maraqlı məsələlərdən biri də daş alətlərin azlıq təşkil etməsidir. Onların ümumi sayı 12-dir. Ümumilikdə, 6 ədəd döymək və ya əzmək üçün istifadə olunmuş daş alət və tuf daşından 4 ədəd dən daşı fraqmentinə təsadüf olunmuşdur. Onların da hamısından oxra əzmək üçün istifadə edilmişdir.

1 saylı tikili qalığının döşəməsində aşkar edilmiş, ağ daşdan hazırlanmış daş qab fraqmenti xüsusilə maraqlıdır. Yonularaq, kasanı xatırladan qab formasında hazırlanmış bu qab Qarabağın həmdövr abidələri üçün xarakterikdir.

Obsidiandan hazırlanmış fraqmentlər (91 ədəd) çoxluq təşkil edir. Onlardan 26 ədədi tiyələr, qalanları isə daha kiçik fraqmentlərdir.

Ümumilikdə, osteoloji qalıqlara qazıntılar zamanı çox az miqdarda təsadüf olunmuşdur. Osteoloji qalıqlara az təsadüf olunduğu kimi sümükdən hazırlanmış alətlər də azlıq təşkil edir.

İsmayılbəytəpə yaşayış yerində 2012-ci ildə aparılmış arxeoloji qazıntılar zamanı 1243 ədəd saxsı qab fraqmenti, bütöv halda üç ədəd təsərrüfat küpü, iki ədəd gil kürə və 8 gil sapand daşı aşkar olunub. Aşkar edilmiş saxsı kompleksinin 877-sinin (71%) forması təyin olunmayan nümunələrdir. 211 ədəd (17%) saxsı qabların ağız, 155-i (12%) isə oturacaq hissəsidir. Oturacaqların hamısı düz formadadır və əsasən bitki tərkiblidir. Qazıntılar zamanı qabların qulp hissəsinə təsadüf olunmayıb.

İsmayılbəytəpə yaşayış yerində aparılmış arxeoloji qazıntıların təsnifinə yekun vuraraq qeyd etmək istərdik ki, abidə klassik Qarabağ neolitinə xas abidədir. Xronoloji çərçivəni daha da dəqiqləşdirmək naminə müxtəlif dərinliklərdən götürülmüş nümunələr $C^{14}$ analizlərinin aparılması üçün İsrailə göndərilmiş və nəticələrə əsasən İsmayılbəytəpə neolit dövrü yaşayış yerinin e.ə. VI minilliyin I yarısında formalaşdığı sübut edilmişdir.

Ekspedisiyanın ikinci əsas tədqiqat obyekti olan Fərmantəpə yaşayış yeri 2010-cu ildə tərəfimizdən qeydiyyata alınmışdır [1, s. 413-424]. Genetik baxımdan Leylatəpə mədəniyyətinə aid olan yaşayış yerində ekspedisiyanın topoqraf qrupu tərəfindən ölçmə işləri aparılaraq, topoplanı tərtib edilmişdir. Qədim çay yatağının sahilində (Qara çay) yerləşən yaşayış yerinin cənub hissəsi Sultanbud meşəsilə sərhədlənir. Abidənin hündürlüyü 5 m, sahəsi 2,5 ha-dan çoxdur. Təpənin səthindən toplanmış saxsı nümunələrinin gilinin tərkibinə bitki qatışığı və qeyri orqanik əlavələr qatılmış, dulus çarxında formalaşdırılmış və yüksək temperaturda bişirilmişdir. Fraqmentlərin bəzilərinin xarici səthinə işarələr cızılaraq əlavə edilmişdir.

E.ə. IV minillikdə İkiçayarasında mövcüd mədəniyyətlərin Qafqaz istiqamətində baş vermiş etnik-mədəni təsirinin nəticəsində Cənubi Qafqazda formalaşmış Leylatəpə mədəniyyətinə aid olan bu abidədə arxeoloji qazıntıların

aparılması olduqca vacibdir. Koloniyalar olan bu yaşayış məskənləri strateji yerlərdə salınmaqla, insanlar o zamankı ticarət yollarına bilavasitə nəzarət etmişlər. Onların digər funksiyası isə metropoliya olan İkiçayarası şəhərlərinin xammala olan ehtiyacını ödəmək olub [3; 4]. Gələcəkdə bu abidədə aparılacaq genişmiqyaslı arxeoloji tədqiqatlar Leylatəpə mədəniyyətinin genetik və xronoloji mənsubiyyəti haqqında Azərbaycan arxeologiyasında olan informasiyanın daha da dəqiqləşməsi və zənginləşməsinə yardım edəcəkdir.

Qarabağda arxeoloji qazıntılarla yanaşı, kəşfiyyat işlərinin də aparılmasına xüsusi önəm verilir. 2010-cu ildən bu istiqamətdə aparılan işlər 2012-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun ayırdığı qranta əsasən yerinə yetirilir. Qrant layihəsi çərçivəsində Qarabağ düzənliyində yerləşən arxeoloji abidələrin elektron qeydiyyatı həyata keçirilərək xəritələşdiriləcəkdir. Keçən dövr ərzində Qarabağ düzənliyində yerləşən 100-dən çox müxtəlif dövrlərə aid arxeoloji abidə qeydiyyata alınaraq xəritələşdirilib. Onlardan 71-i Qarabağın erkən əkinçi-maldar əhalisinə məxsus yaşayış yerləridir.

## ƏDƏBİYYAT

1. Alməmmədov X. İ. “Qarabağin arxeoloji abidələri toplusu” I kitab. Bakı, 2016.
2. Нариманов И.Г, Азимов М.С. Энеолитическое поселение Чалагантепе. из серии «Памятники материальной культуры Азербайджана». Баку: Элм, 1985.
3. Almammadov Kh. I. The new monuments of Leylatapa culture discovered in Garabagh Plain // Proceedings Of The International Archeological Symposium Problems of Maykop Culture in the Context of Caucasian-Anatolian Relations. Tbilisi, 2013, s. 31-34.
4. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана (эпоха энеолита VI-IV тыс. до н. э.) // Баку, 1987.

## İsmayılbəytəpə yaşayış yeri

### 1A kvadratının planı




1. 1 Saylı tikili qalığı
2. 2 Saylı tikili qalığı
3. 3 Saylı tikili qalığı
4. 4 Saylı tikili qalığı
5. 5 Saylı tikili qalığı
6. 6 Saylı tikili qalığı
7. 7 Saylı tikili qalığı
8. 8 Saylı tikili qalığı
9. 1 Saylı təsərüfat küpü
10. Kremasiya icra olunmuş qəbir
11. 3 Saylı təsərüfat küpü
12. Təsərrüfat quyusu
13. 2 Saylı təsərrüfat küpü

# DÖVLƏTÇİLİK TARİXİMİZİN ÖYRƏNİLMƏSİNDƏ NUMİZMATİKANIN ROLU

***Abbas Seyidov***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

**Açar sözlər:** *kolleksiya, sikkə, zərbxana, Azərbaycan dövlətçiliyi, pul islahatı*

*Tarix yaranandan və insanlar özlərini dərk etdikləri zamandan bəri vurğunu olduqları əşyaları toplamaqla məşğul olublar. Fikrimizcə, belə insanların arasında ən qiymətliləri qədim sikkə kolleksiyaçılarıdır. Təqdim olunan bu məqalə də həmin kolleksiyaçılardan birinin – R.Rzayevin 50 il ərzində topladığı mindən artıq tarixin müxtəlif dövrlərini əks etdirən qızıl, gümüş və misdən hazırlanmış numizmatik materiallarının bir qisminə həsr olunub. Həmin metal sikkələrin arasında e.ə.III-II əsrlərdən başlayaraq Azərbaycan dövlətçiliyini əks etdirən pullar vardır. Eyni zamanda, müxtəlif dönəmlərdə Azərbaycan ərazisində dövriyyədə olan qonşu dövlətlərə məxsus numizmatik materiallar da vardır ki, onların bir qismi Azərbaycanın müxtəlif şəhərlərində zərb edilib. Bu pullar formasına görə dairəvi, kvadrat, çoxbucaqlı-əyri şəkillərdədir.*

# РОЛЬ НУМИЗМАТИКИ В ИЗУЧЕНИИ ИСТОРИИ НАШЕЙ ГОСУДАРСТВЕННОСТИ

***Аббас Сеидов***

**Ключевые слова:** *коллекция, монета, монетный двор, денежная реформа, государственность Азербайджана*

Статья посвящена части золотых, медных и серебряных монет количеством свыше 1000 единиц, отражающих разные периоды истории, собранных коллекционером Р.Рзаевым в течении полувека. Среди них есть монеты, отражающие государственность Азербайджана начиная с III-II веков до н.э. Помимо этого, есть нумизматические материалы соседних

государств, часть которых отчеканены в разных городах Азербайджана. Эти деньги имеют овальную, квадратную, многогранную-кривую формы.

Нумизматика, как вспомогательная историческая дисциплина, возникла в конце XVIII века. Известно, что деньги – это продукт классового общества. В первобытнообщинном строе была меновая торговля, иными словами – товарообмен. А деньги, как средство оплаты, стали применяться только с возникновением государства. Впоследствии чего, в экономической жизни общества произошли значительные перемены. Номинальный вес, состав, надпись с именами и годами правления, местом чеканки монет весьма ценный источник с точки зрения изучения истории.

Со временем, товарообмен уступил место металлическим монетам. В начале VII века до н.э. на берегах Эгейского моря – в Лидии (юго-восточная Турция), Греции, Индии и Китае появились первые металлические монеты. Однако, по мнению некоторых известных ученых, деньги были одним из важных изобретений древних Шумеров.

После смерти Александра Македонского на территории Азербайджана было основано монетное дело. Это подтверждается и серебряной драхмой III-II вв. до н.э.

Анализы и исследования нумизматических материалов приводят к выводу, что возникновение классового общества на территории Азербайджана и история государственности уходят далеко за историческую эру. Эта земля является одной из древнейших центров цивилизации Южного Кавказа и Передней Азии, а азербайджанский народ – ее коренным населением.

## THE ROLE OF NUMISMATICS IN STUDYING THE HISTORY OF OUR STATEHOOD

***Abbas Seyidov***

**Keywords:** *collection, coin, mint, statehood of Azerbaijan, money reform*

The article is dedicated to a part of more than 1000 gold, copper and silver coins assembled by the collector R.Rzayev over a period of half a century. Some of them reflect the statehood of Azerbaijan since the 3rd-2nd centuries B.C. Moreover, a number of numismatic materials of outside states

were minted in cities of Azerbaijan. The coins are oval, square, and polyhedral-shaped.

Numismatics, as an auxiliary historical discipline, originated in the late 18th century. It is well known that money only appears in class societies. People traded by barter in primitive societies. Money, as a mean of payment, only became desirable upon the appearance of the state. Consequently, considerable changes took place in economic life of society. Nominal weight, mixture of metals, legends including the name of a ruler and years of reign, and mint marks are valuable historical sources.

Over the centuries, barter trade gave way to metal coins. In the early 7th century B.C. The first metallic coins appeared on the shores of Aegean Sea – in Lydia (South-East Turkey), Greece, India and China. However, some well-known scholars claim that money was one of the significant inventions of the Sumerians.

The coinage emerged in Azerbaijan following Alexander the Great's death. Silver drachma of the 3rd-2nd centuries B.C. demonstrate this.

Analyses and surveys of numismatic materials lead to the conclusion that the emergence of class society in Azerbaijan and statehood history goes far beyond the historical era. This land is one the most ancient centres of civilization in Southern Caucasus and Front Asia, and the Azerbaijani people are the indigenous people of these lands.

Məlum olduğu kimi, numizmatika tarix elminin köməkçi sahəsi kimi XVIII əsrin sonlarında meydana çıxmışdır. Azərbaycan sikkəşünaslığının yaranması isə XIX əsrin əvvəllərində - Avropa və rus alimləri X.Fren, B.A.Dorn, M.E.Droun, S.Len-Pul, De-Leklüz, B.Berezin, M.F.Soret, T.Bartolomey, V.Q.Tizenqauzen, S.Q.Stroqanov, P.S.Savelyev, A.K.Markov, həmçinin Azərbaycan-Şərq alimləri A.Bakıxanov, M.Kazımbəy, M.C.Topcubaşov, M.Mübarəki, Ə.Töhid, Ə.Ziya, İ.Qalibi və d. araşdırmaları ilə bağlıdır. Bu şərqşünas alimlər öz əsərlərində müxtəlif dövrlərdə Azərbaycanda zərb edilmiş sikkələrin təsnifatını vermişlər.

İlk azərbaycanlı numizmatlar Sankt-Peterburq Universitetinin professoru Mirzə Cəfər Əlimərdan bəy oğlu Topçubaşov (1790-1869-cu illər) və Məhəmməd Əli Mirzə Kazım bəy (1802-1870-ci illər) olmuşlar.

1920-ci ildə sovet hakimiyyətinin qurulması ilə əlaqədar Azərbaycan sikkələrinin öyrənilməsi akademiyanın müxbir üzvü Y.A.Paxomov və digər elm adamları S.Aşurbəyli, A.A.Bıkov, K.V.Trever, V.Q.Lukonin, A.N.Zoqraf, K.V.Qolenko, Q.F.Dundua, Q.A.Lordkipanidze, E.B.Zeynal, A.B.Nikitin, İ.M.Dyakonov, D.Q.Kapanadze, Q.A.Fedorov-Davıdov kimi sovet alimlərinin tədqiqat obyekti olmuşdur.

XX əsrin ortalarından başlayraq M.Ə.Seyfəddini, A.V.Rəhimov, Ə.M.Rəcəbli və İ.Ə.Babayev, əsrin sonlarında isə S.A.Dadaşova, M.M.Rəsulova, Y.A.Siniçina, Z.M.Əliyev, Q.Ə.Pirquliyeva, T.Ə.Quliyev və A.A.Quliyev Azərbaycan numizmatikasının müxtəlif problemlərini tədqiq etmişlər. Bu işdə Ə.M.Rəcəblinin və M.Ə.Seyfəddinin xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Məlum olduğu kimi pul sinifli cəmiyyətin məhsuludur. İbtidai-icma cəmiyyəti dövründə yalnız əmtəə mübadiləsi olmuşdur. Pul isə tədavül vasitəsi kimi dövlətlər yarandıqdan sonra meydana çıxmışdır. Pulun meydana çıxması ilə cəmiyyətin iqtisadi həyatında mühüm dəyişikliklər baş verir. Qədim sikkələrin nominal dəyəri, tərkibi, üzərində məxsus olduğu dövlətin, hökmdarın adının yazılması və zərb yeri hər hansı ölkənin tarixini öyrənmək baxımından çox qiymətli mənbələrdəndir.

Araşdırmalar göstərir ki, ibtidai icma cəmiyyətində insanlar pul vasitəsi kimi silah, mal-qara, balıq, xəz, ərzaq məhsulları, bəzək əşyaları, metal külçələr, əmək və ov alətlərindən istifadə etmişlər. Neolit dövründən (e.ə.VIII-VII minilliklər) başlayaraq Dəclə, Fərat, Nil, Amudərya, Sırdərya, Hind, Qanq, Xuanxe, Yantsı, Kür və Araz çayları, həmçinin Urmiyə gölü hövzəsində məskunlaşmış tayfalar arasında ticarətdə mübadilə vasitəsi kimi xam və emal edilmis daş alətlərdən (obsidian və çaxmaqdaşı), kauri (qarnıyarıq), mineral daşlardan hazırlanmış muncuqlardan, tunc dövründən (e.ə.IV minillik) başlayaraq isə tunc qolbaqlardan, ox ucluqlarından, toksinlərdən (saxsı jetonlar) istifadə edilmişdir.

Azərbaycan ərazisində ilk dövlət qurumu 4900 il bundan əvvəl – e.ə. XXVIII-XXVII əsrlərdə tarix səhnəsinə çıxan Aratta olub. Onun ardınca, e.ə. XXIV-XXII əsrlərdə Lullubi və Kuti kimi dövlət qurumları yaranıb. Lakin Azərbaycanın cənubunda e.ə.IX əsrin ortalarında çətin siyasi şəraitdə yaranan ilk dövlət Mannadır. Manna haqqında e.ə. 843-cü ilə aid Assur mixi yazılarında məlumatlar vardır [1, s.64-94].

Zaman keçdikcə insanlar əmtəə mübadiləsini metal sikkələrlə əvəz etməyə başlayırlar. E.ə. VII əsrin əvvəllərində Egey dənizi hövzəsində – Lidiya dövləti (cənub-qərbi Türkiyə) və Yunanıstanda [2, s.13-26], eyni zamanda Hindistan və Çində ilk metal pullar meydana çıxır [3, c.6-9]. Bir sıra məşhur alimlər pulun Şumerlərin icadlarından biri olduğunu iddia edirlər.

Lidiya çarlığının çiçəklənməsi dövrü e.ə.VII-VI əsrlərə təsadüf edir ki, bu dövrdə ilk metal pullar görünməyə başlayır. E.ə.V əsrdə yaşamış yunan tarixçisi Herodot qeyd edir ki, e.ə.VII əsrdə – e.ə.687-ci ildə Lidiya hökmdarı elektradan (təbii qızıl və gümüş qatışığı) sikkələr zərb etdirirdi. Krezin dövründə (e.ə. 560–546-cı illər) dövriyyəyə qızıl pullar buraxılır. Lidiya pul sistemi tezliklə Yunan ada dövlətlərinə də yayılır. E.ə.546-cı ildə Əhəməni çarı Kir döyüşdə Krezi məğlub edir və Lidiya dövlətinin varlığına son qoyur. Eyni

zamanda Kir lidiyalılardan metal pul istehsal etməyin sirlərini öyrənir. Lidiya çarı Aliattın dövründə (e.ə.610-561-ci illər) metal pulların çəkisi 168 buğda dənəsinə bərabər hesablanırdı [3, c.6-7].

Təbii ki, Azərbaycan da bu proseslərdən kənarda qalmamışdır. Mesopotamiya, Lidiya, Yunanıstan, Misir sivilizasiyalarının təsiri ilə ölkəmizin cənubunda pul sistemi meydana gəlmişdir. Herodot yazır ki, Midiya ərazisində yaşayan tayfalar hər il Əhəmənilərin xəzinəsinə bac şəklində 650 talant - 26 tona yaxın gümüş verirdi (Bir talant təxminən 40 kq-a bərabər idi).

Tarixdən məlum olduğu kimi, I Daranın hakimiyyəti illərində (e.ə. 522-486-cı illər) Əhəmənilər dövlətində pul islahatı keçirilmiş, dövriyyəyə qızıl darik və gümüş siqllər buraxılmışdır.

Makedoniyalı Aleksandrın (İsgəndərin) ölümündən sonra Atropatena və Albaniyanın siyasi müstəqillik qazanması iqtisadiyyatın dirçəlməsinə səbəb olmuş, beynəlxalq ticarət əlaqələri genişlənmiş, nəticədə pula tələbat artmış, Azərbaycan ərazisində pul zərbi işinin əsası qoyulmuşdur. Bunu e.ə.III-II əsrlərə aid, bir üzündə Heraklın (Makedoniyalı Aleksandrın-İsgəndərin kobud bənzətmə təsviri), digər üzündə isə taxtda oturmuş, bir əlində qartal, digər əlində əsa tutmuş Zevsin kobud bənzətmə təsviri olan gümüş draxma təsdiq edir.

Eramızın 224-cü ilində Arşakilər sülaləsinin hakimiyyətinə son qoyulur. 226-cı ildə Sasan nəslindən olan I Ərdəşir (226-241-ci illər) özünü Ktesifon şəhərində İran şahənşahı elan edir. Sasani pul-çəki sistemi də Parfiyada olduğu kimi Attika pul-çəki sistemi üzərində qurulmuşdu. Sasani sikkələrinin aversində (üz tərəfində) şahənşahın sinəyə qədər portreti, ətrafında onun adı və epitetləri zərb edilirdi. Sikkənin reversində (əks üzü) müqəddəs atəşdan və qoruyucular təsvir eilirdi. Təsvirin ətrafında zərb ili və zərbxananın adı verilirdi.

Qeyd etmək lazımdır ki, sasanilərə aid olan bəzi pulların üzərində “Bərdə 25”-ci hakimiyyət ili, “Dərbənd 37”-ci hakimiyyət ili, “Naxçıvan 31”-ci hakimiyyət ili və s. Azərbaycan şəhərlərinin adları vardır. Sasani sikkələrinin üzərində olan yazılar pulun hansı şəhərdə və hökmdarın hakimiyyətinin neçənci ilində zərb olunduğunu göstərir. Məsələn: II Xosrovun hakimiyyət illəri 590-628-ci illəri əhatə edirsə, Dərbənddə zərb edilmiş pulun tarixi 627-ci ilə düşür (590+37=627). Bərdə, Gəncə, Təbriz, Naxçıvan və Dərbənd tarixi Azərbaycan şəhərləridir.

VII əsrin ortalarından etibarən ərəblər Azərbaycan ərazilərini işğal edirlər. Xilafət dirhəmi sabitliyi sayəsində üç qitə ərazisində beynəlxalq ticarət sikkəsi - dünya pulu rolunu icra edirdi. Əvvəllər sikkə zərbi anonim icra olunurdu. Amma xəlifə əl-Mənsurun (754-775-ci illər) dönəmində sikkələr üzərində vəliəhd və canişinlərin adları, xəlifə əl-Mehdinin (775-785-ci illər) sikkələrində isə xəlifənin öz adı da həkk edilirdi.

Şirvanşah Məzyədilər Xilafətdə ilk müstəqil canişinlərdən olmuşlar. Şirvanşah Məzyədilər (861-1027-ci illər) sülaləsinin davamı kimi meydana çıxan Kəsranilər (1027-1382-ci illər) və Dərbəndlilərin (1382-1538-ci illər) dövründə gümüş dirhəm və mis fuluslar zərb olunur. Numizmatik materiallar içərisində bəzi sikkələrin bir üzündə Şirvanşahların, digər üzündə Səlcuq sultanlarının adları zərb olunub. Bunlar Şirvanşahların o dövrdə Səlcuq sultanlarından asılı olduğunu göstərir. Digər pulların üzərində "Kaan əl adil" kəlməsinə rast gəlinir ki, bu da monqollara olan tabeçiliyin əlamətidir [4, s.3-77].

Numizmatik materiallar arasında Şirvanşah II Xəlilullaha (1524-1535-ci illər) və qardaşı II Fərrux Yasara (1527/1528-ci illər) aid eyni ildə zərb olunmuş sikkələr vardır. Şah I İsmayıl Səfəvinin kürəkəni olan II Xəlilullahın hakimiyyəti illərində - 1527-ci ildə Şamaxıda iki hökmdarın adına zərb olunmuş pullar onu göstərir ki, ya II Fərrux Yasar bir neçə aylığa hakimiyyəti öz əlinə keçirməklə, adına sikkə zərb etdirə bilmiş [5, s.240],ya da ikihakimiyyətlik olmuşdur [6, s.23].

IX əsrin ikinci yarısından etibarən Azərbaycan ərazisində Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Naxçıvan şahlığı kimi yarımmüstəqil və bəzən də müstəqil dövlətlər yaranır. XII əsrdə Azərbaycan Atabəyləri dövləti, monqol hakimiyyətinin sonlarında isə Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar kimi müstəqil, coğrafi baxımdan daha geniş əraziləri əhatə edən böyük dövlətlər meydana çıxır. Ağqoyunlu və Səfəvi şahları Herat, Şiraz ilə yanaşı Azərbaycanın Təbriz, İrəvan, Gəncə, Naxçıvan, Qəzvin və s. şəhərlərində sikkələr zərb etdirmişlər. Bu da həmin dövlətlərin ərazisinin nə qədər geniş olduğunu göstərir. Sikkələr dövlətin tarixi coğrafiyasını, dövrünü, hökmdarın hakimiyyət illərini və s. göstərir.

XI əsrin sonlarında Böyük Səlcuq imperiyasının ayrı-ayrı sultanlıqlara parçalanmasından sonra ön plana qüdrətli atabəylər çıxır [7, s.77-106]. Onların arasında ən nüfuzlusu Azərbaycan Atabəyləri - Eldənizlər idi (1136-1225–ci illər). Azərbaycan Atabəylərinə aid elə sikkələr vardır ki, pulun üzərində həm İraq Səlcuq Sultanlarının, həm də Azərbaycan Atabəyləri hakimlərinin adları yazılıb. Atabəy Məhəmməd Cahan Pəhləvanın (1175-1186-cı illər) adına kəsilmiş bir sikkənin üzərində İraq Səlcuq Sultanı Arslan şahın (1161-1177-ci illər) adı zərb olunub. Qeyd edək ki, Arslan şah Məhəmməd Cahan Pəhləvanın ögey qardaşıdır.

XIII əsrin 20-30-cu illərində monqol yürüşləri Azərbaycan intibahını çox-çox geriyə atdı. Dövlətin sosial-iqtisadi həyatında müsbət dəyişikliklər Keyxatu xanın varisi - Elxan Qazan xan Mahmudun (1295-1304) zamanında baş verdi. O, görkəmli vəziri Fəzlullah Rəşidəddinin məsləhəti ilə bir neçə uğurlu islahat həyata keçirdi ki, onların içərisində pul islahatı da var idi. XIV əsrin birinci yarısında müxtəlif şəhərlərdə 40-dan artıq zərbxana fəaliyyət

göstərirdi. Burada gümüş dirhəmlər, mis felslər və qızıl dinarlar zərb edilirdi. Monqolların Təbriz, Naxçıvan, Dərbənd və Mahmudabadda zərb olunan gümüş dirhəmləri və mis felsləri təqdim olunan materiallar arasındadır

Azərbaycan Səfəvilər dövlətinin yaradıcısı Şah I İsmayılın (1501-1524-cü illər) sikkələri 60-dan çox zərbxananı – şəhəri təmsil edir. Səfəvi pul sisteminin əsas vahidi gümüş sikkə "şahi" idi. Bu terminin mənşəyi şübhəsiz ki, Səfəvi dövləti ilə əlaqədardır. Bu dövlətin hökmdarları Ağqoyunlu padşahlarından, Osmanlı sultanlarından və Mərkəzi Asiya xanlarından fərqli olaraq, özlərini monarx titulu olan "şah" adlandırırdılar. O, yalnız şah, yəni dünyəvi dövlət başçısı deyil, həm də imam – yeni yaradılmış şiə icmasının dini başçısı hesab edilirdi.

Şah I İsmayılın gümüş şahi ilə yanaşı, qızıl pullarıdə vardır. Qızıl pullar epizodik zərb edilir və əsasən donativ xarakter daşıyırdı. Onu “tela” (ərəbcə "qızıl"), yaxud “əşrəfi” adlandırırdılar. Mis sikkə adətən pul, qara-pul ya siyah-pul adlanırdı.

Şah I İsmayılın oğlu və varisi Şah I Təhmasibin (1524-1576-cı illər) zamanında əsas sikkə vahidi olan şahi ciddi dəyişikliyə məruz qalır. Müharibələr nəticəsində sikkə hüququnun yayılma arealı müəyyən vaxtlarda məhdudlaşır. Lakin Qərbdə və Şərqdə itirilən ərazilər Şimalda bərpa olunur. Belə ki, dövlətin pul tədavülü öz sferasını Səfəvilər dövlətinin ərazisinə qatılan Şirvan və Şəki torpaqları hesabına nisbətən qoruyub saxlaya bilir. Şah I Təhmasibin zamanında qızıl əşrəfi, gümüş şahi və larinin zərbi davam etdirilirdi.

Şah I İsmayılın dövründən məlum olan “larin” haqqında Avropa səyyahları məlumat vermişlər. Pulun adı Cənubi Azərbaycanda yerləşən Lar şəhərinin adı ilə bağlıdır [8, c.35]. Bu sancaqşəkilli pulun üzərində hökmdarın (Şah I İsmayıl və Şah I Təhmasib) adı və zərb yeri göstərilib. Belə mülahizə olunur ki, Səfəvi dövlətinin sərhədlərini keçən xarici səyyahlar və ya tacirlər gömrük rüsumu ödədikdən sonra, larin alırdılar. Onu sancaq kimi yaxasına taxan şəxs azad ticarətlə məşğul ola bilərdi.

Şah Məhəmməd Xudabəndənin (1578-1587-ci illər) dövründə yeni pul vahidi "mohammadi" (mahmudi) meydana çıxır. Onun hakimiyyətə gəlişi Səfəvilərin sikkə işində əvvəlki tipologiyanın tam ləğvi ilə əlamətdar olmuşdu. Yeni sahın xüsusi fərmanı ilə ilk iki Səfəvi şahının zamanında istifadə olunan - şiə formuluna uyğun sikkələrin zərbi bərpa olunur. Yeni tipli sikkələr “xudabəndə”, yaxud “mohammadi” adını alır. Şah I Abbasın (1587-1629) islahatları sikkə zərbində də öz müsbət əksini tapır. 1595-ci ildən etibarən başqa çəki sisteminə uyğun yeni sikkələr meydana gəlir. 1595-1617-ci illər ərzində buraxılmış yeni qızıl pul vahidi "abbasi" (Abbasın sikkəsi),həmçinin, gümüşdən zərb edilən “mahmudi”, “şahi”, “bisti” və mis “qazıbəyi” (“qazbeqi”)

dövriyyədə idi.Səfəvi şahları Sultan Hüseyn (1694-1722-ci illər) və II Təhmasibin (1722-1732-ci illər) zamanında da gümüş abbasilər zərb olunurdu.

Kolleksiya materialları arasında XVIII-XIX əsrlərdə yaşamış türk əsilli İran hökmdarlarından Nadir şah Əfşar (1736-1747-ci illər), Sultan Adil Əfşar (1747-1748-ci illər), Fəth Əli şah Qacar (1772-1834-cü illər), Məhəmməd şah Qacar (1808-1848-ci illər), Nəsr əd-Din şah Qacar (1848-1896-cı illər), Müzəffər əd-Din şah Qacar (1896-1907-ci illər) Sultan Əhməd şah Qacara (1909-1925-ci illər) və fars əsilli Kərim xan Zəndə (1763-1779-cu illər) aid gümüşdən hazırlanmış şahi, abbasi və əşrəfilər vardır.

1747-ci ildə Nadir şahın ölümündən sonra Azərbaycan ərazisində xanlıqlar meydana çıxır. Onlardan biri də mərkəzi müasir Ermənistan Respublikasının paytaxtı, qədim Azərbaycan şəhəri olan İrəvan xanlığıdır (Qeyd edək ki, İrəvan şəhəri də daxil olmaqla 9 min kv. km Azərbaycan torpağı heç bir hüquqi əsas olmadan, 1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ermənilərə bağışlanıb). Xanlığın ərazisi müasir Ermənistan Respublikasını, Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarını və Türkiyənin İğdır elini əhatə edib. Xanlıq 1827-ci ildə rus ordusu tərəfindən işğal olunub. Xanlığı Mir Mehdi xan (1747-1752-ci illər), Xəlil xan (1752-1755-ci illər), Həsənəli xan (1755-1759-cu illər), Hüseynəli xan (1759-1783-cü illər), Qulaməli xan (1783-1784-cü illər), Məhəmməd xan (1784-1797-cu illər), Əliqulu xan Qacar (1797-ci il), Həsən xan Makulu (1797-ci il), Məhəmməd xan (1797-1805-ci illər), Mehdiqulu xan (1805-1806-cı illər), Əhməd xan (1806-cı il) və Hüseynqulu xan (1806-1827-ci illər) idarə edib [9]. Xanların arasında bir nəfər də olsun başqa millətə aid olanı yoxdur. Numizmatik materiallar içərisində orta əsrlərdən XIX əsrin əvvəllərinə qədər olan dövrə aid Səfəvi hökmdarlarının, Osmanlı sultanlarının, Azərbaycan xanlarının adına İrəvanda zərb olunmuş pullar vardır ki, bu da İrəvan şəhərinin və ətraf ərazilərin əzəli, qədim Azərbaycan torpağı olduğunu bir daha sübut edir.

Numizmatik materialların təhlilindən və araşdırmalarımızdan belə nəticəyə gəlmək olur ki, Azərbaycan ərazisində sinifli cəmiyyətin yaranması və dövlətçilik ənənələrinin tarixi eramızdan çox-çox əvvəllərə gedir. Bu torpaq Cənubi Qafqazın və Ön Asiyanın ən qədim sivilizasiya mərkəzlərindən biri, Azərbaycan xalqı isə ərazinin aborigen (yerli) sakinləridirlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), I Cild, “Çıraq”, 2007
2. Rəcəbli Ə.M., Azərbaycan sikkələri., Bakı, “Xalq Bank”, 2012, 360 səh.
3. Кошевар Д.В., Деньги мира. Монеты и банкноты., Москва: АСТ, 2015, 256 с.
4. Rəcəbli Ə.M. Şirvanşahlar dövlətində sikkə zərbi (VIII-XVI yüzillər), Bakı, “Elm və təhsil”, 2015, 240 s.
5. Aşurbəyli S. Şirvanşahlar dövləti., Bakı, “Əbilov, Zeynalov və oğulları”, 2006, 323 səh.
6. Seyidov A., Quliyev A., Rzayev R. Azərbaycan tarixi (numizmatik materiallar əsasında), Bakı, “Elm”, 2017, 246 s.
7. Сейфеддини М., Мирабдуллаев А. Денежное обрашение и монетное дело Азербайджана IX-XIV веков., Баку, “Nafta-Press”, 2004, 267 с.
8. Раджабли А. Монетное дело Азербайджанского государства Сефевидов, Баку, “Зия”, 2014, 232 с.
9. https://az.wikipedia.org/wiki/%C4%B0r%C9%99van_xanl%C4%B1%C4%9F%C4%B1

## BAKI QALASININ TARİXİNƏ DAİR YENİ MƏLUMATLAR

***Vəfa Quliyeva, Qənirə Pirquliyeva***
*"İçərişəhər" Dövlət Qoruğu İdarəsi*

***Açar sözlər:*** *Bakı, İçərişəhər, Moskva, arxiv, qala*

Bakı şəhərinin tarixi, memarlıq, epiqrafik abidələri, onun qədim yaşayış məskəni olan İçərişəhər haqqında Azərbaycan tarixşünaslığında xeyli sayda fundamental araşdırmalar vardır. Lakin buna baxmayaraq, İçərişəhər bir tədqiqat obyekti kimi hələ də tədqiqatçıların maraq dairəsindədir. Bu da şəhərin son işğal tarixindən sonra onun haqqında olan ən mühüm sənədlərin əsasən Rusiyanın muzey fondlarında, arxivlərində saxlanılması ilə bağlıdır.

## НОВЫЕ СВЕДЕНИЯ О ИСТОРИИ БАКИНСКОЙ БАШНИ

***Вефа Кулиева, Ганира Пиркулиева***

***Ключевые слова:*** *Баку, Ичеришехер, Москва, архив, башня*

В статье повествуется о новых материалах, обнаруженных в Московском Военно-историческом архиве Российской Федерации, касающихся Бакинской крепости – Ичеришехер. В более чем 100 единицах дел выявлены генеральные планы крепости, составленные с 1807 по конец XIX века по годам, прослеживается динамика изменений, происходивших в крепости на протяжении всего XIX века, а также материалы по Бакихановым.

## NEW KNOWLEDGES ABOUT THE HISTORY OF THE BAKU TOWER

***Vefa Guliyeva, Ganira Pirguliyeva***

***Keywords:*** *Baku, Icheri Sheher, Moscow, archive, tower*

In the article of Federation Russian Moskow city setting Military history in archives Baku it should stay Icherisheher about clear been interesting documents discussion it is been.

From 100 already in the work Baku it should stay different year from by Russian engineer composition compiled schematic to plan mostly XIX in the century stay happening changes dynamics to watch it is possible.Bakixanovlar about new are information in the hand it have been.

Bakı qalası-İçərişəhər haqqında mövcud sənədlərin dünyanın ayrı-ayrı məkanlarında üzə çıxarmaq, onların ən azından surətini ölkəmizə gətirmək, ciddi elmi araşdırmalar aparmaq məqsədi ilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğuİdarəsi vaxtaşırı əməkdaşlarını elmi ezamiyyətə göndərir. 2015-ci ilin yayında Rusiyanın ən nüfuzlu və zəngin arxivlərindən olan HərbTarixi Arxivində iki həftə gərqin elmi axtarışlar aparmaqla maraqlı məlumatlar əldə edə bildik.

Qeyd edək ki, Moskvaya yola düşməzdən öncə arxivin internet səhifələrində olan materialları ilə tanış olmuşduq.Bundan başqa, bizi maraqlandıran bəzi məsələlərlə bağlı elmi əsərlərdəki məlumatları toplayaraq, aparacaq tədqiqat istiqamətini müəyyənləşdirmişdik. Belə ki, alim–memar Ş.Fətullayevin-Fiqarovun çoxsaylı elmi əsərlərində, xüsusilə XIX-XX əsrin əvvəllərində Bakının şəhərsalma tarixinə həsr edilən monoqrafiyasında şəhərin müdafiə sisteminin gücləndirilməsi baxımından ayrı-ayrı vaxtlarda iki layihə-plan variantının olduğu qeyd olunur. Layihənin birinci variantı 1796-cı ildə, ikinci variantı 1807-ci ildə ruslar tərəfindən tərtib edilib. Birinci layihəyə görə İçəri şəhər qalasının iki dəfə böyüdülərək, cənub-qərb istiqamətində inkişafı nəzərdə tutulurdu.Əlimizdə olan dəqiq məlumata görə mayor, mühəndis Xristian Truzson tərəfindən tərtib edilmiş ikinci plan-layihəyə əsasən şəhərdən kənarda dəniz sahilində, düzənlik yerdə başqa bir qalanın inşa edilməsi nəzərdə tutulurdu[1, s.5]. Hər iki plan-layihə Rusiya İmperiyası tərəfindən məxsusi olaraq hazırlansa da, onların heç biri yerinə yetirilməmişdir. Buna səbəb Qafqazın və Azərbaycanın tam işğalının başa çatdırılmaması idi.

Bakı qalasının ilk sxematik planı rus topoqraf-mühəndisləri, həm də hərbçiləri tərəfindən 1833-cü ildə yaradılmışdı. Sonrakı illərdə bu planlar hər il yenilənmiş, bütün yeni detallar-söküntülər, tikililər, küçələrin quruluşu, və digər vacib şəhər infrastruktur elementləri belə sənədlərdə geniş izah və şərhlər verilməklə göstərilmişdir.

Beləliklə, 1806-cı ildən sonra, yəni Bakının ruslar tərəfindən işğal tarixindən dərhal sonra 1807-1811-ci illərdə şəhərin ikiqat müdafiə divarının möhkəmləndirilməsi işləri həyata keçirilmişdir[1, s.10].

Rusiya Hərb Tarixi Arxivində sənədlərlə tanış olduğumuz zaman bu və ya digər dəyərli məlumatlardan xəbərimiz olaraq, çalışırdıq. Ümumilikdə, bu səfər zamanı elmə az və yaxud heç məlum olamayan 112 iş aşkarladıq. Sənədlərin içərisində İçərişəhərin əsaslı planlarından başqa, qalanın şəhərdən kənar planını, ticarət karvansaralarını, məscidləri, xan sarayının geniş planlarını, su xətlərini, yeraltı quyuları, ovdanları və başqa qiymətli materialları misal çəkə bilərik.

Hər bir göndərilən materialın saxlanma və çatdırılma vəziyyəti demək olar ki, qənaətbəxş olmuşdur. İdarəmizdə elektron texnologiyaların köməyi ilə onlar iri ölçülü kağız üzərində çıxarılmış və araşdırma üçün bizə təqdim edilmişdir.

Şəkillərin adlarından göründüyü kimi, Bakı qalasının - İçərişəhərin bəzi hissələrinin XVIII əsrin əvvəlləri (konkret olaraq 1723-cü il) və XIX əsrin ilk onilliyində əsas görüntüləri mükəmməl şəkildə, dəqiqliklə, topoqrafiyaya uyğun hazırlanıb. Beləliklə, yuxarıda göstərilən arxiv materiallarının ilkin araşdırılması bizə artıq bəzi istiqamətlərdə elmi tədqiqat işləri aparmağa imkan verdi. Bunlar aşağıdakılardan ibarətdir.

İçərişəhərin içməli su təchizatının istiqamətinin dəqiqləşdirilməsi. Bu sənəddə (f.349, siy.3, iş №3343, vər.1) Şah Hüseynquluxan və Məmmədqulu xan su xətlərinin ümumi quruluşu, onların mənbəyi, qalaya daxil olma marşrutları və xətt üzrə tikililər–quyular, ovdanlar, ümumi axarı və digər məsələlər tam dəqiqliklə göstərilmişdi. Eyni zamanda sənəddə Qaladan xaricdə yerləşən 4 yeraltı zirzəmi haqqında da məlumat verilir. Əlimizdə olan bu sənəd bizim ilkin ehtimalımızın düzgün olduğunu tam olaraq sübut edir. Sənəddə ən vacib məsələlərdən biri xəttin uzunluğu vəquyular arası məsafənin dəqiq göstərilməşidir. Maraqlıdır ki, 1-ci sinif konstruktoru S.Labanovun imzası ilə tərtib olunan sənədin izahat hissəsində 1809-cu ildə çəkildiyi zaman III Məmmədqulu xan su xəttinin artıq tutulması, yəni istifadəyə yararlı olmaması və bu xəttin yerli əhalidən aldıqları məlumatlara əsasən bərpa edilməsi haqqında məlumat verilir. Həmçinin, su xəttinin vaxtaşırı təmizlənməsi üçün ayrıca bir borunun olması qeyd edilmişdir. Beləliklə, sənəddə qalanın mövcudluğu üçün bütün sanitar-gigiyena qurğularının hələ orta əsrlərdən mövcud olması, urbanizasiyaya uyğun olaraq yeni su xətlərinin çəkilməsi və üç tərəfdən qalanın relyefinə uyğun vaxtaşırı genişləndirilməsi haqqında dolğun məlumat verilir.

Digər bir sənəd podpolkovnik, hərbçi-topoqraf, mühəndis Xristian Truzson adı ilə bağlıdır. Bu sənəd Bakı qalasının 1807-1809-cı illərdə tərtib edilmiş baş planıdır. Bu plan mərhum alim S.Fətullayev-Fiqarovun “Bakının XIX əsrin sonu – XX əsrin əvvəllərində şəhərsalma” adlı kitabında çap olunmuşdur. Ş.Fətullayev-Fiqarov əsərdə planın izahını çox qısa verib. Həmin dövrdə tərtibatçının izahı ümumiyyətlə təhlil edilməyib. Əslində, bu planda

həm qalanın bütövlükdə, həm də qaladan kənarda Səbayıl qalasının ümumi quruluşunu, şimal-şərq tərəfdə olan yolları, məzarlıqları və bəzi tikililərin şəklini görmək mümkündür.

Müəllifin Şərqin orta əsr şəhərlərinin, bölgüsünün dəqiqliklə bilməsi də diqqətimizdən kənarda qalmadı. Belə ki, aydın şəkildə Şirvanşahlar sarayının yerləşdiyi iç qala – narın qala və rabad hissəsi qara xətlə ayrılmışdır. Qalada 3 yerdə minarə şəkli verilmişdir. Bu fakt bir daha qala daxilində 3 əsas məscidin – Şah, Məhəmməd və Came məscidlərinin olmasını, digər məscidlərin isə məhəlli xarakter daşıdığına görə minarəsiz olaraq yerləşməsini sübut edir. Bu planda 2 qala divarı arasında xüsusi olaraq taxtadan hazırlanan xüsusi mexanizmlə - zəncirlə yuxarı, aşağı qaldırılıb-salınan körpünün sxemi vardır. Elmi ədəbiyyatda belə bir körpünün mövcudluğu haqqında heç bir məlumat yoxdur.Olan fərziyyələr də bu günə qədər təsdiqini tapmayıb.

Bu planda birinci qala divarının müəyyən bir hissəsində, sütun quruluşunun üstündə öküz obrazının sxematik təsviri vardır. İzahatda orada daşdan öküz heykəlinin (yəqin ki, oturmuş şəkildə, baş və bədəndən ibarət) olması barədə məlumat vardır. Planda ikinci qala divarı arasında suyun olması və körpünün asma olması, xüsusi qurğu ilə işləməsi aydın görünür. Bu körpü Salyan qapılarından yuxarı, indiki Filarmoniya bağı tərəfdə olan bastiona çıxışdadır. Quruluşda birinci divardan ikinci divara asma körpüdür. Planda Salyan qapısının ikinci adı da oxunur ki,indiyə qədər bu ada heç bir elmi ədəbiyyatda rast gəlinməyib. Onun adı tərcümədə “dağ qapıları” mənasını verir. Ehtimal etmək olar ki, ruslar Salyan yolunun Bakıya yaxın olan Qobustan qayalıqlarını dağ kimi qəbul etmişlər. Planın izahında qala divarlarından kənarda üstüörtülü saray – yəni ambarların olması qeyd olunmuşdur.Planda dəniz tərəfdən 5 karvansaranın mövcudluğu aydın görünür. Hal-hazırda zəmanəmizə qədər onlardan ikisi qalmışdır: - ikimərtəbəli və kiçik karvansara.

Müasir kiçik karvansaranın iki mərtəbədən iki qapıdan - giriş və çıxışdan ibarət olması aydın olur. Ruslar gələndə buranı Ticarət karvansarası adlandırmışlar. Əslində bura Bakı qalasındakı Camenin kompleksində olan mədrəsədir. Karvansaralarda atların, dəvələrin yerləşməsi üçün yerlər ən azından olmalı idi. Burada olan hücrələr 1-2 nəfər tələbənin yaşaması və təhsil alması üçün nəzərdə tutulmuşdur. Onlar kiçik ölçüyə malik olaraq, perimetr üzrə eyni qaydada tikilmişdir. Mədrəsənin XII əsrdə inşa edilməsi elmə məlumdur. Digər mədrəsə komplekslərindən fərqi onun çox geniş ölçüləri və iki mərtəbədən ibarət olmasıdır. Görünür, tələbələrin və burada müdərrişlik edən üləma əhlinin sayı kifayət qədər çox olmuşdu ki, aşağı mərtəbənin girişi dəniz tərəfdən, yuxarı mərtəbənin girişi isə Came ilə üzbəüz yerləşdirilmişdir. Mədrəsənin alt mərtəbələrinə düşmək üçün pilləkan var. Alt mərtəbəyə keçid uzun koridorla təmin edilib. Planda, hətta rusların burada 13 tondan artıq un və

dənli bitki mənşəli ərzağın saxlamasının mümkünlüyü də göstərilir. Planda "E" hərfi ilə içməli su quyuları qeydə alınmışdır.

Kiçik karvansaranın planı ona bitişik binalar və məscidlə birlikdə «Увеличенные Планы и Профили в городе Баку» adlı sxemdə geniş və ətraflı verilmişdir. Göründüyü kimi, planda kiçik karvansaranın giriş hissəsi zəmanəmizə kimi dəyişikliyə uğramışdır.

3320 saylı sənəd ümumiyyətlə Bakı şəhərinin Xəzər dənizi və quru sərhədləri – şimal və şimal-qərb – Şamaxı-Salyan tərəfdən görüntüləridir. Burada Rusiyanın yelkənli və yelkənsiz hərbi gəmilərinin dənizdən limana daxilolma istiqamətləri də göstərilib. Sudan gəmilərin şəhərə yaxınlaşması məkanı müasir "For Season" oteli tərəfdəndir. Plan 1789-cu ildə tərtib edilib. Qurudan qoşunların hücumu Salyan qapısı tərəfdən göstərilib. Bu hərbi hücum üçün şəhərə daxil olmadan hazırlanan sxemdir. Sxemdə daxili divarda 42 bürc, bayır divarda 45 bürc var. Bayır divarının önündə altı ədəd hərbi müdafiə istehkamı vardır. Bu planda müasir Bakı-Salyan yolunun Qaradağ rayonu ərazisində yerləşən Sənqəçal karvansarası və məscidinin sxemi və planı ayrılıqda göstərilib. Əslində bu plan Bakı qalasının müdafiə sisteminin mükəmməlliyini bir daha sübut edir. Bu faktı dərk edən ruslar hücum etməyiiki istiqamətdə - quru və sudan nəzərdə tutmuş, sonra isə qalanın daxilində dörd əsas nöqtədə işğalı davam etdirməyi planlaşdırmışlar.

Digər bir maraqlı məsələ ondan ibarətdir ki, qalanın ətrafında göstərilən tarixdə çox az sayda yaşayış məskəni olub. Müdafiə tikilisi – bastionun ayrıca profildən sxemi vardır. Sxemlərdə redut adlanan bu hissə qala divarından kənarda ümumi bastionların quruluşuna uyğun tikilmiş və oradan qalaya yol vardır. Ehtimal etmək olar ki, bu, ruslar tərəfindən işğaldan sonra tikilmiş, əlavə gücləndirilmiş, müdafiə məqsədli yeni qurğudur. Sxemlərin birində bu tikilinin profili çəkilib. Bu tikili iki ilə - 2 noyabr 1807-ci ildən 4 yanvar 1809-cu ilə qədərki vaxtda ucaldılıb. Bu işi təhvil alan feldmarşal Qudoviç olub.

F.349, siy. 3, iş 3333, vər.1-də 1807-ci ildə ruslar tərəfindən Bakı qalasında yeni tikiləcək müxtəlif istehkamların ətraflı plan-sxemləri verilib. Tikiləcək istehkamlarda1№ altında 3000 pud tutumu olan barıt zirzəmisi, 2№ altında zirzəmini havalandıran qurğu, 3№ altında ərzaq və sursat saxlamaq üçün yararlı olan otaqlar, 4№ altındayaşayış üçün nəzərdə tutulmuş otaqlar (orada iki rota əsgər yerləşdirmək olar), 5№ altında mətbəx, 6№ altındarota və artel əşyalarının saxlanılması üçün nəzərdə tutulmuş otaqlar, 7№ altındairi toplardan atəş açmaq üçün nəzərdə tutulan otaqlar (hansı ki, arxa tərəfdən tüstünün çıxması üçün nəzərdə tutulan xüsusi yerlərlə və bir topun bir neçə istiqamətdə atəş açmaq məqsədi ilə yerinin dəyişdirilməsinin mümkünlüyü), 8№ altındaaltındadarvaza, 9№ altında hərbi sursat saxlamaq üçün otaqlar, 10№ altında divara bərkidilmiş dəmir qırmaq vasitəsi ilə topların və sursatın yuxarı mərtəbələrə qaldırılması nəzərdə tutulmuşdur. Sxemdə Bakı xanlarının evinin

də kazarma kimi yəni müdafiə istehkamı kimi istifadə edilməsi də təfərruatı ilə göstərilir. Rusların qeyd etdikləri kimi, xan mülkünün kazarma kimi istifadə edilməsinin müəyyən üstün cəhətləri var. Məsələn, buradan düşmənə mərmi yağdırmaq da çox rahatdır. Bundan əlavə buraya 12000 pud barıt və tam təminatlı 4 batalyon əsgər yerləşdirmək olar. Eyni zamanda batalyonlara rəhbərlik edən zabitləri, qərargahları, kazakları və digər atlı heyəti bu kazarmalara yerləşdirmək mümkündür. Beləliklə, bu qala müdafiə üçün tam yararlıdır.

A.Lobanovun digər bir sxemində diqqətimizi çəkən onun adı oldu ki,bu da Xan sarayının və xanla birgə qaçmış Mehdiqulu və Əbdürrəhim bəyin ev fasadının və profilinin sxemi idi. Tarix: 30 oktyabr 1809-cu il. Evlərin biri 3, digəri 2 mərtəbəlidir. Xan evinin əsas hissəsi 2 mərtəbədən, giriş hissədən və əlavə tikililərdən ibarətdir. Bu sənədlər orta əsrlərə aid Bakı xanlarının iqamətgahlarıvə iki bəy mülkünün dəqiq plan və profilləri haqqında müəyyən təsəvvür yaradır ki, gələcəkdə bu mülklərin bərpa və restavrasiya işində bizlərə yardımçı ola bilər.

f. 349, siy.3, iş 3339. Vər.1-də yenədə Bakı xanlarının və yuxarıda qeyd etdiyimiz bəylərin mülkləri ilə birgə bütün iqamətgahın geniş və ətraflı planı verilib. Plandan göründüyü kimi iqamətgah çox möhtəşəmdir. Gələcəkdə bu binanın tam bərpa olunması ilə burada İçərişəhər Tarixi Muzeyinin "Bakı tarixi" müzey-ekspozisiyasını təşkil etmək olar

1807-1808-ci illərin Baş planında Bakı qalasında 7 karvansaranın mövcudluğu müşayiət olunur. Bu planda Qız Qalasının yanında indiki sıra tağlı dini-memarlıq kompleksinin yeri bazar kimi qeyd olunur. Çox güman ki, XIX əsrdə burada bazar yerləşib.

Sonuncu planda şəhərin yaxınlığında, amma qala divarından kənarda, içərisində 1 məscid olan açıq tikili göstərilir. Ehtimal edirik ki, bu Bibiheybət məscidi kompleksidir. Planda yenə də "E" hərfi altında İçərişəhərdə içməli su quyularının yerləşdiyi məkanlar xüsusi qeyd olunmuşdur.

Sənədlərin ilkin təhlili Bakı qalası haqqında maraqlı, indiyə kimi Azərbaycan tarixşünaslığına məlum olmayan tarixi məqamlara aydınlıq gətirir. Materiallara əsasən biz XIX əsrdə mövcud olan və zəmanəmizə gəlib çatmayan bir sıra tarixi abidələr haqqında məlumat alırıq.

Bundan başqa, Bakı xanlarının bəzi nümayəndələri haqqında arxivdə olan materialların surəti ilə tanış oluruq. Azərbaycan tarix elmində Bakı xanlarının tarixi demək olar ki, çox az tədqiq edilib. Bunun əsas səbəblərindən biri də material, sənəd çatışmamazlığı olub. Sovetlər dönəmində Bakı xanları haqqında nisbətən Abbasqulu ağa Bakıxanovun yaradıcılığı öyrənilmişdir. 1991-ci ildən sonrakı tariximizdə mərhum akademik Z.Bünyadov A.Bakıxanovun elmi yaradıcılığını öyrənmək, onun Azərbaycan tarix elminin banisi olduğunu dəqiqləşdirmək üçün müəllifin "Gülüstani-İrəm" əsərini əlavələrlə, redaksiya ilə dilimizə tərcümə etmişdir.

Bundan sonra AMEA-nın Tarix İnstitutu böyük hörmət və şərəflə A.Bakıxanovun adını daşımağa başladı. Lakin Bakıxanovlar nəsli yalnız Abbasqulu ağa ilə bitmir. Bu sülalənin Azərbaycan memarlıq, mədəniyyət, elm, hərb tarixində oynadığı rol hələ də tam olaraq araşdırılmayıb. Biz onlara aid olan sənədlərin də ölkəmizə gətirilməsi üçün cəhd göstərdik.

Qeyd edək ki, 2011-ci ildə Tiflis Tarix Arxivinə ezam olunduğumuz zaman da eyni mövzu ilə maraqlanmışdıq. Oradan bununla bağlı yalnız bir məlumat ala bildik. Arxiv idarəsinin bildirdiyinə görə Abbasqulu ağa Bakıxanovun fondu Sankt-Peterburqda yerləşən Hərb Tarixi Arxivinə təhvil verilib.

Moskva Hərb Tarixi Arxivindən bu nəslin bir neçə nümayəndəsi haqqında da sənədlər əldə etdik. Bu sənədlərin gələcəkdə tədqiqi Azərbaycan tarixşünaslığına yeni töhfə olacaqdır.

## ƏDƏBİYYAT

1. Фатуллаев Ш.С. Градостроительство Баку XIX- начало XX веков. Ленинград, Стройиздат, 1978.

2. Саламзаде А.В. Памятники Азербайджанского зодчества. Баку, Азернешр, 1958

3. Усейнов М.А., Бретаницкий., Саламзаде Л.С. История архитектуры Азербайджана.М., Госсторойиздат, 1963

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MİLLİ ORDU QURUCULUĞU

***Yusif Fərzəliyev, Gülnara Sultanova***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

***Açar sözlər:*** *Cümhuriyyət, ordu, əsgər, zabit*

Azərbaycan Xalq Cümhuriyyəti yaranan gündən bir sıra xarici dövlətlərin və daxili qüvvələrin iqtisadi, siyasi təzyiqləri ilə üz-üzə dayanmışdı. Azərbaycana qarşı ermənilər və Rusiya dövləti tərəfindən hərbi təcavüz təhlükəsi də real idi. Ermənilər yaranmış gərgin vəziyyətdən istifadə edərək zorla Azərbaycanın Zəngəzur, Dağlıq Qarabağ və Naxçıvan bölgələrini işğal etmək məqsədi ilə onun sərhədlərini pozur və sərhədyanı rayonlarda hərbi toqquşmalar yaradırdı. Belə bir şəraitdə ölkənin ərazi birliyini, müstəqilliyini müdafiə etmək üçün ordu yaratmaq dövlətin birinci dərəcəli vəzifəsi idi.

## ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНОЙ АРМИИ В АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКЕ

***Юсиф Фарзалиев, Гюльнара Султанова***

***Ключевые слова:*** *республика, армия, солдат, офицер*

В статье указано, что со дня образования Азербайджанской Демократической Республики уделялось особое внимание созданию национальной армии, так как национальная армия является гарантом безопасности, независимости, территориальной целостности государства.

## FORMATION OF NATIONAL ARMY IN THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

***Yusif Farzaliyev, Gulnara Sultanova***

***Keywords:*** *Republic, army, soldier, officer*

According to the article, since the establishment of the People's Republic of Azerbaijan pays special attention to the creation of a national army. Because,

national army is the guarantor of the security, independence and territorial integrity of the country.

1918-ci il may ayının 28-də qəbul edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsində qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələri zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu haqqında tədbirlər planına müvafiq olaraq, 1919-cu il noyabr ayının 1-nə qədər ordunun ən mühüm struktur bölmələri və hissələri yaradılıb başa çatdırılmalı idi. Bu müddət ərzində üç polkdan ibarət iki piyada diviziyası, artilleriya diviziyası, xüsusi hissələrin daxil olduğu teleqraf, atlı, pulemyotçu dəstələri, tərkibində üç polk olan süvari diviziyası, dəmiryol batalyonu təşkil edilməli idi. Yeni yaranmış respublika müsəlman könüllü dəstələrindən ibarət 600 nəfərlik hərbi hissəyə malik idi. Bu qüvvə ilə Azərbaycan Xalq Cümhuriyyətinə öz ərazi bütövlüyünü, nə də suverenliyini qoruya bilərdi. Ona görə də 1918-ci ilin 4 iyun müqaviləsi əsasında Osmanlı dövlətindən hərbi yardım alındı və Azərbaycan ordusunun yaradılmasını sürətləndirmək üçün Türkiyədən hərbi müşavirlər dəvət edildi. 1918-ci il may ayının sonunda Nuru paşa 300 nəfərlik təlimatçı qrupu ilə Azərbaycana-Gəncəyə gəldi [1, s.56-57].

Bu vaxt çoxsaylı bolşevik və daşnak qoşunları Gəncə istiqamətində hücuma başladılar. Vəziyyətin çıxılmaz olduğunu görən Nuru paşa üçüncü ordunun komandiri Vehib paşaya məktub yazıb təcili hərbi yardım istədi. Batum müqaviləsinə əsasən türk qoşunları Gəncəyə göndərildi. Ilk olaraq beşinci Qafqaz diviziyasına daxil olan doqquzuncu və ikinci süvari alay Azərbaycana yola düşdü, alaylar iyun ayının 15-də Gəncəyə çatdılar [2, s.381].

Beləliklə, beş minlik əlahiddə Azərbaycan hərbi korpusu, beşinci, doqquzuncu və onbeşinci Çanaxqala alayları bazasında Qafqaz İslam ordusu yarandı.Onun komandanı Nuru paşa təyin edildi [1, s.57].

Azərbaycan hökuməti 1918-ci il iyunun 19-da bütün ölkədə hərbi vəziyyət elan etməklə ordu quruculuğunu daha da sürətləndirdi. Müsəlman korpusu "Əlahiddə Azərbaycan korpusu" adlandırıldı və burada xidmət edəcək zabit kadrları hazırlamaq üçün qısamüddətli kurslar açıldı.

1918-ci ilin avqustunda hökumət fərmanı ilə hərbi səfərbərlik başlandı. Orada göstərilirdi:19 yaşı tamam olmuş şəxslər hərbi qulluğa çağırılımaq üçün çağırışçı hesab edilsinlər;

a) 1894-1899-cu illərdə anadan olmuş müsəlman dininə etiqad edən Azərbaycan Cümhuriyyətinin bütün vətəndaşları Azərbaycan ordusuna hərbi xidmətə çağırılsınlar;

b) Hərbi qulluğa çağırışa tabe olmayanlar müharibə dövrünün hərbi qanunları ilə mühakimə olunsunlar.

1918-ci il avqustun 1-də Azərbaycan Cümhuriyyətinin Hərbi Nazirliyi təsis edildi və dərhal da nazirliyi yaratmaq üçün 10 milyon manat ayrıldı[3, s. 194].

Bu vaxt S.Şaumyanın rəhbərliyi ilə bolşevik-daşnak qüvvələri Bakı-Şamaxı-Göyçay istiqamətində hərəkət edir, Qaraməryəmi tutaraq, Ucara doğru irəliləyirdilər. Təhlükənin qarşısını almaq üçün Nuru paşa Gəncədəki erməniləri tərksilah edib, qoşunu Göyçay istiqamətinə göndərir. Onuncu alayı hazırlıqsız döyüşə qoşan Osman bəyin uğursuzluğunu öyrənən Nuru paşa general Ə.Şıxlinski ilə birlikdə iyun ayının 18-də Müsüslüyə, sonra isə Göyçaya gəlir. O, real vəziyyəti təhlil edib, milli ordu hissələrini və yerli könüllüləri döyüşə hazırlayır.

Görülən tədbirlər nəticəsində iyun ayının 27-30-da başlanan döyüşlərdə bolşevik-daşnak qüvvələri darmadağın edilir və Qafqaz İslam ordusu Bakıya tərəf hərəkətə başlayır. Qafqaz İslam ordusu 1918-ci il sentyabr ayının 15-də Bakı şəhərini tutur və Azərbaycan hökumətinin Gəncədən Bakıya köçməsi üçün şərait yaradır.

Bakının azad edilməsi ilə əlaqədar olaraq Türkiyənin Hərbi naziri Ənvər paşanın (o, Nuru paşanın böyük qardaşı idi) Xəlil paşa və Nuru paşaya göndərdiyi teleqramda deyilirdi: “Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini böyük bir sevinc və məmnunluqla qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpür, şəhidlərimizə fatihələr ithaf edirəm [4, s.2].

Lakin bu dövrdə Qarabağda daşnak erməni təhlükəsi davam etməkdə idi. Bu bölgədə hökumətin mövqeyini möhkəmləndirmək üçün Qafqaz islam ordusunun hissələri Qarabağa göndərilir.

Orduya yerində rəhbərlik etmək üçün Nuru paşa Ağdama gəlir, vəziyyəti öyrənir və böyük qüvvə ilə hücuma keçib, Şuşaya daxil olur. Şəhərdə Azərbaycan bayrağını qaldırırlar. Lakin Nuru paşa Türkiyənin Birinci Dünya müharibəsində məğlubiyyəti və Bakıya ingilis qoşunlarının daxil olması ilə əlaqədar 1918-ci ilin noyabr ayının 17-də başladığı əməliyyatları yarımçıq qoyub, Türkiyəyə qayıdır.

Türk ordusu Azərbaycanı tərk etdikdən sonra ölkədə çox ağır vəziyyət yaranır, xarici təzyiqlər artır, hərbi müdaxilə təhlükəsi çoxalır. Ağır vəziyyət barədə M.Ə.Rəsulzadə deyirdi: Türk ordusu çəkildi, Azərbaycanın hərbi hissələri isə yox idi, müxtəlif yerlərə səpələnmiş 1500 Azərbaycan əsgəri var idi [1, s.59]. Çıxış yolu ordu quruculuğu sahəsində təcili tədbirlər görməkdə idi.

Məşhur hərbçi, general Əliağa Şıxlinski ordu quruculuğunu sürətləndirmək məqsədi ilə hərbi planlarla çıxış etdi, strateji təkliflər hazırladı. Plana görə 1919-cu ildə 25 minlik, 1920-ci ildə isə 40 minlik mütəşəkkil, müasir silahla təmin edilmiş milli ordu yaradılmalı, ən vacib bölgələrdə yerləşdirilməli idi [1, s.59].

Nazirlər kabineti oktyabr ayının 23-də hərbi nazirliyin yaradılması haqqında qərar qəbul etdi. Bu qərar noyabr ayının 7-də rəsmiləşdirildi və hərbi nazir vəzifəsi Fətəli xan Xoyskiyə həvalə edildi [5, s.2]. 1918-ci il dekabr ayının 26-da rus ordusunda xidmət etmiş general-leytenant Səməd bəy Mehmandarov hərbi nazir, Əliağa Şıxlinski onun müavini təyin edildi [5, s.92].

Səməd bəy Mehmandarov yaxşı bilirdi ki, bolşeviklərin təbliğatı nəticəsində orduda vəziyyət yaxşı deyil, ərzaq çatışmır, səfərbərlik planı yerinə yetirilmir. Bütün bunları nəzərə alan nazir elə həmin gün xalqa müraciət etdi və bildirdi ki, ölkəmizin bütün vətəndaşları – istər kasıb, istər dövlətli, eyni şəkildə hərbi qulluğu çəkməlidir. Kimsə dövlətliləri hərbi qulluqdan azad etsə ağır cəzalanacaqdır. Generalın əqidəsinə və hazırladığı plana görə müstəqil Azərbaycanın ərazi bütövlüyünü və dövlət sərhədlərini müdafiə etmək üçün bütün vətəndaşlar əsgərlik çəkməli, torpaqlarımızı qorumalı, vətəndaşlıq nümunəsi göstərməlidirlər.

1918-ci ilin iyul ayının 6-da Azərbaycan hökumətinin pullu hərbi mükəlləfiyyət haqqında sərəncamına müvafiq olaraq sıravilərə 50 rubl, yefreytorlara 60 rubl, kiçik unter zabitə 70 rubl, unter zabitə 90 rubl, feldfebelə 120 rubl maaş müəyyən edildi [7, s. 64].

Maliyyə çətinliklərinə baxmayaraq milli zabitlər hazırlamaq məqsədilə Gəncədə hərbi məktəb yaradıldı. Orduda hərbi intizamı möhkəmləndirmək üçün hərbi nazirliyin yanında "divani-hərbi", yəni hərbi məhkəmə fəaliyyət göstərirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi qulluqçuluq siyasətində, milliliyə, ana dilinə xüsusi əhəmiyyət verilirdi. Hərbi nazir Səməd bəy Mehmandarovun əmrində göstərilirdi ki, orduda danışıq və dəftərxana dili ana dili olmalıdır.

Dövlətçiliyin qorunması üçün hökumət ordu quruculuğuna mümkün olan qədər vəsait ayırırdı. 1919-cu ilin dövlət büdcəsindən müdafiə xərcləri üçün ayrılan pul ümumi büdcənin 27,7 faizini təşkil edirdi [7, s. 65].

15 yanvar 1919-cu ildə müvafiq idarə və şöbələri birləşdirən nazirliyin geniş səlahiyyətli baş qərargahı yaradıldı və general Süleyman Sulkeviç onun rəisi təyin edildi [8, s.29]. Qərargahın yanında xüsusi mətbəə, hərbi məhkəmə və hərbi prokuror nəzarəti, hərbi nazirin yanında hərbi şura təsis edildi.

Gözlənilən təhlükələri nəzərə alaraq 1919-cu ilin iyun ayında Dövlət Müdafiə Komitəsi yaradıldı. Ordu quruculuğu proqramını həyata keçirmək və güclü ordu yaratmaq məqsədilə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti 9 qanunvericilik aktını müzakirə etmiş, hərbi nazirliyi kifayət qədər vəsaitlə təmin etmək üçün müvafiq qərarlar qəbul etmişdi. Bu xüsusi diqqət onunla əlaqədar idi ki, ölkədə hərbi baza zəif idi, hərbi proqramla 1919-cu ildə 25 minlik, 1920-ci ildə 40 minlik ordu yaradılmalı idi.

1919-cu ilin sonunda, 1920-ci ilin əvvəlində süvari, topçuluq və snayper uçilişləri yaradıldı. Bu tədris müəssisələrində dərs demək üçün mütəxəssislər dəvət edildi. 1919-cu ilin sonunda milli ordunun tərkibində 2 piyada diviziyası, bir süvari diviziyası var idi. Birinci piyada diviziyasına birinci Cavanşir, ikinci Zaqatala və üçüncü Gəncə polkları daxil idi. Ikinci piyada diviziyasına dördüncü Quba, beşinci Bakı və altıncı Göyçay polkları daxil idi. Şirvan polku bazasında üçüncü piyada diviziyasının yaradılmasına başlandı. Birinci Tatar, ikinci Qarabağ və üçüncü Şəki atlı polkları bazasında süvari diviziyası yaradıldı. Cənubda təhlükəsizliyi qorumaq üçün Lənkəranda ehtiyat batalyonu və “yardım alayı” – Milis polku yaradıldı.

Azərbaycan Parlamentini mühafizə etmək məqsədi ilə xüsusi bölmə, respublikanın ərazisində asayişi qorumaq üçün mobil dəstələr təsis edildi. Ordunun tərkibinə iki artilleriya briqadası, bir yüngül artilleriya diviziyası, üç zirehli qatar, beş aeroplan, bir neçə hidroaeroplan, altı ağır və yüngül zirehli avtomobil daxil idi.

Ingilislər köçüb getdikdən sonra, hərbi nazirlik hərbi liman yaratdı, Xəzər hərbi donanmasını yenidən qurdu, “Qars” və “Ərdəhan” adlı gəmiləri, “Astrabad”, “Araz” və “Nargin” adlı qayıqları onun sərəncamına verdi [8, s.30].

Şimaldan Denikin təhlükəsinin qüvvətlənməsi milli ordunun döyüş qabiliyyətinin, texniki təchizatının gücləndirilməsini zəruri edirdi. Bu təhlükə ilə bağlı 1919-cu il iyunun 11-də Azərbaycanda ikinci dəfə hərbi vəziyyət elan edildi və yeni yaranmış Dövlət Müdafiə Komitəsi hərbi vəziyyətin tələblərinə uyğun ümumi qərarlar hazırladı. Şimal sərhədləri möhkəmləndirildi. İyun ayının 16-da isə Gürcüstanla Azərbaycan arasında hərbi müdafiə paktı imzalandı. Bu pakta görə Denikin təcavüzünə məruz qalan tərəf müttəfiqinin hərbi yardımına ümid edə bilərdi. Paktın imzalanmasından bir qədər sonra Gürcüstan tərəfindən əvəzi neft və neft məhsulları ilə ödənilmək şərti ilə Azərbaycan ordusuna, silah, top və başqa hərbi ləvazimat verilməsi, Azərbaycan ordusuna gürcü zabitləri göndərilməsi, Azərbaycandan əsgərlərin Gürcüstandakı mövcud məktəblərə qəbulu və s. haqqında gizli müqavilə bağlanıldı. Müqavilənin şərtlərinə əsasən tezliklə general Murad Girey Tlexasın başçılığı

ilə Tiflisə hərbi komissiya göndərilir. Bu komissiya gürcülərdən 12 kiçik top, 12 dağ topu, 24 "Maksim" tipli pulemyot, 3 min tüfəng, çoxlu hərbi sursat aldı [8, s.30].

Həmçinin silah-sursat almaq üçün İtaliya Hərbi nazirliyi ilə danışıqlara başlanıldı. Ağqvardiyaçıların Şimali Qafqazda məğlub edilməsindən sonra cənuba qaçan denikinçilər 1920-ci ilin mart ayında Azərbaycan ordusuna 20 top, 100 pulemyot, 9 təyyarə, 15 min tüfəng, 10 milyon patron verdilər. Azərbaycan ordusunu silah-sursatla təmin etmək məqsədi ilə hökumət 1920-ci ilin yanvar ayında hərbi-sənaye kompleksinin yaradılması haqqında qanun layihəsini, Gəncədə tikiləcək hərbi zavodun smetasını və ştatını hazırlamışdı. 1920-ci ilin fevral ayının 23-də parlament hərbi zavodun tikilməsi və onun üçün 670 milyon vəsaitin ayrılması haqqında qanun qəbul etdi [7, s.66-67]. Nəzərdə tutulmuş proqramın həyata keçirilməsi üçün Azərbaycan hökuməti Antantanın Ali Şurasına memorandum göndərmiş və hərbi zavodun müasir texnologiya ilə təmin edilməsini xahiş etmişdi.

Gənc Azərbaycan ordusunun ilk hərbi təcrübəsi 1919-cu ildə Zəngəzura təcavüz edən erməni quldur dəstələrinin müqavimətini qırmaq və Muğanda milli hökumətə qarşı qaldırılmış "molokan qiyamını" yatırmaq oldu. Muğana göndərilmiş general Həbib Səlimovun iki alayı polkovnik İlyaşeviçin hərbi dəstələrini darmadağın etdikdən sonra hərbi nazirin əmrində deyildiyi kimi, "Muğan və Lənkəranın ana yurd Azərbaycana qaytarılması" başa çatdı və hərbi qənimət kimi bir təyyarə, 24 top və 60 pulemyot ələ keçirildi [3, s.185]. Ordunun yaranma prosesi 1920-ci ilin yanvarı üçün əsasən başa çatdırıldı və 40 minlik nizami Azərbaycan ordusu yaradıldı. Onun 30 mini piyada, on mini isə süvari qoşun hissələrindən ibarət idi [3, s. 195].

1919-cu ilin axırı – 1920 –ci ilin əvvəllərində hərbi nazirlik donanma yaratmaq sahəsində də xeyli iş görmüşdü.

1919-cu ilin sonunda bir neçə hərbi gəmi və sualtı qayıq Xəzər sularında dövlətimizin sərhədlərini qoruyurdu. General İ.Usubovun başçılıq etdiyi Azərbaycan hərbi missiyası donanma üçün xaricdən 6 birtoplu qırıcı kater, 12 qırıcı-kater, 6 sualtı qayıq, 92 gəmi topu, 10 sahil topu, simsiz teleqraf qurğuları almışdı [3, s.196].

Azərbaycan Ordusunun rəhbərliyi peşəkar hərbçilərlə möhkəmləndirilmişdi. Dünya şöhrətli S.Mehmandarov, Ə.Şıxlinski, H.Naxçıvanski ilə yanaşı, tanınmış yüksək rütbəli hərbi mütəxəssislərdən İbrahim ağa Usubov, İbrahim ağa Vəkilov, Həmid Qaydabaşı, Kazım Qacar, Murad Girey Tlexas, Süleyman Sulkeviç, İsrafil bəy Yadigarov, Cavad Şıxlinski, Həbib Səlimov və digər generalların Azərbaycan milli ordusunun yaradılmasında əvəzsiz xidmətləri

olmuşdur. Azərbaycan Cümhuriyyətinin lideri Məmməd Əmin Rəsulzadə təcrübədən bilirdi ki, ordu dövlətin dayağıdır, onun ərazi bütövlüyünün təminatçısıdır. Tarixi təcrübədən aydındır ki, bir ölkəni zəiflətmək, sarsıtmaq və məhv etmək üçün hər şeydən əvvəl onun ordusunu dağıdırlar. Belə məqamda orduda təfriqə salmaq, zabitlərin əqidəsini yad hisslərlə zəhərləmək və onun əli ilə dövlət çevrilişi təşkil etmək təcrübəsi çoxdur. Bu təhlükəni aradan qaldırmaq üçün Azərbaycan hökuməti şəxsi heyətin siyasətləşməsinə, siyasətlə məşğul olmasına yol verə bilməzdi. Hərbi nazirin əmrində deyilirdi ki, zabitlər və əsgərlər dünyada baş verən hadisələri bilməli və onları təmsil etdikləri dövlətin mənafeyi baxımından qiymətləndirməlidirlər. Odur ki, zabitlər və əsgərlər hər hansı bir siyasi partiyanın üzvü ola bilməz, hərbçi üçün əzəli partiya onun dövlətidir. Azərbaycan hökuməti partiyasız, siyasətsiz ordunun yaradılmasını məqsədə müvafiq sayırdı. Çünki zabit bir partiyanın üzvü olsa, əsgərlər başqa partiyanın üzvü ola bilərlər. Beləliklə də orduda xaos, qarşıdurma yarana bilər.

Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu siyasətində milli hiss, milli birlik, vətənə, torpağa bağlılıq duyumu əsas prinsiplərdən biri idi. Hər bir zabit və əsgər özünün tarixini, keçmişini, kökünü, soyunu bilməli, onlara qırılmaz tellərlə bağlı olmalıdır. Əsgər və zabit hər şeydən əvvəl vətəndaş, vətənpərvər olmalı, vətənini, dilini, millətini sevməlidir, onların qeyrətini çəkməlidir. Bu milli xüsusiyyətləri nəzərə alan S.Mehmandarov əsgər və zabitlərin xalqımızın tarixini, qəhrəmanlıq ənənələrini əks etdirən kitablarla təmin edilməsinə xüsusi fikir verir, bu kitabları oxumaq üçün onlara şərait yaradırdı.

Ardıcıl görülən tədbirlər şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəldir, vətənpərvərlik tərbiyəsini möhkəmləndirir, döyüş qabiliyyətini və mübarizlik əzmini gücləndirirdi.

Səməd bəy seperatistlərə, ölkəni parçalamağa səy göstərənlərə xatırladırdı ki, Azərbaycanın güclü, nizami ordusu vardır, bu ordu cinayətkarlara, dövlət əleyhinə fəaliyyət göstərənlərə imkan verməyəcəkdir.

Lakin bəzi düşmən qüvvələr Azərbaycanın gənc ordusunun döyüş hazırlığının aşağı səviyyədə olduğunu zənn edərək ona qarşı təxribat əməliyyatları həyata keçirməyə səy göstərirdilər. Elə bu təsəvvürlə erməni daşnakları Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi ilə 1920-ci il mart ayının 22-də Əsgəran keçidini bağlayırlar və Qarabağın dağlıq hissəsini blokadaya alırlar. Bu təhlükəli vəziyyəti aradan götürmək və daşnaklara dərs vermək üçün Azərbaycan hökuməti operativ və çox ciddi tədbirlər görür. Hərbi nazirin əmri ilə general Həbib bəy Səlimovun komandanlığı altında Əsgəran ətrafına güclü hərbi qüvvə göndərilir və başlanan döyüşdə düşmən darmadağın edilir, erməni

dəstələrinin başçısı Dəli Qazar öldürülür. Erməni yaraqlılarının qərargahı Keşişkənd dağıdılır, milli ordu özünün döyüş qabiliyyətini nümayiş etdirir.

Milli ordumuz, qəhrəman həmvətənlərimiz 1988-1993-cü illərdə də erməni faşistlərinə dərs verə bilərdilər. Erməni qəsbkarlarını cəzalandırmaq üçün Azərbaycan əsgərinin döyüş əzmi, mübarizliyi kifayət idi. Lakin ermənilərə bəzi xarici dövlətlərin maddi və hərbi yardımı öz işini gördü.

Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsi və günümüzün müasir reallığı təsdiq edir ki, güclü milli ordu ölkəmizin təhlükəsizliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün qarantıdır.

## ƏDƏBİYYAT

1. N.Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
2. T.Köçərli. Yaddan çıxmaz Qarabağ. Bakı, 1998.
3. XX əsr Azərbaycan tarixi. II cild. Bakı 2009.
4. Xalq qəzeti, 17 sentyabr 1999.
5. Bakinski raboçi qəzeti. 24 may 1994.
6. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
7. A.Steklov. Armiya musavatskoqo Azerbaydjana. Bakı 1928.
8. T.Q.Darabadi. O voorujennıx silax ADR. İzvestiya An. Azerbaydjanskoy SSR. Seriya istorii, filosofii i prava. 1991. №1.

# İRƏVANIN ERMƏNİLƏRƏ VERİLMƏSİ VƏ BUNUN TARİXİ-SİYASİ SƏBƏBLƏRİ

***İbrahim Kazımbəyli***
*Naxçıvan Universiteti*

***Açar sözlər:*** *İrəvan, tarixi, siyasi, ermənilər, səbəblər*

Məlum tarixi həqiqətdir ki, Cənubi Qafqaz ərazisində heç zaman Ermənistan deyilən dövlət olmamışdır.1917-ci ilin mart ayından 1918-ci il mayın 26-dək Zaqafqaziya Federasiyası tərkibində Azərbaycan, Gürcüstan və 1804-1813, 1826-1830-cu illərdə və XX yüzilliyin I yarısında Azərbaycan ərazilərinə (İrəvan, Naxçıvan və Qarabağ) keçmiş Rusiya və Sovet imperiyalarının hərbi-strateji maraqlarını təmin etmək məqsədilə köçürülən ermənilər birləşdilər. 1918-ci il mayın 26-da Gürcüstan Zaqafqaziya Seyminin tərkibindən çıxmaq haqqında qərar qəbul etdikdən sonra, həmin ayın 28-də Azərbaycandan olan deputatlar Azərbaycanın müstəqilliyi haqqında bəyannamə qəbul etdilər. Ermənilər Azərbaycanın Milli Şurasına müraciət edərək, Aleksandrapolun (Gümrü-İ.K.) türk ordusu tərəfindən tutulduğunu göstərir və İrəvanın siyasi mərkəz kimi ermənilərə güzəştə gedilməsi məsələsini müzakirə etməyi təklif edirdilər. Müzakirələrdən sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz zərurət, xalqımız üçün danılmaz acı bir bəla olduğu Milli Şura üzvüləri tərəfindən etiraf edilir. Bu məsələlərin tarixi-siyasi səbəbləri məqalədə geniş elmi təhlillə verilir.

# ПЕРЕДАЧА АРМЯНАМ ГОРОДА ЭРИВАНА И ИСТОРИКО-ПОЛИТИЧЕСКИЕ ПРИЧИНЫ ЭТОГО АКТА

***Ибрагим Казымбейли***

***Ключевые слова:*** *Эриван, исторический, политический, армяне, причины*

Известен тот факт, что на южном Кавказе никогда не было государства под названием Армения.С марта 1917 года по 26 мая 1918 года Азербайджан и Трузия а также армяне, которые были переселены преимущественно в области Эривана, Нахчывана и Карабаха в результате

Русско – Иранской и Русско –Турецких войн, были объединены в составе Закавказской Федерации. 26 мая 1918года Грузия приняла решение о выходе из состав Закавказского Сейма и после этого 28 мая Азербайджанские депутаты Сейма приняли Декларацию о независимости Азербайджана.После этого армяне обратились Азербайджанскому Национальному Советус предложенсм о передачи города Эривана армянам как политического центра ихнего государства.

Члены Национального Совета понимали о тяжелых последствиях и безвыходности положения, если будет принято решения о передачи города, но были вынуждены вынест такое решение.

В статье передается общирный научный анализ историко-политических причинах этого вопроса.

## THE ANNEXATION OF IRAVAN TO ARMENIANS AND THE HISTORICAL-POLITICAL REASONS OF THIS

***Ibrahim Kazimbayli***

***Keywords:*** *Iravan, historical, political, armenians, reasons*

It is clear reality that, in the territory of Southern Caucasus there haven't been the state called Armenia.

From the March 1917 up to 1918 May 26 armenians settled in the territories of Azerbaijan (Iravan, Nakhchivan and Garabakh) under the structure of Transcaucasian Federasion, Georgia and1804-1813, 1826-1830s and the I half of the XX century for the aim of former Russia and Soviet empires for ensuring their military-strategic interests. After the decision of Georgia on 1918 May 26 on the leaving of Transcaucasian Sejm the 28 of the same month the deputies from Azerbaijan adopted a declaration on the independency of Azerbaijan. Armenians appealed to the National Council of Azerbaijan noting the occupation of Aleksandrapol (yumru.I.K) by Turkish army and suggesting to discuss the issue of gifting Iravan to Armenians as a political center. The members of National Council confession that Iravan concessions to Armenia are an inevitable necessity but unbearable disaster for our people after the discussions. The historical - political reasons of this issue are mentioned in the article large scale of scientific analysis.

İrəvan qədim tarixi Azərbaycan ərazilərindən biri olmuşdur. Bu şəhər Ağrı vadisinin şimal kənarında, Zəngi çayının sahilində, 850-1300 metr yüksəklikdə yerləşir. Erməni alimlərindən fərqli olaraq, dünya tarixçiliyi birmənalı şəkildə qəbul edir ki, İrəvan toponimi türk dilində "kişi", "igid" mənasını verən "ir" türk etnonimi ilə "ölkə", "yer", "kənd", "şəhər" mənası daşıyan "avan" sözü əsasında əmələ gəlib, "igidlər ölkəsi" mənasını ifadə edir. Ermənilər isə heç bir ciddi elmi əsas olmadan İrəvan toponimini Nuh peyğəmbərin adı ilə bağlayaraq, erməni mənşəli toponim olduğunu iddia edirlər.

Tarixi qaynaqlarda İrəvan adının ilk dəfə eramızın VII yüzilliyində çəkildiyi də qeyd olunur. Şəhərin, guya, Urartu hökmdarı I Argişti tərəfindən e.ə.782-ci ildə tikilmiş Erebuni qalasının xarabalıqları yaxınlığında salındığını iddia edirlər. Öz xislətlərinə uyğun olaraq, ermənilər harda qədim nə görürlərsə, öz adlarına çıxmağa çalışırlar. Bu qalanı da bir neçə erməni tədqiqatçısı erməni qalası kimi göstərməyə çalışır. Erməni yazarı Edqar Hovhanisiyan 2004-cü ildə "Erebuni-Yerevan" adlı şeir yazmışdı ki, ermənilər onu indi himnlərinə çeviriblər.

İrəvan şəhəri müxtəlif vaxtlarda Sasanilər xanədanının, Ərəb Xilafətinin, Naxçıvanşahlıq dövlətinin, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər və Əfşarlar dövlətlərinin tərkibinə daxil olub.Ta qədim zamanlardan XIX əsrədək bu şəhərin əhalisini daim türk etnosları təşkil edib. Bunu müxtəlif dövlərdə burada olmuş səyyahlar, rəsmi yolçular, tarixçilər, coğrafiyaşünaslar və s. öz qeyd və gündəliklərində daim göstərmişlər. Ermənilərin bu əraziyə axını da digər bölgələrimiz kimi, bədnam Türkmənçay müqaviləsindən (1828-ci il 10 fevral) sonra başlamış və geniş vüsət almışdır.

İrəvan xanlığı XVIII əsrdə yaranmışdı. Xanlıq 15 mahaldan ibarət idi. Yuxarıda qeyd etdiyimiz kimi, İrəvan həm də geosiyasi baxımdan əlverişli bir tarixi-coğrafi ərazidə yerləşirdi. Ona görə idi ki, bəzən mərkəz rolunu da oynayırdı. Müxtəlif dövrlərdə Çuxursədvilayətinin, İrəvan xanlığının, İrəvan quberniyasının mərkəzi olub. 1918-ci il may ayının 29-da Azərbaycan Xalq Cumhuriyyətinin qərarı ilə, müvəqqəti olaraq, (100 illiyə) Ermənistan Respublikasına güzəştə gedilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2008-ci ilin əvvəlində Ağdam rayonuna səfəri zamanı 1918-ci ildə Azərbaycan Milli Şurası tərəfindən qəbul edilən bu qərarı çox səhv və yanlış bir addım olduğunu qeyd etmişdir. 1918-ci ildən bugünədək Ermənistanın Azərbaycan Respublikasına qarşı apardığı işğal siyasətinə dəfələrlə toxunan dövlət başçısı 2012-ci il dekabrın 24-də bir sıra yerlərdə əhali ilə görüşlərində (Bakı, Sumqayıt, Gəncə, Şəki, Şəmkir və s.) öz çıxışında bu məsələyə yenidən qayıdarkən, atılan addımla bağlı demişdir: "Bu qərar haqqında mən fikirlərimi dəfələrlə bildirmişəm. Bu gün də demək istəyirəm ki, bu, böyük səhv və böyük cinayət

idi. Ancaq bu, tarixi həqiqətdir. İrəvan xanlığı bizim tarixi torpağımızdır". Dövlət başçısı öz dərin fikr və mülahizələri ilə tarixi həqiqətləriaçıqlamışdır. Bəs bu tarixi həqiqətlər arxiv sənədlərində, tarixi mənbələrdə öz əksini neçə tapıb?!Məqalədə tarixi ərazimizin güzəştə gedilməsinin tarixi-siyasi səbəblərini qısa da olsa, aydınlaşdırmağa çalışacağıq.

Müstəqil Azərbaycan dövlətinin gücü, qüdrətli ölkəbaşçısının əzmkarlığı, dəmir iradəsi, xalqın və ordumuzun birliyi ilə biz bütün itirilmiş torpaqlarımızı geri alacağıq. Nəzərə alsaq ki, XX yüzilin əvvəllərində güzəştə gedilən tarixi ərazimizin də müqavilədə göstərilən 100 ili tamam olur. Bu məsələni daha qabarıq olaraq dünya ictimayyətinə çatdırmalıyıq.

1936-cı ilə qədər İrəvan şəhəri müxtəlif mənbələrdə Ərvan, Ervan, Rəvan adlanmış həmin vaxtdan etibarən isə ermənilər tərəfindən adı dəyişdirilərək Yerevan adlandırılmışdır.

XX yüzilin əvvəllərində dünyanın yenidən bölüşdürülməsi məsələsi böyük dövlətlərin planlarında əsas yer tuturdu. I Dünya müharibəsi və müharibənin qalib dövlətləri əsas geosiyasi, strateji əhəmiyyət daşıyan ərazilərdə xüsusi ilə öz mövqelərini möhkəmlətməyə çalışırdılar. Belə bir vaxtda Cənubi Qafqaz respublikaları federativ bir quruluşda birləşmədə uzun zaman qala bilmədilər.

1918-ci il may ayının 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi və bu qurum özünün buraxılması haqqında qərar qəbul etdi. Seymdəki Azərbaycan nümayəndələri mayın 27-də toplaşaraq Azərbaycanın idarə olunması vəzifəsini öz üzərlərinə götürdülər və özlərini Azərbaycanın müvəqqəti Milli Şurası elan etdilər. Azərbaycan Milli Şurası mayın 28-də keçirdiyi ilk iclasında geniş müzakirələrdən sonra 24 səslə (iki nəfər – S.M.Qəniyev və C.Axundov) bitərəf qalmışdı. Azərbaycanın istiqlaliyyətinin elan olunması haqqında qərar qəbul etdi və altı bənddən ibarət "İstiqlal Bəyannaməsi" elan olundu [1.s.49]. Zaqafqaziya Federasiyasının dağılmasından sonra Türkiyə bu qurumla başladığı Batum danışıqlarını bu Federasiyanın parçalanması nəticəsində yaranan Gürcüstan, Azərbaycan, Ermənistan nümayəndələri ilə ayrı-ayrılıqda davam etdirməli oldu. Bu danışıqlar da Türkiyənin hələ konfransın əvvəlində irəli sürdüyü və üzərində israrla durduğu bütün tələblərin qəbul edilməsi ilə sonuclanan 4 iyun 1918-ci il tarixli Batum müqavilələrinin imzalanması ilə nəticələndi [2.s.155].

Osmanlı dövləti 1918-ci ilin fevralından Qafqaz istiqamətində hərbi əməliyyatlara başladı və qısa vaxt ərzində Şərqi Anadolu vilayətlərini işğaldan azad etdi. Biz bilirik ki, Zaqafqaziya Seymi Brest-Litovski (1917-ci ilin dekabr 2(15)) müqaviləsini qəbul etməmişdi, bu da Trabzon konfransının (1918-ci il 14 (1))-mart) uğursuzluqla nəticələnməsinə gətirib çaxarmışdı.

Bəhs olunan problemlə bağlı ən ciddiməsələlərdən biri Zaqafqaziya Seymi dağıldıqdan sonra ermənilər üçün dövlət yaratmaq məsələsi idi. Qeyd

edək ki, bu dövrdə “erməni məsələsi” ilə bağlı Osmanlı siyasi dairələrində müəyyən fikir ayrılıqları var idi. Məsələn, Tələt və Ənvər paşalar “erməni məsələsi”ndə “cibanı kökündən təmizləməyi” ən xeyirli iş hesab edərək, bölgədə erməni dövlətinin yaradılmamasına çalışırdılarsa, Xəlil bəy və Vehib paşa kimi siyasilər ən azından beynəlxalq aləm qarşısında ermənilərə bir növ ciddiyyət və müəyyən güzəştlər verilməsinin vacib olduğunu bildirirdilər [2.s.162].

Azərbaycan ərazilərində tüğyan edən bolşevik-daşnak özbaşınalığı getdikcə güclənirdi. Zaqafqaziya hökuməti bu özbaşınalıqların, qırğınların qarşısını almaqda aciz idi. Ona görə də Seymdə olan azərbaycanlı nümayəndələr yeganə çıxış yolunu Osmanlı hərbi-siyasi yardımında görürdülər. Buna görə də bir növ Türkiyədən dolayısı ilə asıllıq yaranmışdı. Batumdakı Azərbaycan nümayəndələri də Türkiyənin ərazi və digər tələblərini qəbul etməyə bir növ məhkum idilər.

Aleksandropol (Gümrü) türklər tərəfindən tutulduqdan sonra ermənilərə siyasi mərkəz olaraq İrəvanın verilməsi məsələsi gündəmə gəlmişdi. Osmanlı siyasi dairələri İrəvanı güzəştə getmək istəməsələr də, ermənilər bu məsələ üzərində israrla dayanmışdılar. Osmanlılar əslində bir növ iki seçim qarşısında qalmışdılar: ya Aleksandropolu ermənilərə verməli, ya da İrəvanı Azərbaycandan alıb, onlara verməli idilər. Digər bir tərəfdən də, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın siyasi dairələri də bütün ərazilərimizi bürüyən soyqırım və talanların qarşısını almaq üçün İrəvanın güzəştə gedilməsini labüd hesab edirdilər. Trabzon konfransı uğursuzluqla nəticələndikdən sonra Osmanlı dövlətinin tələbləri qarşısına silahla çıxmağın əsas tərəfdarı olan ermənilər indi daha da sərtləşən türk tələbləri qarşısında əlacsız bir duruma düşmüşdülər. Onlar “erməni məsələsi”nin beynəlxalq bir problem olduğunu önə çəkərək, Osmanlı dövlətinin ermənilərə ayırdığı ərazinin çox kiçik olmasından şikayətlənirdilər [3.s.195-196].

Erməni nümayəndələri çıxış yolu kimi təklif edirdilər ki, heç olmasa Azərbaycan torpaqlarından müəyyən bir ərazi ermənilərə verilsin. Məsələyə bu günün siyasi prizmasından baxanda birdaha aydın olur ki, Azərbaycana qarşı əsasız ərazi iddiaları edən ermənilərin ümumiyyətlə, Cənubi Qafqazda nə ərazisi, nə də biz güzəştə gedənə qədər dövləti olmayıb. Onlar öz məkrli xislətlərini hər dəfə pərdələyərək deyirdilər ki, bu güzəşt olunarsa ermənilərlə müsəlmanlar arasında olan düşmənçilik də aradan qalxacaq və ermənilər Bakıdakı müsəlman əhalinin təhlükəsizliyini təmin etməyi öz üzərlərinə götürəcəklər [4.s.7].

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, bu məsələdə Xəlil bəy İrəvanın güzəştə gedilməsinə daha çox canfəsanlıq edirdi.Amma Xəlil bəy də Azərbaycan nümayəndələri kimi reallıqdan çıxış edərək bildirirdi ki, kiçik bir ərazidə də olursa-olsun erməni dövləti yaradılmalıdır və bölgədə səpələnmiş

halda olan ermənilər bu dövlətdə yerləşdirilməlidir. Batumdakı türk heyətinin mövqeyinə görə yaradılacaq erməni dövləti Eçmiədzin və Yeni Bəyazid qəzalarından ibarət olmalıdı idi [2.s.168].

Ənvər Paşanın Batuma göndərdiyi 29 may tarixli təlimatında Osmanlı dövlətinin Azərbaycanla birbaşa sərhədinin vacibliyi bildirilirdi [5]. Bu təlimata görə, Qarakilsənin şimalında Osmanlı dövlətinin Azərbaycanla birbaşa sərhədi olmalı idi. Bu formada olanda Türkiyənin bir tərəfdən Naxçıvandan, digər tərəfdən də Qarakilsədən Azərbaycanla sərhədi olurdu. Ermənistanın isə Gürcüstanla birbaşa əlaqəsi kəsilirdi və o Türkiyə ilə Azərbaycan arasında bir ada şəklində qalırdı.

Osmanlı dövlətinin hərbi naziri Ənvər Paşanın bütün xəbərdarlıqlarına baxmayaraq Xəlil bəyin rəhbərlik etdiyi Batumdakı türk heyəti Azərbaycan torpaqları hesabına ermənilərin xeyrinə bir sıra ərazilər güzəştə gedərək, İrəvan şəhərinin də daxil olduğu yeni Bəyazid və Eçmiədzin bölgələrindən ibarət bir Ermənistan dövlətinin qurulmasını təsdiqlədi [6.s.1-18].

Batum müqaviləsinin (4 iyun 1918-ci il) şərtlərinə görə Ermənistan Respublikası Cənubi Qafqazda 10 min km$^2$ərazisi olan bir dövlət oldu [2.s.168-169]. Bu cür gözləmədikləri halda hazır torpaq və dövlət əldə edən xislətli ermənilər torpaq azlığından şikayətlənirdilər. Hətta Osmanlı rəsmilərindən olan Vehib Paşa bildirirdi ki, ermənilərə daha çox ərazinin qalması üçün Ermənistan daxilindəki bütün müsəlmanları böyük məmnuniyyətlə Türkiyəyə köçürə bilərik [7.s.133].

Beləliklə, Osmanlı dövləti bir tərəfdən “erməni məsələsi”ilə bağlı beynəlxalq aləmdə ona qarşı olan “qınağ”ı aradan qaldırmış olur, digər tərəfdən də İngiltərə, Fransa və Rusiya kimi dövlətlərin Şərqi Anadoluda yaratmaq istədikləri erməni dövlətinin Cənubi Qafqazda yaratmaqla problemi bir növ özündən uzaqlaşdırmış olurdu. İrəvanı siyasi mərkəz kimi Ermənistana güzəştə getmək məcburiyyətində olan Azərbaycan nümayəndələri belə bir şərt irəli sürdülər ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə, yəni Qarabağın dağlıq hissəsinə olan iddialarından imtina etməlidirlər[8.s.47].

1918-ci il may ayının 29-da Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən iclasda İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi müzakirə olundu. Baş nazir F.X.Xoyski Ermənistanla Azərbaycan arasında sərhəd məsələsi barədə şuranın üzvləri ilə Ermənistan Milli Şurasının üzvləri arasında aparılmış danışıqlar barəsində məlumat verdi. Fətəli xan öz məruzəsində ermənilərin özlərinin siyasi mərkəzlərini yaratmaq üçün Aleksandropol türklər tərəfindən tutulduqdan sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz olduğunu bəyan etdi [9.s.169]. Bu məsələ ilə əlaqədar M.Y.Cəfərov, X.Xasməmmədov, Ə.Şeyxülislamov, M.Məhərrəmov çıxış edərək İrəvanın ermənilərə güzəştə gedilməsinin tarixi rəvayət, lakin bizim üçün qaçılmaz acı bir həqiqət olduğunu qeyd etdilər. Təəssüflə qeyd etməliyik ki, uzun müzakirələrdən sonra

28 nəfərşura üzvündən 18 nəfərin iştirak etdiyi iclasda 15 nəfər bu təklifin lehinə səs verdi. Bitərəf qalan 3 nəfərdən biri isə təklifin əleyhinə səs vermişdi[10.s.25]. Tarixi qədim torpağımız olan İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi ermənilərin xeyrinə həll edilmiş oldu.

1918-ci il 4 iyunda Batumda bağlanan müqavilə Türkiyə ilə Azərbaycan Cumhuriyyəti arasında “Dostluq” Türkiyə ilə Gürcüstan və Ermənistan arasında isə“sülh və dostluq” müqavilələrinin imzalanması ilə nəticələndi.

Bir məsələni qeyd etməyi vacib bilirik ki, bu “erməni məsələsi” niyə məhz daha çox XIX-XX–yüzillərdə Qafqaz coğrafiyasında qabarıq şəkildə görünməyə başladı.Ermənilərin Osmanlı dövləti və İran ərazisindən Azərbaycana köçürülmələrini anlamaq mümkündür. Guya ermənilərin yeni bölgəyə yerləşdirilmələri onları “qorumaq” tədbiri imiş [11.s.179].

Burada coğrafi amil heç az rol oynamamışdı. XIX-XX yüzillərdə onun əhatə coğrafiyası dəqiqləşmiş, konkret olaraq Anadolu və Qafqazda türklərin, o cümlədən azərbaycanlıların yaşadıqları coğrafiyanı əhatə etmişdi.

Azərbaycan Xalq Cumhuriyyəti hökuməti Ermənistanın əsassız ərazi iddialarına heç vaxt biganə qalmamışdı. Xarici işlər nazirini əvəz edən A.Ziyadxan 1919-cu il yanvarın 31-də Ararat Respublikasının XİN-nə göndərdiyi 178 saylı teleqramda yazırdı ki, Azərbaycanın Zəngəzur və digər rayonlarında müvəqqəti general-qubernatorluq yaradılmasına hər hansı bir etiraz əsassızdır; çünki həmin ərazilər ADR-nın ayrılmaz tərkib hissələridir [12.s.1-2].

1918-1920-ci illərdə İrəvan quberniyasından başqa əraziləri ələ keçirə bilməyən ermənilər 1920-ci il aprel işğalından sonra Sovet Rusiyası tərəfindən bilavasitə bolşeviklərin himayəsi ilə yerli ərazilər əldə etməyə nail oldular. Sovet Rusiyası hökuməti Gürcüstan və Ermənistan missiyaları ilə ərazi məsələlərini Azərbaycan SSR hökumətindən bəzən gizli aparırdı.

Azərbaycan nümayəndəheyəti belə danışıqlara cəlb edilərkən bu tərkibdə qeyri-azərbaycanlılar təmsil olunurdu.Yuxarıda sadaladığımız fikirləri ümumiləşdirirərək belə bir nəticə çıxara bilərik ki, əslində, Azərbaycanın tarixi torpaqlarının Ermənistana verilməsi planı Leninin razılığı ilə Stalin tərəfindən hazırlanmışdı.Çünki sonrakı illərdə bu torpaqların hissə-hissə zəbt olunması, bu ərazilərdə yaşayan əhalinin deportasiyası da Stalin tərəfindən həyata keçirilmişdi.

İrəvanın Azərbaycandan alınaraq Ermənistana verilməsi fikri öz başlanğıcını 1912-ci ildən götürür.Türkiyə ərazisində dövlət qurmaqla onlara verilən vədlərin arxasından böyük dövlətlərin qaçması və Azərbaycan torpaqlarında paytaxt qurulması təklifi onlara məhz bu tarixdə təklif edilmişdi. “Mişak” qəzetinin redaktoru A.Arekelyan yazırdı: “Elə bir məqam gəlib çatmışdır ki, bütün sivlizasiyalı dünya, xüsusilə də Rusiya “erməni məsələsi”nin, həllini öz üzərinə götürməlidir. 1912-ci ildə üzdə olan erməni ziyalıları burjua

nümayəndələri, siyasi şəxslər Tiflisdə toplanaraq, "erməni məsələsi"nin dünya siyasətçilərinin diqqət mərkəzində olacağını və Rusiya hökumətinin ermənilərə xoş niyyətlərini bildirəcəyini nəzərə alaraq bir araya gəlmələrinin vacib olduğu üçün bir arada toplanmalıdırlar" [13].

Ermənistan-Türkiyə danışıqlarında (May 1918-ci il, Batumi) Türkiyə tərəfindən verilən bəyanatlarda bir neçə maraqlı maddələr vardır.

Maddə 5.Ermənistan Respublikası öz ərazisi daxilində heç bir qanunsuz silahlı dəstələrin formalaşmasına imkan verməyəcək və bu ərazilərdən qonşu dövlətlərin ərazisinə qanunsuz silah keçirilməsinin qarşısını alacaq.

Maddə 6.Ermənistan Respublikası ərazisində yaşayan müsəlman əhalinin dininə, adət-ənənələrinə hörmət ediləcək.Müsəlmanlar digər millətlərlə yanaşı eyni hüquqa malik olacaq, öz dillərində danışıb, təhsil ala biləcəklər.

Maddə 11.Ermənistan Respublikasının hökuməti bu müqaviləni imzaladıqdan sonra Bakı şəhərini tərk edəcək və orada yerləşən silahlı qüvvələrini bütünlüklə çıxaracaq.Erməni silahlı qüvvələri şəhərdən çıxdığı zaman Bakı daxilində heç bir çaxnaşmaya yol verməyəcəkləri barədə öhdəlik götürür.

Lakin Ermənistan dövlətinin ərazisi Azərbaycan torpaqları hesabına 20 min kvadrat kilometrə çatdı.Batum danışıqları zamanı əldə olunmuş razılığa əsasən ermənilər Azərbaycana qarşı ərazi iddialarından imtina edəcəkdilər [14]. Elə buna görə də Azərbaycan Batum razılaşmasından imtina edə bilər və Milli Şuranın 1918-ci il 29 may tarixində İrəvanın Ermənistana verilməsi ilə bağlı qərarını ləğv etməklə bağlı məsələ qaldıra bilər.

Bunu yekunda ona görə qeyd etməyi vacib saydıq ki, onlar bu çirkin niyyətlərini həyata keçirmək üçün "erməni məsələsi"nibütün tarix boyu özlərinin ümummilli işi hesab ediblər. Biz də itirdiyimiz bütün ərazilərimizi bərpa etmək üçün Azərbaycan Respublikasının Prezidenti ətrafında sıx birləşməli, ümummilli olan bu məsələdə dayanmadan, yorulmadan öz haqq səsimizi bütün dünyaya çatdırmalıyıq. Azərbaycanın bütövlüyü məsələsi hər bir vətəndaşın ən ümdə vəzifəsidir.

## ƏDƏBİYYAT


1. ARDA, fond.970, siy.1, iş 1, v-49.
2. Qafarov V.V. Türkiyə - Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, Azərnəşr, 2011. 474 səh.
3. Hovannisian R.G.Armenia on the Road to İndependence 1918-Los Angeles, Berkeley, 1967.
4. ATESE, A. 4/3671, K 2919, D 61-499. F.3-26

5. ATESE, A. 4/3671, K 2930, D. 553. F.4
6. ATESE, A. 4/3671, K 2920, D.16- 507. F.1-18
7. Parmaksızoğlu İsmət (hazırlayan) Erməni komitelerinin İhtilal Haraketleri və Besledikleri Emeller. Ankara, DSİ, Basım ve Foto – Film İşletme Müdürlüyü, 1981.
8. ARPİİSSA, fond.276, siy.9, iş 1, v.47
9. ARDA, fond.970, siy.1, iş 1, v.51-52.
10. Гусейнзаде Р.А. Сельджукская эпоха истории Кавказа., Москва, «Kremlin Multimedia», 2012, 186 с.
11. Sadiqov H. Erməni məsələsi: xəyanəti, deportasiyanı, soyqırımını və işğalı pərdələyən yalan. Bakı, "Adiloğlu" nəşriyyatı 2012, 576 səh.
12. ARDA, fond 970, siy.1, iş 152, v.1-2.
13. «ИзвестияВакинскогоСовета». 1912, № 220.
14. ARPİİSSA, fond.276, siy.9, iş 1, v.48

# XOCALI-GƏDƏBƏY ARXEOLOJİ MƏDƏNİYYƏTİNİN «QARABAĞ» QRUPU ABİDƏLƏRİ

(e.ə. XIV-XIII əsrlər)

***Hidayət Cəfərov***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, Xocalı, arxeologiya, kurqanlar, daş qutular, keramika, tunc, xronologiya*

Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın son Tunc və ilk Dəmir dövrü abidələrinin sırasında Xocalı kompleksi aparıcı yer tutur. Burada ilkin arxeoloji qazıntıları XIX əsrin 90-cı illərində E.Resler və A.İvanovski aparmışdır. E.Resler birinci olaraq Xocalıda müxtəlif tip (kurqan, menqir, labirint, dolmenvari qəbirlər) arxeoloji abidələrin varlığını müəyyən etmişdir. Sonrakı illərdə bu faktlar yeni dəlillərlə dəqiqləşdirilmişdir. Xocalıda yüzlərlə abidə qeydə alınsa da, onların 40-dan çoxunda arxeoloji qazıntı işləri aparılmışdır (E.Resler, A.İvanovski, İ.Meşşaninov, İ.Cəfərzadə, Y. Hümmel, K.Kuşnaryeva, H.Cəfərov). Təqdim olunan məqalədə Xocalının dörd qrupa bölünən abidələrinin birinci qrupu haqqında məlumat verilir. Bu qrup e.ə. XIV-XIII əsrlərə aid edilir.

## «ГАРАБАХСКАЯ ГРУППА» ХОДЖАЛЫ-КЕДАБЕКСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ КУЛЬТУРЫ

(XIV-XIII вв.до н.э.)

***Гидаят Джафаров***

***Ключевые слова:*** *Азербайджан, Гарабах, Ходжалы, археология, курганы, каменные ящики, керамика, бронза, хронология.*

Среди памятников Азербайджана и всего Южного Кавказа эпохи поздней бронзы и раннего железа, ведущее место занимает Ходжалинский комплекс. Первые раскопки здесь были проведены Э.Реслером и А.Ивановским в 90-х гг. XIX в. Э.Реслер первым обратил внимание на насыщенность и разнотипность Ходжалинских памятников, выявил новые для древности Азербайджана такие типы сооружений, как лабиринтооб-разные строения, менгиры, дольменоподобные погребения, курганы и т.д.

В дальнейшем эти сведения дополнились новыми наблюдениями и были внесены некоторые уточнения.

В общей сложности из сотни зафиксированных разнотипных (четыре типа) памятников, лишь более чем в сорока из них были проведены археологические раскопки (раскопки вели Э.Реслер, А.Ивановский, Я.Гуммель, К.Кушнарева, Г.Джафаров). В представленной статье речь идет о памятниках первой группы, датируемые XIV-XIII вв. до н.э.

## «KARABAKHQROUP» BY KHOJALY-GADABAY ARCHAEOLIGAL CULTURE

(XIV-XIII centuries b.c.)

***Hidayat Jafarov***

***Keywords:*** *Azerbaijan, Karabakh, Khojali, archeology, kurgans, stone boxes, ceramics, bronze, chronology.*

Khojali complex has an important place among thelate Bronze and early Iron Age monuments of Azerbaijan and the South Caucasus. Here archaeological excavations have been carried out by E.Resler and A.Ivanovski in the 90s of XIX century. Firstly E.Resler has established the existence of the different types of ( kurgans, mengirs, labyrinths, dolmens) archaeological monuments. In the following years these facts were specified with new evidences.

In general, hundreds of monuments have been recorded in Khojaly, archaeological excavations have been conducted in more than 40 of them (E.Resler, A.Ivanovski, I.Meshshaninov, I.Jafarzade, Y.Hummel, K.Kushnaryeva, H.Jafarov). The presented article gives information about the first group of monuments of Khojali which divided into 1 groups.This group belongs to BC XIV-XIII.

Xocalı-Gədəbəy mədəniyyətinə mənsub olan qədim etnik-mədəni massivin tarixinin öyrənilməsində Xocalı abidələrinin müstəsna əhəmiyyəti vardır. Qafqazda Xocalı kompleksi qədər müxtəlif tip abidələr qrupunun bir yerdə toplusuna təsadüf olunmamışdır. Burada təkcə kurqanların beş tipinin varlığı müəyyənləşdirilmişdir. Bundan başqa, Xocalı kompleksi öz tərkibində daş qutularını, menqir, labirinti xatırladan daş hasar (Haça-təpə kurqanı rayonunda) və s. birləşdirir. Maraqlıdır ki, çoxsaylı arxeoloji abidələri yalnız bir tarixi dövrü–e.ə.XIV-VIII əsrlərə aid son Tunc və ilk Dəmir dövrünü əks etdirir. Burada davam etdirilən arxeoloji qazıntılarıngedişində çoxsaylı abidələr

tədqiq olunmuş, onların tarixi dövrləşməsi, tipoloji xüsusiyyətləri və həyatın müxtəlif sahələri ilə bağlı elmi nəticələr çıxarılmışdır.

Xocalı abidələri içərisində kurqanlar xüsusi yer tutur. Kurqan qruplarına İ.Meşşaninovun adlandırdığı "Böyük kurqan çölündə" və Qarqarçayın sol sahilindəki "Daşlı çöldə" daha çox təsadüf olunur. "Böyük kurqan çölü" qrupu qərbdə iki böyük menqir və labirintvari daş hasarla qonşuluqda yerləşən möhtəşəm Haça-təpə kurqanı ilə məhdudlaşır. Kiçik kurqanlar qrupu əksər halda Xocalı çayının sol sahilində, ona tökülən İlisu çayı sahilində yerləşib. Daş qutulara qeyd olunan sahələrin hər üçündə, habelə Xocalı kəndindən şimalda, "Bozdağın" ətəyində təsadüf edilmişdir.

XX əsrin 20-ci illərində C.Aleksandroviç-Nəsifi Xocalı abidələrinin planını işləmiş, məlum abidələrin koordinatlarını dəqiqləşdirmişdir [1, s.169-174, plan](tablo 1).Bütün bunlar Xocalı abidələri haqqında məlumat əldə etməyə imkan verən faktlardır. Təkcə onu qeyd etmək kifayətdir ki, vaxtilə E.Reslerin təklif etdiyi beş kurqan qrupu tipologiyası sonrakı illərdə də əsasən öz əhəmiyyətini itirməmişdir.

Xocalı abidələri kompleksinə daxil olan qəbir abidələrinin müqayisəli təhlilinə keçməzdən əvvəl burada aşkar olunmuş və bir çox xüsusiyyətləri ilə özünə analoq bilməyən, müəmmalı tikili haqqında məlumat verməyi lazım bilirik. Söhbət Haça-təpə kurqanı yaxınlığında yerləşən labirintvari tikili qalığından gedir. Sahəsi 9 hektara yaxın olan bu tikili Xocalı çayının sağ sahilində, "Qaladibi" Xocalısının şərqində yerləşir. XX əsrin 70-ci illərində onun şimal-şərqində Xocalı hava limanı salınıb. Tikili nəhəng hasarı xatırladır. Onun özül hissəsi çal-çarpaz düzülmüş yastı daşlardan, divarı hər iki üzdən enli sal daşlardan hörülmüş, onların arası isə kiçik daş parçaları ilə doldurulmuşdur. Hörgü işində birləşdirici məhluldan istifadə edilməyib. Hasar divarının eni 4 metrə çatır.

Göstərilən divarın qalığı bir çox əlamətləri ilə Zaqafqaziyanın, o cümlədən Azərbaycanın dağlıq rayonlarında son Tunc və ilk Dəmir dövründə geniş yayılmış "siklop tikililərini" xatırlatsa da, həmin abidələrdən fərqlənir. Tikilinin daxilində, onun qərb hissəsində, müxtəlif ölçülü, biridigərindən arakəsmələrlə ayrılan tikili qalıqları cəmləşmişdir. Cənub-qərbdən bu nəhəng tikiliyə uzunu 40-45 m, eni 6 m olan dəhliz tipli giriş yolu var. Tikilinin divarının hündürlüyü 1 m-dən 1,5-2 m-ə qədər qalmışdır[2, s.172; 3, s.418]. Maraqlıdır ki, bu böyük və mürəkkəb quruluşlu tikilidən kənarda bu tip divar qalıqlarına təsadüf edilməyib.

Haqqında danışılan nəhəng tikilinin (daha doğrusu hasarın) nə məqsəd daşıması məsələsinin həllində onun yaşayış məskəni olması gümanı, yuxarıda deyilən səbəbdən, şübhə doğurur. Hasarın siklop tikilisi sıralarına daxil olunması da bir neçə səbəb üzündən qəbul edilmir. Əvvəla, "siklop tikililəri" bir qayda olaraq, uca dağlıq ərazilərdə, təpə və ya dağ üzərində tikilmiş-

dir.İkincisi,“siklop tikililəri” sahəcə çox kiçik olub, təhlükəli vaxtlarda qismən yaşamaq, sığınmaq məqsədi üçün istifadə olunmuşdur.

Xocalı labirint-hasarı isə düzənlikərazidədir.Labirint-hasarın sahəsi çox böyükdür.Kənarında daş qutulara və torpaq kurqana təsadüf edilir.Şərqində nəhəng Haça-təpə kurqanı və qoşa menqir (dik daşlar) yerləşir. Hasarın içərisində labirinti xatırladan tikililər mövcuddur. Bütün bunlar təsvir edilən nəhəng ölçülü tikilinin ibtidai dini ayinləri icra etmək üçün ibadət yeri olmasını söyləməyə imkan verir. Digər tərəfdən həmin tikilinin başqa məqsəd-hərbi hücumlardan müdafiə üçün sığınacaq məqsədilə istifadə ehtimalı da qəbul oluna bilər. Sonuncu fikir daha ağıla batandır.Təəssüf ki, 1960-1980-ci illərdə təsərrüfat işləri zamanı bu nadir abidənin çox hissəsi dağıdılmışdır.

Vaxtilə Xocalıda beş kurqan tipinin (qrupunun) varlığı müəyyən edilmişdir ki, bu bölgü də əsas kimi qəbul olunub.1. Böyük ölçülü, torpaqdan konusvari quruluşlu, zirvəsinin şərq hissəsinə daş tökülmüş kurqanlar; 2. eyni qaydada, lakin zirvəsindəki çökəyə daş tökülmüş kurqanlar;3. çökəyinə daş tökülməmiş kurqanlar;4. kiçik ölçülü, konusvari örtüyü yastılanmış torpaq kurqanlar;5. çay daşlarından ucaldılmış böyük ölçülü kurqanlar.

1984-cü ildə tərəfimizdən burada 19 daş qutu qəbiri qazılıb öyrənilmişdir [4, s.84]. Fikrimizcə, Xocalı nekropolu kompleksində arxeoloji qazıntı işləri aparılmış qəbir abidələrini aşağıdakı kimi dörd tipə (və ya qrupa) ayırmaq olar:1. kiçik ölçülü torpaq kurqanlar;2. böyük ölçülü torpaq kurqanlar;3. böyük ölçülü daş örtüklü kurqanlar;4. daş qutu qəbirlər.

Xronoloji baxımdan kiçik ölçülü torpaq kurqanlar daha qədimdir.Dövr etibarilə ikinci yerdə böyük ölçülü torpaq kurqanlar, üçüncü yerdə isə daş örtüklü kurqanlar durur.

Kiçik ölçülü torpaq kurqanlarXocalının birinci qrup abidələri sırasına daxildir. Bu tip kurqanlara həm əsas “kurqan çölündə”, həm “valun çölündə” (daşlı çöl), həm də İlisu çayının sol sahilində təsadüf edilib. Onlardan üçünü E.Resler, birini İ.Cəfərzadə, dördünü K.Kuşnaryeva qazıb öyrənmişdir. Xocalı nekropolunun xronoloji dövrləşməsində bu tip kurqanlar ilkin pillədə durur. E.Reslerin qazdığı torpaq kurqanlardan yalnız 5 saylı kurqanda azacıq avadanlığa təsadüf olunmuşdur.

5 saylı kurqan Xocalı çayının sağ sahilindəki əsas kurqan çölündə, 1 saylı böyük torpaq kurqanının yaxınlığında yerləşmişdir. Aşağı hissədə azacıq daş yığını olan torpaq örtüyün diametri 13 m, hündürlüyü 1,2 m olmuşdur. Örtük altında, 1 m dərinlikdə bir skelet qalığına, it sümüklərinə, keramika və əqiq muncuqlara təsadüf olunmuşdur [5, l. 29; 6, l. 19].

14 və 16 saylı kurqanların diametri müvafiq olaraq 17-20 m, hündürlüyü 3-3.3 metrdir. Örtüyü əsasən torpaq və qumdan, qismən daşlardan qurulub. Hər ikisində kurqan örtüyünün altında arxası üstə uzadılmış vəziyyətdə dəfn qeydə alınıb. Arxeoloji materiala rast gəlinməyib.

İ.M.Cəfərzadənin qazdığı 5 saylı kurqan əsas kurqan çölündə, böyük ölçülü kurqanın ətəyində yerləşib.Diametri 10 m, hündürlüyü 1 m olan kurqanın ətəyi bir cərgə çay daşı ilə əhatələnib. Kurqan örtüyü altında, onun şərq hissəsində üzəri iki qat ağac tirlərlə örtülmüş torpaq qəbiri (4x1,85x1,5 m) aşkar olunub. Qəbir avadanlığı yeddi saxsı qabdan, tunc sancaqdan, dəvəgözü və çaxmaqdaşından hazırlanmış ox ucluqlarından və əqiq muncuqlardan ibarət olmuşdur.Saxsı qablar şar gövdəli, alçaq boğazlı, səthi naxışlı küpələr, qoşa qulplu bərni tipli qab və tək qulp bardaqla təmsil olunub. Bəzi küpələr şüyrəli naxışları, basma dairələri və göbələkvari çıxıntıları ilə Borsunlu kurqanı keramikasını xatırladır [7, s.18-24].

K.X.Kuşnaryevanın qazdığı 2 və 4 saylı kurqanlar Xocalı kəndinin (köhnə, əsas Xocalı) qərbində, İlisu çayının sol sahillərində yerləşmiş yeddi kurqandan ibarət qrupa daxildir.Onlar kiçik ölçülü olub, torpaq örtüklüdür [8, səh. 377-379, şəkil 9].

2 saylı kurqanındiametri 10 m, hündürlüyü 0,75 m olub. Bu tip başqa kurqanlarda olduğu kimi, əsas torpaq örtük altında kiçik daş topası aşkar edilib. Şərq-qərb istiqamətli kiçik ölçülü torpaq qəbirdə (1,3x1 m) sağ yanı üstə, bükülü halda dəfn olunmuş insan skeleti qalıqları aşkar olunub. Qəbirin qərb hissəsində əldə hazırlanmış, kobud formalı üç saxsı qab tapılib.

4 saylı kurqan şimal-cənub istiqamətində uzunsov, yastılanmış torpaq örtüyünə malik olub. Onun hündürlüyü 1,4 m, diametri şimal-cənub istiqamətində 20 m, qərb-şərq oxu boyu 16 m-ə çatıb. Örtüyün 60 sm dərinliyində ətrafı bir cərgə daşla əhatələnmiş (kromlexlə) daş topası altında, materikdə, qərb-şərq istiqamətli torpaq qəbiri (2,3x1,46x1 m) aşkar edilib. Qəbir nə vaxtsa talan edilib. Qəbir avadanlığı saxsı qablardan ibarətdir. Küpələrdən birində qulp əvəzinə göbələkvari çıxıntı vardır.

Ağdam-Xankəndi yolu çəkilərkən yolun kənarındakı kəsikdə 7 yerdə dağılmış kurqan abidəsi qeydə alınmışdır.

Kurqanın üst səthindən 1,5 m dərinlikdə aşkar edilmiş 1 saylı torpaqqəbirindəfn qaydası bərpa olunmamışdır. Qəbirdə şar gövdəli, geniş ağızlı küpə və əldə kobud hazırlanmış cam, nazik tunc lentdən burmalı boyunbağı, tunc üzüklər (3 ədəd), tuncdan kiçik düymələr (10 ədəd), tunc, əqiq və və pasta muncuqlar tapılmışdır. Keramika birinci tip abidələrdən tapılmış nümunələrlə bənzərdir.

2 saylı qəbir 1,4 m dərinlikdə yerləşib. Skeletlə yanaşı buradan heyvan sümükləri, habelə böyük ölçülü, səthi hislənmiş, geniş ağızlı küpə tapılmışdır.

3 saylı torpaq qəbiri 1 m dərinlikdə tapılmışdır. Qəbirdə insan sümükləri və tünd-boz rəngli, şarşəkilli gövdəsi, yastı düyməvari bəzəkli olan küpə əldə edilmişdir.

5 saylı qəbir 1,5 m dərinlikdə yerləşmişdir. Çox hissəsi dağılmış, yalnız təkqulp, uzun boğazlı tünd boz rəngli bardaq salamat qalmışdır. Səthi batıq

paralel xətlər, basma dairələrdən və çərtmə xətlərdən çəkilmiş üçbucaqlarla naxışlanmışdır.

Xocalının I tip kiçik torpaq kurqanlarının materiallarının təhlilinə gəldikdə, qeyd etmək lazımdır ki, bir neçə kurqan istisna olmaqla, bu qəbirlərdə avadanlıq ya çox az olmuş, ya da ümumiyyətlə, olmamışdır (məs. 14, 16 saylı). Ən çox İ.Cəfərzadənin qazdığı kurqan, habelə 2 və 4 saylı İlisu kurqanları əsasında Xocalının ilk dövr abidələri haqqında təsəvvür yaratmaq mümkün olur. Arxeoloji bölgü ilə son vaxtlara qədər e.ə. XIII-XI əsrlərəaid edilən bu kurqanların indi yeni materiallar əsasında dövrləşməsi dəqiqləşdirilmişdir. Biz bu tip kurqanları e.ə. XIV-XIII əsrlərə aid edirik [4, s.10-11].Kiçik torpaq kurqanların daha qədim olması vaxtilə akad. İ.Meşşaninov tərəfindən söylənilmişdir [9, s.221]. Sadəcə, sonrakı illərdə bu xronoloji bölgü rəqəmlərin dili ilə daha aydınifadə olunmuşdur.

Arxeoloji materiallar içərisində diqqəti daha çox cəlb edən keramikadır. Qablar əsasən batıq şarvari, ağzının kənarı köbəli, alçaq boğazlı küpələrdən ibarətdir. Onları həm 2 və 4 saylı İlisu, həm də 5 saylı Cəfərzadə kurqanı materiallarına daxil olmuşdur. 2 və 4 saylı kurqan materiallarının səthi sayadır (yalnız bir küpədə üfüqi paralel xətlər var). Lakin 5 saylı kurqan materialları zəngin naxışlanması ilə fərqlənir. Qabların əsasən gövdədən yuxarı hissəsi və boğazı naxışlanmışdır. Naxışlar şüyrəli çarpaz xətlərdən (torvari), üçbucaqlar, üfüqi zolaqlar və basma dairələrdən ibarətdir. Qablar tünd-boz, bozumtul-qara rənglidir. Bu qabları fərqləndirən xüsusiyyətlərdən biri onların çiyin hissəsində “göbələkvari” çıxıntının olmasıdır. Xocalı-Gədəbəy mədəniyyətinin aparıcı ünsürlərindən olan bu əlamət sonrakı mərhələlərdə də davam etmişdir. Göbələkvari çıxıntılardan biri kiçik cam şəklində olub, səthində dairəvi basma naxış var. Xatırladaq ki, məhz axırıncı tip göbələkvari çıxıntısı olan küpəyə e.ə. XIV-XIII əsrlərə aid Böyük Borsunlu kurqanında təsadüf olunmuşdur. Bundan başqa qalan küpələr də forması (yastı-şarvari) və naxışlanması (konnelyur, şüyrəli, basma dairələr və s.) ilə Böyük Borsunlu kurqanı küpələrinixatırladır.

Xocalının birinci tip torpaq kurqanlarında tək qulp bardaqlar 5 saylı kurqandan və Ağdam-Xankəndi yolunun kəsiyindəki 5 saylı qəbirdən tapılmışdır. Birincidə bardağın boğaz və çiyin hissəi, ikincidə isə gövdədən aşağı hissəsi üçbucaqlı, şaquli və üfüqi xətlərin kombinasiyasından ibarət naxışla bəzənmişdir. Qalan qablar qoşa qulplu, nisbətən geniş ağızlı çölmək və qoşa qulplu, səthi torvari naxışlı bərnilərdən ibarətdir [4, şəkil 3-9].

Arxeoloji materialların bir qismi tunc düymələr, kiçik üzüklər. sancaq, boyunbağı pasta və əqiq muncuqlardan ibarətdir.

Tapıntılar içərisində dəvəgözü və çaxmaqdaşından hazırlanmış arxası oymalı gəzli ox ucluqlarına İ.Cəfərzadənin qazdığı 5 saylı kurqanda rast gəlinmişdir.

Xocalının birinci tip abidələri qrupu e.ə. XIV-XIII əsrlərə aid edilir.

## ƏDƏBİYYAT


1. Александрович–Насыфи Дж. Перечень и краткая характеристика курганов главного курганного поля около с. Ходжалы. Изв. Азкомстарис. Баку, 1927, вып. 3.,с.169-179.
2. Гуммель Я.И. Отчеты по экспедициям 1939 г. Археологические разведки и раскопки по районам Азерб. ССР. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi arxivi, iş№931.,c.1-15.
3. Кушнарева К.Х. Археологические работы 1954 г. в окрестностях село Ходжалы. МИА, № 67, М.- л. 1957.,с.370-387.
4. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində. Bakı, Elm, 2000.,187 s.
5. ОАК (Очеты Археологической Комиссии) за 1894 г. Спб., 1896.,с.17-28.
6. ОАК за 1895 г., Спб, 1897.,с.153-161.
7. Джафарзаде И.М. Ходжалинская экспедиция (земляной курган № 5), Изв. Аз ФАН СССР, 1941, №2.,с.15-26.
8. Кушнарева К.Х. Ходжалинский могильник, ИФЖ АН Арм. ССР. Ереван, 1970, № 3.,с.110-124.
9. Мещанинов И.И. Краткие сведения о работах археологической экспедиции в Нагорный Карабах и Нахичеванский край, снаряженной в 1926 г. Обществом изучения Азербайджана. Сообщ. ГАИМК, т.1, Ленинград, 1926.,с.217-247.


TABLO – 1
р. Ходжалычай
р. Каркарчай
р. Илис-су
в Даш-булаг
с. Холжалы
р. Ходжалинка
в Агдам
в Степанакерт
р. Каркарчай
0 50 100 150 200 м

# GƏNC AİLƏLƏRDƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN FORMALAŞMASINA TƏSIR EDƏN AMİLLƏR

***Kifayət Əhmədova***
*Naxçıvan Müəllimlər İnstitutu*

***Açar sözlər:*** *valideyn, övlad, ailə, tərbiyə, ər-arvad, psixoloq, cəmiyyət*

Məqalədə qeyd edilir ki, ailənin xüsusiyyətlərindən biri də qarşılıqlı münasibətlər, o cümlədən valideyn-övlad münasibətləri ilə bağlıdır. Əsaslandırılır ki, ailə mühitində başlıca cəhətlər içərisində üzvlərin tələbatlarının ödənilməsi mühüm əhəmiyyət kəsb edir. Ailənin tərbiyəedici funksiyasına isə valideynlər arasındakı münasibət, eləcə də valideyn-övlad münasibətləri daxildir. Tərbiyəedici funksiya böyüməkdə olan gənc nəslin sosiallaşmasını, cəmiyyətin layiq üzvünü formalaşdırmaqdır.

Məqalənin sonunda bu nəticəyə gəlinir ki, ailədaxili münasibətlər bir-birləriylə sıx bağlıdır. Ailə təsərrüfatı, asudə vaxtın keçirilməsi, emosional qarşlıqlı münasibətlər ailə həyatının müxtəlif komponentləri olmaqla, biri digərinə təsir göstərir. Onlardan hər hansı birində dəyişiklik baş verdikdə zəncirvari şəkildə digərlərində də dəyişikliyə səbəb olur.

Gənc ailələrdə ailədaxili münasibətlərin ailənin digər üzvləri üçün də açıq olması ailənin bütün üzvlərinin qarşılıqlı təsir imkanını artırır.

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ВЗАИМООТНОШЕНИЙ В МОЛОДЫХ СЕМЬЯХ

***Кифаят Ахмедова***

***Ключевые слова:*** *родитель, ребенок, семья, воспитание, муж и жена, психолог, общество.*

В статье отмечается, что одной из особенностей семьи являются взаимоотношения, в том числе отношения между родителями и детьми. В ней обосновывается, что среди этих особенностей важное значение имеет удовлетворение потребностей членов семьи в семейной среде. В воспитательную функцию семьи входят отношения между ними и детьми, с другой. Воспитательная функция включает в себя социализацию подрастающего поколения, формирование достойного члена общества.

В заключительной части статьи делается вывод о том, что внутрисемейные отношения характеризуются тесной взаимосвязанностью. Совместное хозяйство, проведение досуга, эмоциональные взаимоотношения, являясь различными компонентами семейной жизни, тесно взаимодействуют. Изменение в одном из компонентов цепочное приводит к изменению и в других.

Открытость внутрисемейных отношений молодой семьи и для других возможностей их взаимодействия.

## THE FACTORS AFFECTING THE FORMATION OF MUTUAL RELATIONS IN YOUNG FAMILIES

***Kifayat Ahmadova***

***Keywords:*** *parents, children, family, education, husband-wife, psychologist, community*

The article states that one of the features of a family is mutual relations, including parent-children relations. It is substantiated that meeting family members' wants among the main points in the family environment is of great importance. The educative function of a family includes a relation between parents, as well as, parent-children relations. The educative function of the family builds up the character of sociability of growing generation and getting them to develop into the worthy member of a society.

The article concludes that the relations within the family are closely related to one another. Family economy, spending free time, emotional mutual relations as different components of a family life, affect one another. Any changes in one of them cause the changes in others in the form of chain.

The relations within the family which are open to other members of the family in young families increase the mutual affective opportunities of all the family members.

Ailənin xüsusiyyətlərindən biri də qarşılıqlı münasibətlər, o cümlədən valideyn-övlad münasibətləri ilə bağlıdır. Ailə mühitində başlıca cəhətlər içərisində üzvlərin tələbatlarının ödənilməsi mühüm əhəmiyyət kəsb edir. Ailənin tərbiyəedici funksiyasına isə valideynlər arasındakı münasibət, eləcə də

valideyn-övlad münasibətləri daxildir. Tərbiyəedici funksiya böyüməkdə olan gənc nəslin sosiallaşmasını, cəmiyyətin layiq üzvünü formalaşdırmaqdır.

Psixoloq və sosioloqlar ailənin başlıca funksiyasına məişət-təsərrüfat, emosional, mədəni, mənəvi, sosial nəzarət və s. aid edirlər. Zaman keçdikcə ailənin funksiyaları da dəyişir. Bəziləri köhnəlir, mühitin tələblərinə uyğun olaraq yeniləri yaranır, bəziləri tamamilə sıradan çıxır. Müasir ailə yalnız üzvlərin sayını artırmaq funksiyasını deyil, həm də təhsil vermək, uşağın sosiallığını təmin etmək vəzifəsini yerinə yetirir.

Uşaqların tərbiyəsi indi insan fəaliyyətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Mütəfəkkirlərin, filosof və pedaqoqların əksəriyyəti uşaq tərbiyəsini insanlığın ən mürəkkəb sahəsi hesab edirlər. Bununla yanaşı, insanların ən az diqqət yetirdiyi sahə də övlad tərbiyəsidir. "Qədim zamanlarda uşaqların tərbiyəsi qullara, təhkimli kəndlilərə tapşırılırdı. Orta əsrlərdə özünə iş tapa bilməyənlər məktəblərdə müəllim işləyirdilər. Tərbiyə isə ən sadə və asan iş hesab edilirdi. Bəzi hallarda isə bu iş qulluqçulara etibar edilir, bəzən də valideynlər özləri məşğul olurdular. Cəmiyyət inkişaf etdikcə öz gələcəyi barədə daha çox fikirləşməyə başladı, bununla da tərbiyənin düzgün təşkilinə diqqət artırıldı" (1, s. 1) .

Vaxtilə K.D.Uşinski yazırdı ki, tərbiyə işi elədir ki, hər kəs onu bildiyini düşünür. Pedaqoqların bir qismi hesab edir ki, tərbiyə etmək üçün xüsusi qabiliyyət və bacarıq lazımdır. Lakin çox az qisim göstərir ki, bunlarla yanaşı, həm də xüsusi bilik lazımdır.

Sübut etməyə ehtiyac yoxdur ki, üzərində iş görüləcək materialın xüsusiyyətini bilmək vacibdir. "Bina tikmək, lokomotiv və gəmini idarə etmək üçün uzun müddət oxumaq, öyrənmək lazım gəlir. İnsan bədəni və ruhunu inkişaf etdirmək, onu idarə etmək o qədərmi asandır ki, bunun üçün heç bir hazırlıq keçilməsin? " (1, s. 3) .

Uşağın tərbiyəsi ilə bağlı Amerika psixoloqu S.Xollun fikirləri də maraq doğurur: "Uşaqları başa düşməməkdən də ağrılı bir şey ola bilərmi? Uşağın köməksizliyi, acizliyi valideyni onun qayğısına qalmağa məcbur edir. Tərbiyə isə uşağın təbiətini, tələbat və ehtiyacını nəzərə almaqla mümkündür. Uşaq həyata digər canlılarla müqayisədə daha köməksiz və aciz vəziyyətdə gəlir və bu proses uzun müddət davam edir. Əgər uşaq qorunmasa, ona qayğı göstərilməsə, o, ölümə məhkumdur " (1, s.3) .

Deyilənlər eyni zamanda uşağın mənəvi tərbiyəsinə də aiddir. Pedaqoq və psixoloqların bu sahədə fikirləri fərqlidir. Bir qism hesab edir ki, tərbiyə hər şeydir. Digərləri isə tərbiyənin rolunu heçə endirir və hər şeyi ünsiyyətlə bağlayırlar.

Ailənin, valideynlərin, cəmiyyətin uşağa təsiri güclüdür. Təbii ki, burada uşağın yaş və cinsi xüsusiyyətləri, inkişaf dinamikası nəzərə alınmalıdır. Valideyn uşağın tərbiyəsini düzgün təşkil etməli, ən azı onun inkişafını səhv

istiqamətə yönəltməməlidir. “Bu bir həqiqətdir ki, uşağın mənəvi və fiziki inkişafı müəyyən qanunlara tabedir. Əgər bu qanunlara tamamilə əməl olunmasa, uşaq məhv olar. Əgər ona qismən əməl olunarsa, uşaq ciddi fiziki və mənəvi zədə alar” (1, s. 4) .

Bununla belə, bütün uşaqlar eyni səviyyədə inkişaf etmirlər. Yəni hər bir uşaq ümumi qanunauyğunluqlarla yanaşı, həm də fərdi keyfiyyətlərə malikdir. Ona görə də valideynlər uşağın fərdi xüsusiyyətlərini hökmən nəzərə almalıdırlar. Bunların nəzərə alınmaması əxlaqi, mənəvi, intellektual inkişafa öz təsirini göstərir.

Tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, ailənin sosial və maddi vəziyyəti uşağın fiziki, psixi və intellektual inkişafına təsir edir. Eyni zamanda göstərilir ki, mühit, ailə tərbiyəsi qızlara daha güclü təsir edir, nəinki oğlanlara. Təbii ki, burada ailənin ənənələri, qıza münasibət mühüm rol oynayır. Çünki qızların müxtəlif insanlarla, ətrafda olan insanlarla ünsiyyət qurmaq imkanları oğlanlarla müqayisədə daha məhduddur.

Ailənin funksiyasının pozulması digər problemlərlə yanaşı, ailədə ünsiyyət və qarşılıqlı münasibətlərdə də bir sıra çətinliklər yaradır. Funksiyanın pozulması səbəbləri isə çoxdur. Bura ailə üzvlərinin şəxsi keyfiyyətləri, həyat şəraiti, maddi təminat, qarşılıqlı münasibətlərin xüsusiyyətləri və s. aiddir. Məsələn, ailənin tərbiyəedici funksiyasının pozulması valideynlərin müvafiq vərdiş və biliklərinin olmaması, tərbiyə işi ilə bağlı fərqli düşüncələrin olması, münaqişə və s. səbəblərdən baş verə bilər.

Ailədaxili münasibət və ünsiyyət onun strukturundan da asılıdır. Ailənin strukturunun təhlili göstərir ki, ailə başçısının kim olması, hüquq və vəzifə bölgüsünün aparılması vacib şərtlərdəndir. Ailənin strukturu baxımından ailədə vahid bir söz sahibinin olması, hər bir işə yalnız onun nəzarət etməsi, bir sözlə, ailədə idarəetmənin bir nəfərə aid olması bir ailə tipinə aiddir. Digər ailədə isə başqa cür ola bilər. Ailənin idarə edilməsində üzvlərin hamısı iştirak edirlər. Birinci tip ailə avtoritar, ikinci isə demokratik ailə tipinə aid edilir.

İstər ailənin funksiyası, istərsə də strukturu müxtəlif mərhələlərdə fərqli mahiyyət kəsb edir. Psixoloqlar ailənin müxtəlif mərhələlərini göstərirlər. Bu mərhələlərin bölgüsündə ailədə uşağın dünyaya gəlməsi və ailəni tərk etməsi xüsusi qeyd edilir.

A.Barkai ailənin 5 mərhələsini göstərir: 1) ailənin yaranması – evlənəndən ilk uşağın doğulmasınadək; 2) uşaqların doğulması və tərbiyəsi. Bu mərhələ heç olmasa uşaqlardan birinin əmək fəaliyyətinə başlaması ilə başa çatır; 3) ailənin tərbiyəvi funksiyasının başa çatması. Bu mərhələdə uşaqların hamısının üzərində qəyyumluq tamamlanır; 4) uşaqlardan ən azı biri valideynlərlə yaşayır və hələ ailə qurmayıb; 5) valideynlər tək yaşayır və ya onlarla yaşayan övladlarının öz ailəsi var.

A.Barkainin bu bölgüsünə etiraz edənlər də var. Y.E.Alyoşina bu mərhələlərin süni şəkildə bölündüyünü qeyd edir. Göstərir ki, II və III mərhələlər bir-birlərindən fərqlənmir. İlk uşağın əmək fəaliyyətinə başlaması ailənin həyatında heç nəyi dəyişdirmir. Ailənin tərbiyəedici funksiyası, qarşılıqlı münasibətlər, uşaqların üzərində sosial nəzarət, emosional və digər tələbatların ödənilməsi dəyişmir. Sonuncu övladın əmək fəaliyyətinə başlaması isə ciddi keyfiyyət dəyişikliyidir. Uyğun olaraq ailədə övladın əmək fəaliyyətinə başlaması artıq onun müstəqilliyi mənasını kəsb edir. Bizim tədqiqatlarımızın obyekti gənc ailələr olduğundan onun ilkin mərhələsindən bəhs etməyi məqsədəuyğun hesab edirik.

İlk övladın dünyaya gəlməsinədək gənc ailə bir sıra problemlə üzləşir və onu həll etməli olur. Bunların içərisində ər-arvadın bir-birlərinə, eləcə də ailə həyatına adaptasiya olunmaları mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, mənzil, ev əşyalarının alınması və s. problemlərin də həll olunması zərurəti yaranır. Nəhayət, ailə həyatının ilk mərhələsində ər-arvadın valideynləri, qohumları ilə də münasibətlərin qurulması problemi meydana çıxır.

Ailədaxili və ailədənkənar münasibətlərin formalaşması xeyli mürəkkəb məsələdir. Burada daha çox psixoloji uyğunlaşma sahəsində çətinlik özünü göstərir. İlkin mərhələdə yalnız ər-arvad arasında deyil, hətta qohumlar arasında baş verən anlaşılmazlıq, münaqişə boşanmalara səbəb olur.

P.Diçyus yazır: "Gənc ailələrin heç də kiçik olmayan hissəsi ailəliyin elə ilk vaxtlarında dağılır. Boşanmaların əsas səbəbi onların ailə həyatına hazır olmaması, məişət şəraitindən narazılıq, ayrıca mənzilin olmaması, qohumların gənc ər-arvadın qarşılıqlı münasibətlərinə müdaxilə etmələri ilə bağlıdır" (2, s. 77) .

Gənc ailələrdə ilk uşağın dünyaya gəlməsi ailə mühitində, qarşılıqlı münasibətlərdə böyük dəyişikliyə səbəb olur. Qadının vaxtının böyük bir hissəsi məişət işlərinə, uşağa qulluq edilməsinə sərf olunur. Ailə-məişət işləri ilə yanaşı qadının öz peşə fəaliyyəti ilə də məşğul olması ikiqat çətinlik yaradır. Bu mərhələdə ər-arvadın mənəvi, mədəni, ünsiyyət, xüsusilə emosional sferasında dəyişiklik baş verir. Gənc ər və arvadın qarşısına xeyli çətin olan vəzifə çıxır. Onlar əvvəlkindən fərqli olan ailə mühitində təzahür edən yeni emosional, mədəni, mənəvi ünsiyyət formalaşdırmalıdırlar. Əgər ailənin qurulmasının ilk vaxtlarında asudə vaxta, gəzintiyə, əyləncəyə geniş yer ayrılırdısa, uşağın dünyaya gəlməsindən sonra vəziyyət dəyişir. İndi ər və arvad daha çox məişət məsələləri ilə məşğul olmalı olurlar.

Psixoloqlar (D.B.Elkonin, A.Barkai və b. ) bu baxımdan ailələrin bölgüsünü aparırlar: bir yaşa qədər uşağın olduğu, bağça yaşlı uşaqların olduğu, kiçik məktəblinin olduğu ailələr və s. Hər bir yeni mərhələ növbəti mərhələ üçün hazırlıq hesab edilir. Başqa sözlə, növbəti mərhələnin necəliyi əvvəlki

mərhələnin nə dərəcədə səmərəli olmasından asılıdır. Hər bir mərhələ isə valideyndən keyfiyyətcə yeni bacarıq və biliklər tələb edir.

İlk uşağın dünyaya gəlməsiylə ailədə yeni münasibətlər sistemi yaranır. Bir tərəfdən ər-arvad münasibətlərində dəyişiklik baş verir, digər tərəfdən də valideyn-övlad münasibətləri qurulur. Valideyn-övlad münasibətləri ər-arvad münasibətlərinə də təsir edir.

Y.E.Alyoşinanın tədqiqatları göstərir ki, ailə həyatının bu mərhələsi digər mərhələlərlə müqayisədə daha mürəkkəb və ziddiyyətlidir. Eyni ailə həyatından razı
qalınmaması və daha çox narazılıqların baş verməsi də bu mərhələyə aiddir.

Narazılıqların mənbəyinin səbəblərinə ailə həyatının ilk illərində başlıca olaraq aşağıdakıları aid edirlər: 1) ailə yükünün ər və arvadın gücündən və imkanlarından çox olması; 2) mənəvi və emosional baxımdan yeni keyfiyyətlərin yaranması; 3) gözlənilənlərlə reallıq arasında fərqlərin meydana çıxması.

Məhz ailə həyatının bu mərhələsində boşanmalar daha çox olur, xarakterin düz gəlməməsi məlum olur. Digər bir çətinlik isə uşağın tərbiyəsi, ona qulluq edilməsi ilə bağlıdır.

Ailədə son uşağın əmək fəaliyyətinə başlaması və özünün ailəsini qurması ilə ailədə yeni keyfiyyət dəyişikliyi baş verir. Ailə özünün tərbiyəedici funksiyasını başa vurur. Burada tədqiqatçıların yanaşmaları fərqlidir. Təbii ki, milli xüsusiyyətlər, adət-ənənələr də öz təsirini göstərir.

“Övlad məhəbbəti, ona öz gələcək davamçısı kimi baxmaq istənilən insanın genetik xüsusiyyətidir. Lakin hər bir xalq bu məhəbbəti müxtəlif şəkildə təzahür etdirir. Burada təbii ki, valideynin xarakteri, sosial mühit, milli xüsusiyyətlər, əxlaqi dəyərlər və s. öz təsirini göstərir” (3, s. 148) .

Milli xüsusiyyətlərin təsirini şərh etmək üçün bir neçə nümunəyə nəzər salaq. Məsələn, fransızlar hələ körpəlikdən uşağa öyrədirlər ki, boşqabdakı yeməyi sonadək yemək vacibdir. Anaya hörmət övladın birinci dərəcəli vəzifəsidir. Yad adamların yanında uşaqlar özlərini ciddi aparmalı, böyüklərin sözünü kəsməməlidirlər. Onlara müraciət edilməyənədək söhbətə qarışmamalıdırlar.

“Nənələrin nəvələrin daimi qayğısına qalması yolverilməz sayılır. Yalnız altı və ya bazar günləri nəvə bir neçə saatlığa nənəsinin yanında ola bilər. Bundan başqa, əgər nənə kənddə yaşayırsa, yay tətilini nəvəsi onunla birgə keçirir” (3,s. 149) .

Yapon ailələrinin isə özünəməxsus xüsusiyyətləri vardır. Onlar ilk növbədə qocalığa
əvvəlcədən hazırlıq görür, onu sığortalamağa çalışırlar. Ailə başçısı qocalarkən ailənin idarə olunmasını böyük oğula təhvil verir, özü isə passiv həyat tərzinə

keçir. O, qalan ömrünü arvadı ilə birlikdə sakitliklə başa vurur. Bununla belə, o, ailənin ən hörmətli üzvü olaraq qalır.

Əgər ailədə oğlan yoxdursa, ər və arvad qızlarından birinə adaxlı tapır və onu oğulluğa götürür. Toy zamanı isə adaxlı hökmən qızın familyasını qəbul edir. Yaponiyada ailə qurarkən yaşlıların məsləhət və təcrübəsi nəzərə alınır. Oğul adətən ata və ananın məsləhətindən kənara çıxmır.

Yapon qadınları dikdaban ayaqqabı geyinmirlər ki, kişilərdən uca görsənməsinlər. Geyim seçərkən belə bir deyimə əməl etməyə üstünlük verirlər: "Yerində olmayan mismarın başına çəkic dəyər" .

Azərbaycanlıların da özünəməxsus ailə dəyərləri vardır. R.İ.Əliyev yazır: "Dünyaya gələcək uşağın oğlan və ya qız olacağından asılı olaraq valideynlər ona müəyyən münasibətini müəyyənləşdirir, onun tərbiyəsi ilə necə məşğul olacağını təsəvvür edir, elə bil ki, buna hazırlaşır. Valideynlərin oğlan və qız barədə müxtəlif arzu, istək, fikir, münasibətləri və qayğıları uşaqların tərbiyəsi prosesində bütün dolğunluğu ilə əks olunur" (4, s. 117) .

Ə.Ə.Əlizadə və A.N.Abbasov ailə ənənələrinin qədim tarixə malik olduğunu və nəsildən-nəslə ötürüldüyünü göstərirlər: "Qədim zamanlardan başlayaraq uşaqların ailə həyatına hazırlanması vəzifəsini ailə özü yerinə yetirir. Uşaqlar kiçik yaşdan etibarən ailə həyatının yazılmamış qanunlarına öyrəşirdilər" (5, s. 4) .

Müəlliflər ailədaxili və şəxsiyyətlərarası münasibətlərin xeyli dəyişdiyini, adət-ənənələrin nəzərə alınmadığını da qeyd edirlər. Nəzərə alsaq ki, onların bu iradlarından 30 il vaxt keçib və bu müddətdə daha çox dəyişiklik baş verib, onda bu problemə diqqətin daha artıq göstərilməsi zərurəti yaranır.

Ailədaxili münasibətlərin qurulmasında, o cümlədən gənc ailələrdə nənə-baba amili mühüm rol oynayır. Ailənin gündəlik həyatında yaş xüsusiyyətləri və onlardan irəli gələn məsələlər xüsusi əhəmiyyət kəsb edir. Nənə və babanın fiziki gücü tədricən azalır, istər sosial həyatda, istərsə də məişətdə iştirakları məhdudlaşır, daha çox istirahət etmək zərurətə çevrilir. Sağlamlıq vəziyyətinin pisləşməsi yaşlıları öz səhhətləri qayğısına qalmağa məcbur edir. Ailəyə körpə uşağın gəlməsi nənə və babadan da xeyli əmək sərf olunmasını zəruri edir.

Elə buna görə də psixoloq və pedaqoqların, sosioloqların gənc ailənin üzləşdiyi bu çətinliyə diqqət yetirməsi təəccüblü deyil. Bu problemlə bağlı tədqiqatçıların araşdırmalarını iki qrupa ayırmaq olar. Psixoloq və sosioloqların bir qrupu ailənin üzləşdiyi bu çətinliyi cəmiyyət həyatında baş verən sosial-iqtisadi proseslərlə bağlı şərh edirlər. Bura müharibələr, iqtisadi böhranlar, təbiət hadisələri və s. aid edilir. İkinci qrup araşdırmalarda isə bu proses "normativ stress" adlandırılır. Bu isə birbaşa ailənin özü ilə bağlıdır: boşanmalar, xəstəliklər, maddi çətinlik və s.

Bütün bu sadalananlar, eləcə də digər çətinliklər ailə həyatında böhrana səbəb olur. Ailədə konflikt yaranır, qarşılıqlı münasibətlər pozulur. Ailənin qorunması, eləcə də ailədəki rahatlığın, sabitliyin qorunması çətinləşir. Burada subyektiv amillərin təsirini də nəzərdən qaçırmaq olmaz. Nəticə olaraq boşanma və onun səbəblərini N.Y.Solavyov, V.A.Sısenko, Q.Kelli, C.Tibo və b. Araşdırmışlar. Gəldikləri ümumi qənaət belədir ki, iqtisadi, psixoloji, fizioloji problemlər çox vaxt ailənin dağılmasına səbəb olur və bu, ailənin qurulmasının ilk beş ilində baş verir.

Bir sıra tədqiqatçılar ( D.Valter, D.Reis, D.Oliver və b. ) ailədə baş verən neqativ təzahürləri “stress yaradan təzahürlər” , “ailə çətinlikləri” adlandırırlar. Bu kimi təzahürlər isə gənc ailələrdə ər-arvad arasında qarşıdurmalara, konfliktlərə səbəb olur.

Göstərilən çoxsaylı çətinliklər ailə həyatı üçün uzunmüddətli və ya ötəri, qısamüddətli ola bilər. Onlar neqativ hadisələrin təsir gücü və qıcıqlandırıcının müddətindən asılıdır. Birinciyə ər və arvadın xəyanəti, gözlənilməz xəstəlik və s. aiddir. İkinciyə isə güclü fiziki və psixi gərginlik, uzunmüddətli konflikt və s. daxildir.

Gənc ailələrdəki ər-arvadın üzləşdiyi çətinliyin iki tipini göstərmək olar: a) ailə mühitinin kəskin şəkildə dəyişməsi (psixoloqlar bunu həyati stereotip də adlandırırlar); b) ailə yükünün bir-birinin üzərinə qoyulması.

Psixoloji tədqiqatlar (Ə.Ə.Əlizadə, A.N.Abbasov, R.İ.Əliyev və b.) göstərir ki, ailəliyin ilk mərhələsində ər və arvad istənilən halda çətinliklə üzləşirlər. Bu vəziyyət isə yüngül, tez keçib gedən və ya gərgin, uzunmüddətli ola bilər. Ər və arvadın psixoloji uyuşması, yeni şərait, yeni tələblər, ailənin digər üzvləri, yaxın qohumlarla uyğunlaşma və s. Digər növ çətinlik isə uşağın dünyaya gəlməsi, ailə yükünün ağır olması və s. ilə bağlıdır.

## ƏDƏBİYYAT

1. Душевная жизнь детей \ Под ред. А.Ф.Лазурского и Нечаева. М. : Польза, 1910, 283 с.

2. Дичюс П. Развод и его причины в Литовской ССР\\ Человек после развода. Вильнюс, 1985, № 2, с.13-20

3. Əliyev R. İ. Mentalitet. Bakı: Elm və Təhsil, 2009, 232 s.

4. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları: Psixol. Elm. Dok. dis. Bakı, 2004, 270 s.

5. Əlizadə Ə.Ə. , Abbasov A.N. Ailə həyatının etika və psixologiyası. Bakı: Maarif, 1988, 192 s.

**UOT**
**94 (479.24)**

# GÖRKƏMLİ DÖVLƏT XADİMİNİN FƏALİYYƏTİNDƏN SƏHİFƏLƏR

***Samir Baxşəliyev***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

***Açar sözlər:*** *siyasi, tarixçi, dövlət, xalq*

N.Nərimanov parlaq siyasi fəaliyyəti ilə xalqımızın tarixində görkəmli ictimai-siyasi və dövlət xadim kimi özünə əbədi və silinməz yer qazanmağa nail olmuşdur. Lakin təəssüflər ki, bu nəhəng şəxsiyyət haqqında xalqımız, bəzən hətta tarixçilər belə bütün həqiqətləri bilmirlər. Onun tarixdə layiq olduğu yerin müəyyən edilməsinə ən dəyərli qiyməti Ümummilli lider Heydər Əliyev vermişdir.

## СТРАНИЦЫ ЖИЗНИ ВЕЛИКОГО ГОСУДАРСТВЕННОГО ДЕЯТЕЛЯ

***Самир Бахшалиев***

***Ключевые слова****: политик, историк, государство, народ*

Н.Нариманов в свое время был великим мыслителем, видным общественным и государственным деятелем и таким остается. В годы советской власти им очень многого было сделано для сохранения национальных традиций нашего народа. Но до сих пор многие историки не смогли достойно оценить его заслуги перед своим народом. Должную оценку заслугам Н.Нариманова в первые дал Общенациональный лидер Гейдар Алиев.

## PAGES OF LIFE OF GREAT STATESMAN

***Samir Bakshaliyev***

***Keywords:*** *politic, historical, state, people*

N.Narimanov brilliant political activity the spectacular history of our nations social and political and its eternal and indelible as statesman has been able to gain ground. But unfortunately our people have aboutidentity giant meanwhile historians people do not know the whole truth. His history its rightful place detecting most voluable prices national leader GeydarAliyev membership.

N.Nərimanov parlaq siyasi fəaliyyəti ilə xalqımızın tarixində görkəmli ictimai-siyasi və dövlət xadimi kimi özünə əbədi və silinməz yer qazanmağa nail olmuşdu. Uşaq yaşlarından ağlı və iti zəkalı olan N.Nərimanov sonradan ərəb və rus dillərini öyrənməyə başlayır. İlk təhsilini ruhani məktəbində alsa da, sonralar Qori şəhərində müəllimlər seminariyasında oxuyur. Tiflis quberniyası Borçalı qəzasının Qızılhacılı kəndində müəllim işləməsi ilə yaşadığı cəmiyyətin ağrı-acısı və yoxsulların həyat tərzi ilə yaxından tanış olur. Bütün bunlar onun dünyagörüşünün formalaşmasına həlledici təsirini göstərir.

1891-ci ildə Bakıya qayıdan N.Nərimanov şəhərdə müəllimliklə bərabər, mədəni-maarif, ədəbi-siyasi fəaliyyətini də davam etdirir.
N.Nərimanov siyasi fəaliyyətdə ilk addımlarını Odessada ali məktəbin tibb fakultəsində oxuduğu zaman atır. O, inqilabi hərəkatda yaxından iştirak etməsi ilə gizli polisin diqqətini cəlb etmişdi. 1905-ci ildə oxuduğu ali məktəbin müvəqqəti bağlanmasına baxmayaraq, ali təhsilini sonradan başa vura bilir.

Bakıya qayıtdıqdan sonra “Hümmət” sosial-demokrat təşkilatına daxil olması ilə ömrünün sonunadək sadiq qaldığı sosial demokratiya idealları ilə tanışlığı başlayır. O, bolşevik mətbuatında müxtəlif mövzularda məqalələrlə çıxış etməklə bərabər, dövrün milli mətbuat səhifələrində də özünü tanıdırdı.
Bütün bu deyilənlərin ixtisasca həkim olan və yalnız 1909-cu ildən etibarən öz ixtisası üzrə həkimlik fəaliyyətinə başlayan bir şəxs tərəfindən edilməsi bəlkə də qəribə görünə bilərdi. N.Nərimanovun istər ictimai-siyasi, istərsə ədəbi-bədii, istərsə də inqilabi siyasi fəaliyyətində hətta bu günkü günlərimizdə çoxlarımız üçün örnək ola biləcək çoxlu məqamlar vardır. Lakin bunların hətta bir neçəsi üzərində dayansaq belə onlar bu böyük şəxsiyətin milli mənlik dərəcəsi, türkçülük və azərbaycançılıq ideallarına nə dərəcədə sadiq qaldığını aydın görməyə imkan verir [1,s.35,106]. Böyük ailə sahibi olmasına baxmayaraq, 44 yaşına qədər ailə qurmayan N.Nərimanov əslində anasını, xalasını, iki dul bacısı və onların uşaqlarını, qardaşı uşaqlarını öz himayəsində saxlayırdı. Nə qədər çətin olsa belə, o, bacısı və qardaşı uşaqlarının hamısını sonuncuyadək oxudub, təhsil və şərəfli peşə sahibləri edə bilmişdi.

Başqa bir maraqlı cəhət. I Dünya müharibəsi illərində Antanta hərbi siyasi blokunun üzvü olan Rusiya ilə əks cəbhədə qarşılaşan Osmanlı Türkiyəsi ordusunun döyüş meydanlarında əsir düşən və Bakıda Nargin adasında

saxlanılan bir qrupuna N.Nərimanovunmünasibəti olduqca ibrətamizdir. N.Nərimanov onların ağır və dəhşətli vəziyyəti haqqında dəfələrlə mətbuatda və şəhər Dumasında, üzvü olduğu müxtəlif ictimai təşkilatların toplantılarında ciddi və sərt ittihamlarla çıxış etmiş, hətta şəhərin idarə orqanlarına bu şəxslərə yardım etməyə çağıran müraciətlər etmiş və ən sonda onların vəziyyətlərinin yaxşılaşmasına nail ola bilmişdir. Sonralar onun bu xidmətindən böyük minnətdarlıqla bəhs edən türk əsirlərinin bir qrupu dövri mətbuat səhifələrində bunu xüsusi olaraq qeyd etmişlər [2,№378]. Bolşeviklər 1917-ci ilin payızında Bakıda hakimiyyəti ələ keçirdiyi dövrdə N.Nərimanov yerli hökumətin sədri kimi müsəlman milli qüvvələrinə qarşı sərt tədbirlərin qarşısını almağa çalışmışdır. O, həmişə milli maraqları üstün tutaraq, özünü hakimiyyətə gəlməkdə maraqlı olan siyasi partiyanın nümayəndəsindən daha çox milliyyətçi ictimai xadim kimi aparmışdır[3,s.26].

1918-ci ilin əvvəlində müsəlman diviziyasının başçısı general Talışınski N.Nərimanovun təkidi ilə azad olunmuş, martda yenə də onun təşəbbüsü ilə bolşeviklərlə musavatçılar arasında danışıqlar aparılmış, qarşıdurmanın aradan qaldırılması yönündə razılıq əldə edilsə də, sinfi mübarizə adı altında milli qırğın törədilmiş, bolşevik və daşnak hərbi qüvvələri tərəfindən müsəlmanların amansız soyqırımı həyata keçirilmişdir.

S.Şaumyanın sədr olduğu Bakı XKS-nə daxil olan N.Nərimanov şəhər təsərrüfatı komissarı kimi şəhərin sanitar vəziyyəti ilə bağlı tədbirlər görmüşdü.Ağır xəstə olmasına baxmayaraq,müalicə üçün Həştərxana gedənə qədəro, S.Şaumyan və ətrafının törətdiyi qırğın və anti-azərbaycan siyasətinin qarşısını almaq üçün çox işlər görmüşdü. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nərimanov siyasi müxalifətdə olsa da, tanınmış Azərbaycan ziyalıları ilə (Ü.Hacıbəyov və digərləri ilə) əlaqələr saxlamaqda davam etmişdi. Bakıda Sovet hakimiyyətinin yeritdiyi siyasəti və bu siyasətin törətdiyi fəsadları rəsmi şəkildə ifşa etmişdir. Sosialist ideyalarına səmimi surətdə inanan N.Nərimanov hesab edirdi ki, Qafqazda Sovet hakimiyyətinin qurulması vətəndaş müharibəsi, silahlı mübarizə yolu ilə deyil, yerli əhalinin milli tarixi təfəkkürünü, sosial-məişət ənənəsini, mənəvi təlabatını, psixologiyasını nəzərə almaqla baş verməlidir [4,s.128].

N.Nərimanov AXC-nin hakimiyyəti illərində o vaxtkı Rusiya dövlətinin qurucusu V.Leninlə birbaşa kontaktlar yaratmağa imkan verən müxtəlif ali partiya və dövlət vəzifələrində-RSFSR Xalq Xarici İşlər Komissarlığı Yaxın Şərq şöbəsinin müdiri, Xalq Milli İşlər Komissarının müavini, Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissar olaraq çalışmışdır. Məhz elə bu vaxtlardan başlayaraq Rusiyanın xarici siyasətində Qafqaz, Şərq məsələləri ətrafında sovet liderləri ilə ilk fikir ayrılıqları yaranır. N.Nərimanovun əsas tövsiyəsi yerli xalqların və ərazinin xüsusiyyətlərini nəzərə almaqdan ibarət idi [5,s.221].

AXC-nin hakimiyyətinin süqutu ərəfəsində V.Leninin göstərişi ilə Qafqaza yola düşən N.Nərimanov 1920-ci il aprelin 27-də qiyabi olaraq Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçilir.Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra burada idarəçilik strukturunda əsas simalardan birinə çevrilən N.Nərimanov həm erməni millətindən olanların, həm də yerli azərbaycanlı həmkarlarının ciddi müqavimətinə rast gəlir. Sovet yönümlü canfəşanlığına baxmayaraq, özbaşınalığa, haqsızlığa qarşı bacardığı qədər mübarizə aparır. Azərbaycan xalqının milli mədəni tərəqqisinə, dini problemlərin həllinə, Azərbaycan dilinə dövlət statusu verilməsinə, milli ziyalılara və təhsilə xüsusi önəm verilməsinə, milli dövlət quruculuğu məsələlərinə, milli adət-ənənələrin qorunmasına xüsusi önəm verir [6].

Onun bu fəaliyyətləri birmənalı qarşılanmamış, əleyhinə geniş kompaniyalar aparılmışdı. N.Nərimanov hakimiyyətə gələrkən Azərbaycan artıq İrəvan və Dərbənd ərazilərini itirmişdi. Zaqatala, Zəngəzur, Naxçıvan, Qarabağ və Bakının taleyi isə mürəkkəb olaraq qalırdı. Nərimanovun Azərbaycanın ərazi bütövlüyünü qorumaq uğrunda fəaliyyəti nəticəsində Naxçıvan, Qarabağ, Zaqatala Azərbaycanın tərkibində saxlanılmışdı.

O, Naxçıvanın Azərbaycandan təcrid olunmaması üçün Mehridən yol verilməsi uğrunda ardıcıl mübarizə aparmış, Zəngəzurun isə Azərbaycandan ayrılmasının qarşısını təkbaşına ala bilməmişdi.

Azərbaycanı Sovet Rusiyasının müttəfiqi, müstəqil bir respublika kimi görən N.Nərimanov qarşılıqlı etimad əsasında mərkəzlə Azərbaycan arasında siyasi və iqtisadi hüquqların bölgüsü, Bakının milli simasının ifrat şəkildə pozulmasının qarşısının alınması, milli adət və ənənələrin qorunması uğrunda ardıcıl mübarizə aparmışdır. Mərkəzin qərəzli münasibətini, ruslara xüsusi imtiyazların verilməsini pisləyərək, «kommunist cildinə girmiş daşnakların» məkrli fəaliyyətini ifşa etmişdir [7].

Məhz bu işlərin nəticəsi idi ki, mərkəzdə Azərbaycan nümayəndəsinin bilavasitə iştirakı olmadan Azərbaycana aid heç bir məsələnin müzakirə edilmir, hər hansı bir mərkəzi strukturda Azərbaycanın tam səlahiyyətli nümayəndəsinin təmsil olunmasını, neft istehsalına və satışına Azərbaycan hökumətinin nəzarətinin artırılması təmin edilirdi. Milli ordunun, aviasiyanın, nəqliyyat sisteminin yaradılmasına diqqət yetirilirdi.

Nərimanov Sovet hökumətini Şərq siyasətini düzgün anlamamaqda ittiham edirdi. O, Rusiyanın Türkiyə siyasətinə müsbət yön verirdi. N.Nərimanov Türkiyənin milli azadlıq savaşında qələbələrini alqışlayırdı. 1921-ci ildə Rusiya ilə Türkiyə arasında taleəhəmiyyətli Moskva və Qars müqavilələrinin bağlanmasında N.Nərimanovun əvəzsiz xidmətləri olmuşdu. Onun təkidi ilə Qars müqaviləsinin mətninə onun müddətsiz və ya əbədi imzalanması haqda

müddəanın əlavə edilməsi bu böyük dövlət xadiminin uzaqgörənliyinin nəticəsi idi.

Bu fakt 1988-ci ildə Dağlıq Qarabağ hadisələri başlayanda Naxçıvan ərazisinin erməni fitnəkarlıqlarından kənarda qalması üçün hər iki iştirakçı dövlətin təminatlarını bir daha gündəliyə gətirdi. 2016 cı ildə Türkiyə səmasında Rusiya hərbi təyyarəsinin Türkiyə silahlı qüvvələrinə məxsus təyyarədən vurulmasından istifadə etmək niyyətində olan antiazərbaycan və antitürkiyə dairələrinin diqtəsi ilə Rusiya Dövlət Dumasının bir qrup deputatı adı çıkilən sazişlərin ləğvi üçün kompaniyaya başladı. Bu cür meyllərin qarşısının alınmasında da N.Nərimanovun siyasi uzaqgörənliyinin nəticəsi olan sözügedən müddəanın mövcudluğu Rusiya və Türkiyənin tarixi öhdəliklərini gündəmə gətirərək, həmin dairələrin cilovlanmasında əvəzsiz rol oynadı.

Təbii olaraq, N.Nərimanovun fəaliyyəti həm Moskvada, həm də Azərbaycanda onun əleyhdarlarının, o cümlədən də mənfur erməni bolşeviklərinin addımbaşı qara yaxmalarına, böhtanlarla dolu kompaniyalar təşkil etmələrinə səbəb olurdu. 1921-ci ildə Azərbaycan rəhbərliyində ona qarşı ixtilaflar xüsusilə güclənir. N.Nərimanovun yüksək statusla rəhbər vəzifələrə təyinatı ilə müxalif qüvvələr onu Azərbaycandan uzaqlaşdırmağa nail olurlar.

1922-ci ilin martında o, Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) İttifaq Sovetinin sədrlərindən biri olur.N.Nərimanovsovet nümayəndə heyətinin üzvü kimi 1922-ci ildə Genuya konfransında iştirak edir və Bakı nefti ətrafında gedən gərgin danışıqlarda öz konstruktiv mövqeyini nümayiş etdirir [6]. N.Nərimanov ZSFSR və SSRİ rəhbərliyində çalışdığı vaxtlarda da Azərbaycanda gedən prosesləri diqqətdə saxlamışdır. O, Azərbaycanda yerli əhalinin ciddi narazılığına səbəb olan "sovet antimilli idarəçilik" qaydalarını kəskin pisləmiş və xalqının mənafeyinə zidd idarə üsullarını mərkəz qarşısında ifşa etmiş, hətta bu barədə fikir və təkliflərini sovet hökumətinin mərkəzdəki liderlərinə rəsmi müraciət formasında çatdırmışdı.

Onun dəfn günü–1925-ci il martın 23-ü bütün ölkədə matəm günü elan edilmişdi. N.Nərimanov Moskvada,Qızıl Meydanda, Kreml divarı yanında dəfn olunub.

## ƏDƏBİYYAT

1. "N.Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər". Akademik Ramiz Mehdiyevin redaktəsi ilə. Nurlan nəşriyyatı. Bakı 2013. 346 s.
2. "Hümmət" qəzeti, 31 mart 1918, № 378.

3. Qəhrəmanova R.Ə. NərimanNərimanov. Dünən, bugün, sabah. Vektor. Bakı 2013. 115 s.
4. Видные Азербайджанцы. Управление делами Президента Азербайджанской Республики. Президентская библиотека. Баку.2016.200 с.
5. Иванов Р.Н.. Смертельная схватка. Москва,2015,519 с.
6. http://m.gomap.az/info/Description.aspx?idlo=32&lvo=4&pID=1485185&lng=ru
7. http://nerimanov.ev-muzeyi.az/az/index.php?newsid=17

# AZƏRBAYCAN XALQININ MİLLİ AZADLIQ HƏRƏKATI

***Nuru Məmmədov***
*Bakı Dövlət Universiteti*
***Xəqani Məmmədov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

***Açar sözlər**: milli hərəkat, xalq, millət, mərhələlər, üsyanlar*

Məqalədə milli şüurun, milli oyanışın və milli ideyaların yaranması isə milli hərəkatın başlanması, onun mərhələləri və xüsusiyyətləri araşdırılır. Milli hərəkatın meydana gəlməsində «Əkinçi» qəzetinin rolu və xidmətləri şərh edilir.

## НАЦИОНАЛЬНО-ОСВОБОДИТЕЛЬНОЕ ДВИЖЕНИЕ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

***Нуру Мамедов***
***Хагани Мамедов***

***Ключевые слова**: национальная движения, нация, народ, этапы, восстание*

В статье исследуются вопросы зарождения национальной мысли, национального идей, а так же начало национального движения его этапы и особенности. Раскрывается роль и заслуга газеты «Экинчи» в зарождении национального движения.

## THE NATIONAL LIBERATION MOVEMENT OF THE AZERBAIJANI PEOPLE

***Nuru Mammadov***
***Khaqani Mammadov***

***Keywords**: national movements, the nation, the people, the stages, the uprising*

The article examines the question of origin of the national idea, the national idea, as well as the beginning of the national movement of the steps and features. The role and merit of the newspaper "Ekinchi" in the birth of the national movement.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin söylədiyi kimi, Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixi vardır. Beş minillik dövlətçilik tarixinə malik olan bu xalqın müstəqillik uğrunda apardığı mübarizə tarixinin zəngin dövrləri və mənalı səhifələri çoxdur. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümü münasibəti ilə təşkil olunan təntənəli yığıncaqda ölkə Prezidenti cənab İlham Əliyevin parlaq nitqində göstərildiyi kimi, Azərbaycanın dövlətçilik tarixinin zəngin dövrləri olmuşdur [1]. Müstəqilliyimizin 25-ci ildönümü haqqında Prezident sərəncamında deyilir: «Əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, milli varlığı-mızı qoruyub saxlamaqla yanaşı, dünya mədəniyyəti xəzinəsinə də misilsiz töhfələr vermişdir» [2].

Tarixi inkişafın ayrı-ayrı vaxtlarında Azərbaycan xalqı həmişə müstəqillik arzusu ilə yaşamış və heç vaxt yadelli işğalçıların siyasəti ilə barışmamış, leqal və qeyri-leqal mübarizə formalarından, hətta qaçaqçılıq və partizan hərəkatı taktikalarından istifadə edərək dövlətçiliyimizi bərpa etmək arzusu ilə yaşamışdır. Ən qədim dövrlərdə də, erkən və klassik orta əsrlər dövründə də, xanlıqlar dönəmində də, XIX-XX əsrlərdə də belə olmuşdur. Cəmi 23 ay ömür taleyi yaşayan Azərbaycan Xalq Cümhuriyyəti qısa zamanda milli dövlətçilik atributlarını yaratdı və bir daha dünyaya sübut etdi ki, Azərbaycan xalqı müstəqil dövlət yaratmağa qadir olan xalqdır. Təəssüf ki, Cümhuriyyət hökuməti qısa ömür tarixi yaşadı. Azərbaycan yenidən işğala məruz qaldı. Ancaq xalqımız bu işğalla da heç cür barışmırdı. Və, nəhayət, təqribən 70 ildən sonra Azərbaycan xalqı öz müstəqilliyini yenidən bərpa etdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək, XX əsrin sonlarında müstəqilliyimizin yenidən bərpa edilməsi xalqımızın ən böyük nailiyyətidir, "Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir" [3. s.31].

Bu deyilənlərdən aydın olur ki, araşdırdığımız mövzu olduqca aktualdır. Aktualdır ona görə ki, hər hansı bir tarixi mərhələdə Azərbaycanda milli-azadlıq hərəkatı başlamış, genişlənmiş və məntiqi olaraq müstəqilliyə doğru istiqamətlənmişdir. Maraqlı cəhət ondan ibarətdir ki, mövzu ilə əlaqədar daha çox xarici ölkələrin alimlərinin tədqiqatlarında və mühacirəd əbiyyatında materiallar vardır. Ona görə ki, 70 illik sovet inzibati amirliyi dövründə həmin mövzuya müraciət edilməsi kommunist ideologiyası tərəfindən yasaq edilmişdi.

Müstəqilliyimizin bərpa edilməsinin ən böyük tarixi əhəmiyyəti həmdə o oldu ki, xalqımızın tarixinindüzgünvəobyektivyazılmasınaşəraityarandı.

Azərbaycan xalqının milli azadlıq mübarizəsinin məntiqi nəticəsi kimi dövlət müstəqilliyinin bərpasının böyük əhəmiyyəti həm də o oldu ki, qədim və zəngin dövlətçilik tariximizin obyektiv yazılmasına əlverişli şərait yarandı. Azərbaycan tarixinin yeni təfəkkür tərzində, doğru-düzgün yazılmasına xüsusi diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyev 1993-cü il sentyabrın 21-də və 1997-ci il yanvarın 31-də ziyalılarla, AMEA-nın rəhbərliyi ilə görüşündəki nitqində Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən yazılmasının vacibliyini qeyd etmiş və bu istiqamətdə elmi-tədqiqat işlərinin genişləndirilməsini bildirmişdir. Eyni zamanda, tarixçilərə bu işdə dəyərli məsləhətlər, tapşırıqlar və göstərişlər vermişdir. Heydər Əliyev bu tarixi görüşləri ilə Azərbaycan elm adamlarına milli tarix elminin gələcək inkişaf strategiyasını müəyyənləşdirmək, tarixçilər ordusunu səfərbər etmək və istiqamətləndirmək baxımından hər hansı bir problemin dərindən və obyektiv araşdırılması üçün dövlət səviyyəsində hərtərəfli şərait yaratdı. O, XIX-XX əsrlər Azərbaycan tarixinin yazılmasını daim nəzarətdə saxlayacağını, ona hərtərəfli kömək və yardım edəcəyini də bildirdi. Bu, Prezident Heydər Əliyevin Azərbaycan tarixinə dövlət siyasəti səviyyəsində diqqət və qayğının parlaq ifadəsi, tarixçilər qarşısında duran dövlət proqramı, fəaliyyət proqramı idi. Heydər Əliyev demişdir: "...Tariximizin parlaq səhifələri də, qaranlıq səhifələri də var. Tariximizin hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq… Biz qısa vaxtda heç olmasa XX əsrin tarixini yazmalıyıq" [4].

Müstəqillik illərində Azərbaycanda milli hərəkat problemini ətraflı araşdıran ilk tədqiqatçı alim X.Məmmədov olmuşdur. Onun tədqiqatlarında XIX əsrin sonu –XX əsrin əvvəllərində Azərbaycan milli hərəkatının mərhələləri, bu hərəkatın sosial-iqtisadi və siyasi kökləri, maarifçilik hərəkatı və milli-mədəni inkişaf məsələləri tədqiq edilmiş, erməni-azərbaycanlı münaqişələrini doğuran səbəblər araşdırılmış, milli müstəqillik uğrunda mübarizənin istiqamətləri müəyyənləşdirilmişdir. Azərbaycan xalqının milli azadlıq hərəkatının problemlərinə həsr olunan həmin monoqrafiyasında və digər tədqiqatlarında müəllif haqlı olaraq 1875-1918-ci illəri əhatə edən dövrün 3 mərhələdən ibarət olduğunu qeyd edir. Xalqımızı cəhalət yuxusundan oyadan, maarifçilik və milli ideologiyanın qabaqcıl ideyalarını durmadan təbliğ edən görkəmli ictimai-siyasi və maarifçi xadim H.B.Zərdabinin yaratdığı «Əkinçi» qəzeti ilə başlanan birinci dövr- 1875-1905-ci, ikinci dövr 1905-1914-cü, üçüncü dövr isə 1914-1918-ci illəri əhatə edir. Bu cür dövrləşmə düzgündür və respublika tarixşünaslığında qəbul edilmişdir. Azərbaycan xalqının tarixində milli hərəkatın və milli oyanışın başlanğıcını qoyan «Əkinçi» qəzeti qısa ömür tarixində elə böyük işlər gördü ki, gələcək müstəqillik uğrunda mübarizənin bütün konturlarını müəyyənləşdirdi. Milli ziyalılar ordusunun yaradılmasında, milli

teatrın və milli mətbuatın meydana gəlməsində, maarifçi-demokratik və milli baxışlı ideya nümayəndələrinin formalaşmasında, milli burjua ziyanın və bütöv bir «Azərbaycan milləti»nin təşəkkül tapmasında nəhəng rol oynadı. Bütün bunlar və digər məsələlər xalqımızın milli hərəkatının oyanışına və yüksəlişinə kömək etdi. Müəllif dövrün tarixi şəraitinə, aparılan mübarizə üsullarına və taktiki formalarına uyğun olaraq milli hərəkatın birinci dövrünü ***oyanış dövrü***, ikinci dövrünü ***yüksəliş dövrü*** və üçüncü dövrünü isə ***təkamül dövrü*** adlandırmışdır. Şərti səciyyə daşıyan belə dövrləşmə, əslində 1918-ci ildə bitməmiş, "sistemli bir tarixi prosesi" [5] kimi1920-ci ilin aprel işğalından sonra daha intensiv formalarda davam edərək, xalqımızın şərəfli müstəqilik qazanmasına doğru istiqamətlənmişdir.

Qeyd etməliyik ki, Azərbaycan xalqının milli azadlıq hərəkatı 70 illik sovet inzibati-amirlik rejimi dövründə də davam etmiş və müxtəlif formalarda genişlənmişdir. Çünki, aprel işğalı ilə xalqımıza ağır zülm və işgəncələr gətirən bolşevik-daşnak ideologiyası güclü diktator hakimiyyəti yaratmış və onun güc orqanları vasitəsilə xalqımıza qənim kəsilmişdi. Bolşevik cildinə girən daşnaklar – Mirzoyan, Mikoyan, Sarkiskimi"…vicdansız fırıldaqçıların əlində Azərbaycan oyuncağa çevrilmişdi… Azərbaycanın bütün taleyini erməni daşnaklarına tapşırmışdılar…" [5, s.172]. Bolşevik-daşnak hökuməti XI Ordunun gücünə söykənərək Bakıda və Azərbaycanın bütün bölgələrində qarətlərə, soyğunçuluğa, siyasi repressiyalara, qanlı qırğınlara və amansız terrora başladılar. Ağına-bozuna baxmadan ailələrə soxulur, evləri qarət edir, qız-gəlinlərin sırğalarını, boyunbağılarını zorla müsadirə edir, azacıq müqavimət göstərən hər kəsi güllələyirdilər. On minlərlə adamı-ziyalıları, alimləri, müəllimləri, ADR rəhbərlərini, el ağsaqqallarını, kəndlərdə tanınan rəhbərləri təqiblərə, sürgün və həbs edilməyə, güllələnməyə məhkum edirdilər. Artıq hər kəs aldanıldığını görür, "ilanın ağına da, qarasına da lənət" deyirdilər. Xalq müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk eləmişdi…" [6, s.59-60].

Beləliklə, zorakılıqlara və təhqirlərə məruz qalan Azərbaycan xalqı ayağa qalxdı, müqavimət göstərməyə başladı və güclü üsyanlar etdi. İlk üsyan Gəncədəb aşladı. Davamlı olaraq Tərtər, Ağdam, Şuşa, Naxçıvan, Qarabağ ərazisində, Şəki, Zaqatala, Lənkəran, Quba, Qazaxvəb. yerlərdə üsyanlar baş verdi. Bütün Azərbaycan ərazisində geniş üsyanlar başladı ki, "…üsyan edilməyən bir yer qalmamışdı" [7, s.69]. Bu üsyanlar güclü müqavimət və azadlıq hərəkatı olub Azərbaycan xalqının milli-azadlıq hərəkatına çevrildi və demək olar ki, 20-30-cu illəri əhatə etdi. Ancaq xalqımızın milli-azadlıq hərəkatı müxtəlif formalarda İkinci Dünya müharibəsindən sonrada davam etmişdi.

Deməli, belə məntiqi nəticə hasil olur ki, 1875-ci ildən başlanan milli hərəkat1920-ci il aprel işğalından sonra da davam etmiş, qarşıya qoyulan strategiyanı- müstəqil dövlətimizin yaranması yolunda müxtəlif taktiki

mübarizə üsullarından istifadə edərək, ali məqsədə doğru irəliləmiş və son nəticədə 1991-ci il oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etməklə xalqımız öz müstəqilliyinə yenidən qovuşmuşdu. Bununla əlaqədar olaraq, deməliyik ki, milli hərəkatın ***dördüncü mərhələsi*** aprel işğalından 1991-ci il oktyabrın 18-nə qədər olan dövrü əhatə edib.

Respublikamız müstəqillik qazandıqdan sonra XX əsrin 20-30-cu illərinin qanlı siyasi repressiyaları haqqında, siyasi rejimin işğal siyasətinə və müstəmləkə idarəçiliyinə qarşı baş verən üsyanlar və müqavimət hərəkatları tarixçi alimlərimiz tərəfindən geniş araşdırılmış və dəyərli tədqiqatlar aparılmışdır. Bu tədqiqatlardan aydın olur ki, Azərbaycan xalqının milli-azadlıq hərəkatı 70 illik sovet rejimi dövründə nəinki sönməmiş, əksinə müxtəlif taktiki formalarda davam etmişdir.

## ƏDƏBİYYAT


1. Əliyev İ.H. Müstəqil, ləyaqətli siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik. «Azərbaycan qəzeti», 18oktyabr 2016
2. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü haqqında Prezident sərəncamı. «Azərbaycan» qəzeti, 11 oktyabr 2016
3. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, 2001.
4. Əliyev H.Ə. Görkəmli alim və dövlət xadimi Vəli Axundovun 80 illiyinə həsr olunmuş yığıncaqda nitq // «Azərbaycan» qəzeti, 23 iyun 1996-cıil
5. Məmmədov X. Azərbaycan milli hərəkatı. B., 1996, 176s.
6. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı: Azərnəşr, 1992.
7. M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. B., 1990.

# AZƏRBAYCAN-ÖZBƏKİSTAN ELMİ ƏLAQƏLƏRİ TARİXİNDƏN
(XX əsrin 50-ci illəri)

***Əzizağa Ələkbərov***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

***Açar sözlər:*** *İctimai şüur, elmi konfrans, elmi tərəqqi, elmi nailiyyət, elmi əlaqə, mülahizə*

Azərbaycan və özbək xalqlarının elmi-mədəni əlaqələrinin tarixi qədimdir. Bu çoxəsrlik əlaqələr iki dost, qardaş xalqın taleyində elə işıqlı, silinməz izlər qoymuşdur ki, onların araşdırılması və öyrənilməsi müstəqil dövlətçiliyimizin inkişafı və möhkəmlənməsi baxımından çox vacibdir.

Xalqlar arasındakı bu dostluq telləri tarixin bütün mərhələlərində həmişə möhkəm və sarsılmaz olmuşdur. Bu dostluq ədəbiyyat, məişət, mədəniyyət yaxınlığı və qədim sənət abidələri əsasında yaşayaraq möhkəmlənmişdir.

## ИЗ ИСТОРИИ АЗЕРБАЙДЖАНО-УЗБЕКСКИХ НАУЧНЫХ СВЯЗЕЙ
(50-е годы XX века)

***Азизага Алекберов***

***Ключевые слова:*** *ообщественного сознание, научный конференция, научно-технический прогресс, научные достижения, научная связь*

В статье говорится о важной и значительной роли науки в развитии культурных связей между азербайджанским и узбекским народами. Рассматриваются факторы, обусловливающие научные связи между двумя народами, и разъясняются суть, развитие и полученные резултаты целенаправленно создаваемых связей. Раскрывается направленность научных связей на сближение, повсеместное и во все времена стоящее и ценное осуществление дел не только между учеными, но и государствами, народами.

В статье выдвигается на первой план важность углубления научных связей во имя дальнейшего еще большого укрепления нашей государственной независимости.

# FROM THE HISTORY OF AZERBAIJAN-UZBEK SCIENTIFIC RELATIONS

(50-ies of the XX century)

***Azizagha Alekberov***

***Keywords:*** *social consciousness, conference, scientific progress, academic achievement, scientific link*

In the article, it is said about important and significant role of science in development of cultural relations between Azerbaijan and Uzbek peoples. It is considered the factors caused scientific relations between two peoples and is explained essence, development and results received by target directedly created relations. It is uncovered directiveness of relations on making close, everywhere and every time valuable realization of businesses not only among scientists, but among states, peoples.

In the article it is moved on the first plan importance of deeping of scientific relations in the name of further yet more strengthening of our state independence.

Elmsiz tərəqqi ola bilməz. Bu baxımdan, ona böyük diqqət verilməsi, qayğı göstərilməsi və daim yüksək dəyərləndirilməsi də təbii bir haldır. Elmin nəticələri təkcə bir ölkə hüdudlarına sığınıb qalmır. Elm ümumbəşəri mahiyyət daşıyır. Elmi əlaqələr alimləri birləşdirdiyi kimi, dövlətləri, xalqları da yaxınlaşdırır. Elm həmişə hər yerdə, hamı üçün gərəkli və faydalı görünür. Elə elmi problemlər vardır ki, onlar bütün ölkələrin və xalqların taleyi və gələcəyi ilə bağlıdır. Ona görə də birgə elmi tədqiqatlar göstərir ki, bir çox ölkələrdə inkişaf etmiş elm sahələrinin əməkdaşlığı olmadan böyük və ciddi problemlərin həllini tapmaq qeyri-mümkündür.

Azərbaycan xalqının Ümummilli lideri H.Əliyev demişdir:” Bu gün biz böyük sevinc hissi ilə xatırlayırıq ki, tarixi köklərimiz Özbəkistanın və Azərbaycanın mütəfəkkirləri, şairləri, alimləri arasında çox sıx dostluq telləri üçün əsas olmuşdur.Onlar bir-birinə təsir göstərmiş, öz yaradıcılığı ilə bir-birinə kömək etmişlər” [1, s.62-63].

Özbəkistan Respublikasının mərhum prezidenti İ.Kərimov 1996-cı ilin 27-28 mayında Azərbaycan Respublikasına rəsmi səfəri zamanı “Xalqlarımızın bir-birinə qarşılıqlı hörməti və qarşılıqlıköməyi”ni “ əcdadlarımızdan irs qalmış böyük sərvət” adlandıraraq, onu qorumağa və konkret işlərlə möhkəmləndirməyə çağıraraq, obrazlı şəkildə söyləmişdir:”Özbəklər və azərbaycanlılar

azman ağacın iki budağıdır. Əgər yanındakı budaq boy atmasa, əgər budaqlar bir-birini tufandan, qasırğadan və digər hücumlardan qorumasa, uca və möhkəm olmazlar" [1, s.55].

Elmi əlaqələrin əhatə dairəsi genişdir. Bu əlaqələr elmi ezamiyyət, birgə təcrübə mübadiləsi, birgə elmi-tədqiqat işlərinin aparılması, elmi- texniki kömək göstərmək, məsləhətləşmələr aparmaq, mühazirə və məruzələr etmək, beynəlxalq elmi konfrans, simpozium və konqreslərdə iştirak etmək, yaradıcılıq səfərlərində olmaq, elmi jurnal və kitabların mübadiləsi və s. formalarda özünü daha çox göstərir.

XX əsrin 20-30-cu illərindən inkişaf etməyə başlayan iqtisadi əlaqələr Azərbaycan-özbək elmi əlaqələrinə də öz müsbət təsirini göstərirdi. Bu əlaqələr daha çox kənd təsərrüfatı sahəsində inkişafa xidmət edən elmi-tədqiqat işlərinin aparılması, qabaqcıl təcrübə və elmi nailiyyətlərin bölüşdürülməsi və birgə tədqiqat işlərinin aparılması istiqamətində özünü göstərirdi. Lakin 1418 gün davam etmiş müharibə iqtisadi əlaqələri zəiflətdiyi kimi, elmi əlaqələrin genişlənməsinə də mane oldu. Müharibədən sonra elmi əlaqələr yenidən canlandı. XX əsrin 50-ci illərində Özbəkistan pambıqçılarının əmək təcrübəsi Azərbaycanda geniş təbliğ edilir, öyrənilir və yayılırdı. 1950-ci il iyunun 28-dən iyulun 7-dək Özbəkistan qarşılıqlı yoxlama briqadasının tərkibində Azərbaycanın təsərrüfatlarında olan aqronom S.Kayumov "elm, pambıq məhsulunu üçqat artırmağa kömək etmişdir" məqaləsində elmin nailiyyətlərinə güvənməklə, yüksək məhsuldarlığa nail olmağın yollarını açıqlamışdır. Öz fikrini Özbəkistan SSR Yangiyul rayonundakı Stalin kolxozunun təcrübəsi timsalında əsaslandıran S.Kayumov bu kolxoz təsərrüfatının elmi əsaslar üzərində qurulduğunu göstərmişdir. O, pambıqçılıqda tamamilə özünü doğrultmuş akademik V.R.Vilyams sistemi ilə torpağın səpindən əvvəl becərilməsi qaydasını açıqlamış və akademik T.D.Lisenko üsulu ilə pambıq kollarının uclarının vurulmasının böyük səmərə verdiyini konkret rəqəmlərlə təsdiqləyərək, bu üsullardan Azərbaycanda da faydalanmağın vaxtı çatdığını göstərmişdir[2].

Azərbaycan SSR EA-nın akademiki, geologiya-mineralogiya elmləri doktoru, professor Ə.Ə.Əlizadənin "Yer və zəlzələ (məşhur oçerk)" kitabı Daşkənddə iki dildə-rus (1950) [3] və özbək (1951) [4] dillərində çap olunmuşdur.

Böyük Türkmən Kanalının çəkilməsi ilə əlaqədar Qazaxıstan və Mərkəzi Asiyanın bioloji aləmi və kənd təsərrüfatında baş verəcək dəyişikliklərin nəticələrini müzakirə etmək üçün 1952-ci il noyabrın 20-dən dekabrın 1-dək Daşkənddə elmi sessiya keçirilmişdi. Sessiyanı SSRİ EA və Özbəkistan EA-nın biologiya və kənd təsərrüfatı bölmələri təşkil etmişlər. Sessiyada Özbəkistan, Türkmənistan, Tacikistan, Qazaxıstan, Azərbaycan SSR Elmlər Akademiyaları və SSRİ EA-nın Qırğızıstan filialının biologiya və kənd təsərrüfatı bölmələri

tərəfindən göndərilmiş alimlər iştirak edirdilər. Sessiya 7 bölmə üzrə öz işini qurmuşdu [5,s.61].

Alimlərimiz elmi əlaqələri genişləndirməkləiki xalq arasında dostluq, qardaşlıq münasibətlərinin də daim möhkəmlənməsinə səy göstərirdilər. Görkəmli alim H.Əliyevin 1953-cü il dekabrın 16-da "Qızıl Özbəkistan" qəzetindəDostluğumuz ildən-ilə möhkəmlənir" məqaləsi özbək dilində çap olunmuşdu. Məqalədə müxtəlif istiqamətlərdəki əlaqələrimiz və onların genişləndirilməsi yolları öz əksini tapmışdı [6, s.69].

Azərbaycan SSR EA-nın Botanika bağının Qazaxıstan və Mərkəzi Asiya ölkələri ilə sıx əlaqələri var idi. 1957-ci ildə bu bağdakı 40 bitki öz coğrafi mənşəyinə görə Türkmənistan, Özbəkistan, Tacikistan və Qazaxıstan bitkilərindən əmələ gəlmişdi ki, bunlar da bağdakı ümumi bitkilərin sayının 6,2%-ni təşkil edirdi.

İki respublika alimlərinin birgə keçirdikləri tədbirlər elmi əlaqələri gücləndirirdi. Pambıqçılığı inkişaf etdirməklə məşğul olan elmi təşkilatların fəaliyyətini əlaqələndirmək üçün 1955-ci il yanvarın 12-də Özbəkistan SSR EA-da respublikalararası müşavirə keçirilmişdi. Müşavirədə Özbəkistan, Tacikistan, Azərbaycan, Türkmənistan, Qazaxıstan və Qırğızıstanın elmi idarələrinin nümayəndələri iştirak etmişdilər.Alimlər ümumi və bölmə iclaslarında 1955-ci ilin elmi-tədqiqat işlərinin planlarını, habelə pambıqçılığın mexanikləşdirilməsi və elektrikləşdirilməsi, hidrotexnika, suvarma və meliorasiya məsələlərinə, yüksək məhsul əldə etmək üçün elmi əsas yaradılması məsələlərinə dair elmi-tədqiqat nəticələrinin tətbiq edilməsi planlarını geniş şəkildə müzakirə etmişlər.Dolğun və hərtərəfli rəy mübadiləsi nəticəsində elmi idarələrin fəaliyyətinin yaxşılaşdırılmasına, onların istehsalatla əlaqəsinin möhkəmləndirilməsinə kömək edə biləcək bir sıra tövsiyələr hazırlanmışdı. Müşavirə pambığın məhsuldarlığının artırılması, ən yeni aqrotexnika üsullarının, xüsusən kvadrat–yuva və darcərgəli əkin üsullarının kənd təsərrüfatında tezliklə tətbiq edilməsi, pambıqçılığın kompleksli mexanikləşdirilməsini tezliklə başa çatdırılması ilə əlaqədar olan elmi-tədqiqat işlərini yaxşılaşdırmağı lazım bilmişdir [7].

1956-cı il mayın 15-dən 20-dək Daşkənddə "Pambıq lifinin keyfiyyətinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsində yeni üsulların axtarılması, mövzusunda kənd təsərrüfatı institutları arası konfrans keçirildi. Konfransda 7 bölmə üzrə 32 məruzə dinlənildi ki, məruzəçilər arasında 14 Özbəkistan, 8 Moskva, 4 Azərbaycan, 3 Tacikistan və 1Türkmənistan alimi var idi.Azərbaycan alimlərindən-Azərbaycan SSR EA-nın müxbir üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor C.M.Hüseynovun "Pambığın məhsuldarlığının artırılmasında qalıq üzvi maddələrdən istifadə edilməsi", Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun əməkdaşı, kənd təsərrüfatı elmləri doktoru, professor N.İ.Malovun "Pambıq liflərinin keyfiyyətinin yaxşılaşdırılması və məhsuldarlığın artırılması üçün yeni üsullar", Azərbaycan EA-nın böyük elmi

işçisi A.İ.Güləhmədovun "Pambığın məhsuldarlığının yüksəldilməsində mikro-gübrələrdən istifadə edilməsi" və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun dosenti, kənd təsərrüfatı elmləri namizədi M.R.Qulubəyovun "Pambığın məhsuldarlığının yeni bioloji üsullarla yüksəldilməsi" mövzularındakı məruzələri maraqla qarşılanmış və yüksək dəyərləndirilmişdir [8, v.64].

Şamaxı Astrofizika Rəsədxanasının Mərkəzi Asiya, o cümlədən özbək astronomları ilə geniş elmi əlaqələri var idi. 1956-cı ildə Şamaxı Astrofizika Rəsədxanasında Sovet İttifaqının 7 elmi tədqiqat müəssisəsinin (Moskva, Leninqrad, Mərkəzi Asiya) əməkdaşları ilə birlikdə "Marağa rəsədxanasının coğrafi kordinatları əsasında Kolumbun Amerikanı kəşf etməsi" məsələsi müzakirə edilmişdi. Bu rəsədxananın əməkdaşı Q.D.Məmmədbəyli "Marağa astronomiya rəsədxanası və onun təsisçisi Məhəmməd Nəsirəddin Tusi" mövzusu üzərində işləməklə, 4 elmi məqalə çap etdirmiş və bu astrofizika əməkdaşlarının 7 elmi məqaləsi çapa təqdim olunmuşdu [9].

1956-ci il dekabrın 10-dan 13-dək Bakida türk dilləri dialektologiyası məsələlərinə həsr olunmuş Ümumittifaq müşavirəsi keçirilmişdi.Müşavirə SSRİ EA-nın dialektologiya işini əlaqələndirmə komissiyası ilə birlikdə Azərbaycan SSR EA tərəfindən çağırılmışdı. Müzakirənin işində Moskva, Bakı, Daşkənd, Alma-Ata,Aşqabad, Frunze, Kazan, Tbilisi, Çeboksarı, Tobolsk və Abakanın tanınmış alim türkoloqları iştirak edirdilər. Müşavirədə görkəmli Polşa türkoloqu, Polşa EA-nın şərqşünaslıq komitəsinin sədri professor A.A.Zayonçkovski də iştirak edirdi. Dialektoloqların Ümumittifaq müşavirəsi iki problemə: türk milli ədəbi dillərinin əsasını təşkil edən dialekt probleminə və türk dilləri dialektlərinin öyrənilməsi işinin vəziyyətinə həsr edilmişdi.Müşavirədə Azərbaycan SSR EA-nın müxbir üzvü, professor M.Şirəliyevin "Azərbaycan milli ədəbi dilinin əsasını təşkil edən dialekt haqqında" və özbək professoru V.V.Reşetovun "Özbək milli dilinin əsasını təşkil edən dialekt haqqında" məruzələri rəğbətlə qarşılanmışdı [10, 12-13].

1957-ci il mayın 27-dən iyunun 4-dək Daşkənddə Şərqşünasların I Ümumittifaq elmi konfransı keçirilmişdi. Təşkilat Komitəsinin qərarına əsasən, konfransda 250 nümayəndənin (o cümlədən, Azərbaycandan 25 nəfərin) iştirakı nəzərdə tutulmuşdu. Altı bölmədən ibarət olan konfransın proqramına 105 məruzə daxil edilmişdi. Azərbaycan SSR EA-nın vitse-prezidenti akademik Ə.S.Sumbatzadənin başçılıq etdiyi nümayəndə heyətinin üzvlərindən-Azərbaycan SSR EA-nın akademiklərindən Ə.S.Sumbatzadə, Ə.Ə.Əlizadə, A.O.Makovelski, Azərbaycan SSR EA-nın müxbir üzvlərindən Ə.Ə.Dəmirçizadə, M.A.Dadaşzadə,professorlardan H.M.Araslı, A.S.Fərəcov,tarix elmləri namizədləri Ə.H.Quliyev, S.B.Aşurbəyli, M.Ə.Qazıyev, P.Ə.Əzizbəyova, Ş.Ə.Tağıyeva, M.Ə.İsmayılov, Z.Abdullayev, R.Qazıyev, filologiya elmləri namizədləri A.Q.Orucov, A.Səfərov, A.Məmmədov,R.Sultanov və b. məruzələri böyük maraqla qarşılanmışdı [11, v.256-257]. Şərqşünasların Daşkənddə

keçirilən I Ümumittifaq konfransında iştirak edən görkəmli ədəbiyyatşünas alim H.M.Araslı konfransda “Şərq xalqlarının iqtisadi, mədəni və tarixi əlaqələri” bölməsinin sədri olmuş [10, s.10] və Azərbaycan-ərəb mədəni əlaqələrini əks etdirən məruzəsi ilə də daha çox yadda qalmışdı.

Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutu tərəfindən tərtib edilməyə başlanılan 4 cildlik “Azərbaycan dilinin izahlı lüğəti” təkcə respublikamızda deyil, SSRİ-dəki bütün türkdilli respublikaların hamısında böyük maraqla qarşılanmışdı. Çünki, Azərbaycanın dilçi alimlərinin bu uğurlu addımı həmin türkdilli respublikaların hamısı üçün ilk təcrübə idi. Lüğətin birinci cildi artıq 1957-ci ildə tərtib edilib qurtarsa da, növbəti cildlər üzərində yaradıcılıq işləri getməkdə idi. Lakin nəşriyyat planının həcmi məhdud olduğu üçün bu iş bir qədər ləngimişdi.

1957-ci ildə petroqrafların Daşkənd şəhərində keçirilən I Ümumittifaq müşavirəsində akademik M.S.Qaşqay təşkilat komitəsinin üzvü seçilmişdir [12, s.10].

1958-ci ildə SSRİ EA-nın Şərqşünaslıq İnstitutu ilə birlikdə Azərbaycan SSR EA-nın Tarix İnstitutu XIII əsrin axırları və XIV əsrin əvvəllərində yaşamış tarixçi və dövlət xadimi Fəzlullah Rəşidəddinin “Cami-ət-təvarix” (“Tarixlər toplusu”-“Salnamələr məcmuəsi”) kitabının 3-cü cildinin min səhifədən artıq həcmdə olan elmi-tənqidi mətnini nəşr etmişdilər.Kitabın fars dilində elmi-tənqidi mətnini Azərbaycan SSR EA-nın akademiki Ə.Əlizadə Daşkənd və Leninqradın ümumi kitabxanalarında, SSRİ EA-nın Şərqşünaslıq İnstitutunda, Britaniya və Tehran muzeylərində saxlanılan əlyazmaları, habelə İstanbul və Paruis əlyazmaları əsasında tərtib etmişdi. Akademik Ə.Əlizadə həmçinin 3-cü cildin göstəricilərini: terminoloji, etnik adları, xüsusi adları, coğrafi adları və türk-monqol tarixini tərtib etmişdi.Hülakilər (Elxanilər) dövlətinin tarixinə həsr edilmiş “Cami-ət-təvarix” əsərinin 3-cü cildinin farsca mətninin rusca tərcüməsini Daşkənd Şərqşünası A.K.Arendt hazırlamışdır. Azərbaycan SSR EA-nın nəşriyyatında nəşr olunmuş bu kitabda giriş məqalələri də dərc edilmişdi [13].

1958-ci il fevral ayının 3-dən 8-dək Azərbaycan SSR Elmlər Akademiyasında hesablama riyaziyyatı və hesablama texnikası vasitələrinin tətbiqi məsələlərinə həsr olunmuş Ümumittifaq müşavirəsi keçirilmişdir. Müşavirəni Azərbaycan SSR EA-nın hesablama mərkəzi və SSRİ EA-nın Avtomatika və Telemexanika İnstitutu çağırmışdı. Müşavirədə Rusiya Federasiyasının Moskva, Leninqrad və b. şəhərlərinin, Ukrayna, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Azərbaycan, Ermənistan, Litva vəLatviyanın elmi işçiləri və mütəxəssisləri iştirak edirdilər.Müşavirədə SSRİ EA Rəyasət Heyəti yanında hesablama texnikası komissiyasının sədri akademik A.Dorodnitsin hesablama riyaziyyatının inkişaf perspektivlərindən danışmış, Azərbaycan SSR EA prezidentinin müavini, akademik Z.Xəlilov Azərbaycanda riyazi elmlərin

inkişafı haqqında, texnika elmləri namizədi S.Ələsgərov hesablama texniki vasitələrinin tətbiqi sahəsində Azərbaycan SSR EA hesablama mərkəzi tərəfindən aparılan elmi-tədqiqat işlərinin nəticələri barədə məruzə etmişlər. Ümumi iclaslarda və bölmə iclaslarında hesablama riyaziyyatı və texnikası məsələlərinə dair 80 məruzə (o cümlədən, Özbəkistan alimlərinin 3 məruzəsi dinlənilib müzakirə edilmişdir [14, v.19].

1958-ci ildə petroqrafların Daşkənd şəhərində II Ümumittifaq görüşü keçirildi. Təşkilat komitəsinin üzvü, Azərbaycan SSR EA-nın akademiki, geologiya- minerologiya elmləri doktoru, professor M.S.Qaşqay görüş zamanı "Azərbaycanın maqmatizmi və metallogeniyası" mövzusunda məruzə etmişdi [15, s.44].

1959-cu ildə Daşkənd şəhərində Orta Asiyanın Rusiyaya birləşməsiylə əlaqədar elmi sessiya keçirilmişdir. Elmi sessiyaya dəvət olunmuş görkəmli alim akademik Ə.S.Sumbatzadə və Azərbaycan SSR EA Tarix İnstitutunun bir qrup əməkdaşı maraqlı mövzularla məruzə etmişlər [16, v.119].

Yenə həmin ildə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunun elmi katibi A.K.Ələsgərov Daşkənddə keçirilən "Pambığın qiyməti və onun maya dəyəri" mövzusundakı tənzimedici müşavirədə iştirak etmişdir [16, v.51].

1959-cu ilin iyununda Özbəkistanın Səmərqənd şəhərində frazeoloji lüğətlərin tərtibi məsələlərinə həsr edilmiş elmi müşavirədə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əməkdaşı H.Bayramov "Azərbaycan dilinin frazeologiyası və frazeoloji lüğətinin tərtibi" mövzusunda məruzə etmişdir [16, v.7].

XX əsrin 50-ci illərdə Azərbaycan-Özbəkistan elmi əlaqələrinin mühüm formalarından biri Özbəkistan problemlərinin elmi müstəvidə araşdırılması və özbək alimlərinin Bakıda dissertasiya müdafiə etmələri idi.

1956-cı ildə Azərbaycan Sənaye İnstitutunda gənc tədqiqatçı A.Əliyev görkəmli alim, akademik Ə.Əlizadənin rəhbərliyi altında "Neft axtarışı və tektonik depresiya (Fərqanə vadisinin nümunəsində)" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, geologiya-minerologiya elmləri namizədi elmi dərəcəsini almışdı [17].

1959-cu ilin fevralında Ə.Nəvai adına Özbəkistan Dövlət Universitetinin dosenti V.Abdullayev Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında "XVII-XVIII əsrlərdə Xarəzmdə özbək ədəbiyyatı" mövzusunda filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmişdir.V.Abdullayev bu əsəri böyük Azərbaycan şairi Məhəmməd Füzulinin vəfatının 400 illiyinə ithaf etmişdir. Dissertantın rəsmi opponentləri– Azərbaycan SSR EA-nın müxbir üzvü, professor H.Araslı, filoloji elmlər doktorları F.Qasımzadə, C.Hacıyev və Özbəkistan SSR EA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru V.Zahidov əsərə yüksək qiymət vermiş və Elmi Şura

yekdilliklə bu əsərə görə V.Abdullayevə filoloji elmlər doktoru adını verməyi qərara almışdır [18].

1959-cu ilin dekabrında gənc özbək alimi A.Əkrəmxocayev Azərbaycan SSR EA-nın İ.M.Qubkin adına Geologiya İnstitutunun Elmi Şurasında “Fərqanə depresiyasının təbaşir çöküntülərinin litologiyası” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Dissertasiyada Fərqanə depresiyasının təbaşir çöküntüləri tətbiqinin hərtərəfli səciyyəsi verilmiş və neftlilik-qazlılıq perspektivliyi əsaslandırılmışdır.

Keçən əsrin 50-ci illərdə elmi ezamiyyətlər də elmi əlaqələrin bir növü kimi öz əhəmiyyətini saxlayır və elmi yeniliklərin qarşılıqlı şəkildə ötürülməsində mühüm rol oynayırdı.

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun “Malyariya və tibbi parazitologiya” kafedrasının müdiri, professor M.R.Nəzirova 1954-cü il sentyabrın 16-dan 30-dək olan 15 gün müddətində Daşkənd şəhərində elmi ezamiyyətdə olmuş və elmi yeniliklərlə öz həmkarlarını tanış etmiş, fikir mübadiləsi aparmışdır[19, v.7].

Müharibədən sonra Azərbaycan-Özbəkistan elmi əlaqələrində elmi jurnal, elmi konfrans materialları və elmi kitabların mübadiləsi də mühüm rol oynayırdı.

Özbəkistan SSR EA-nın “Məruzələr”i, “Xəbərlər”inin tibbi, texniki elmlər, fizika-riyaziyyat, kimya, filologiya, biologiya, ictimai elmlər seriyaları Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanasına göndərildiyi kimi, Azərbaycan SSR EA-nın həmin jurnalları da Özbəkistan SSR EA-nın Mərkəzi Elmi Kitabxanasına və onun Qaraqalpaq MSSR-dəki filialının Elmi Kitabxanasına göndərilirdi[20].

1957-ci ildə Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası Özbəkistan SSR EA-nın Mərkəzi Elmi Kitabxanasına hədiyyə olaraq 13 adda 50 nüsxədən çox kitab göndərmişdi. Həmin kitabların siyahısına “Koroğlu”, “Xaqani. Seçilmiş əsərləri”, “Molla Nəsrəddin lətifələri”, “Xalq şairi Səməd Vurğun”, “Q.Qasımzadə. Azərbaycan ədəbiyyatında xalqlar dostluğu”, “Abbas Səhhət (həyat və yaradıcılığı)”, “Abdulla Şaiq (həyat və yaradıcılığı)”, “Kamran Məmmədov. Qasım bəy Zakir”, “Rusca-azərbaycanca lüğət”, “M.Ş.Şirəliyev. Bakı dialekti”, “Azərbaycan dilinin lüğət qrupu dialekt və şivələri” və Nizami adına Ədəbiyyat və Dil İnstitutunun “Əsərlər”inin V, VI, VII, VIII və IX cildləri daxil idi. Bu kitablar Azərbaycan SSR EA nəşriyyatında 1950-1957-ci illər arasında nəşr edilmişdi [21, v.160].

XX əsrin 50-ci illərində olduğu kimi, bu gün də Azərbaycan-Özbəkistan elmi əlaqələrinin inkişaf etdirilməsinə çox siddi ehtiyac var. Bu, iki qardaş ölkə arasında dostluq münasibətlərinin möhkəmlənməsi ilə bərabər, müstəqil dövlətlərin daha da güclənməsi naminə elmin nailiyyətlərinin iqtisadiyyata yönlən-

dirilməsini də genişləndirə bilər. Elmi əsaslar üzərində qurulan iqtisadiyyat isə daha dolğun, daha güclü nəticələr doğura bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan-Özbəkistan: Dostluğumuz daim yaşayır və möhkəmlənir. Bakı, Şərq-Qərb, 1996.
2. Kayumov S. Elm, pambıq məhsulunu üartırmağa kömək etmişdir. Kommunist, 1950, 7 iyul, № 135 (8347).
3. Али-заде А.А. Земля и землятрясения (популярный очерк). Ташкент, Изд-во АН Узбек.ССР, 1950. -88 с.
4. Али-заде А.А. Земля и землятрясения (популярный очерк). Ташкент, Изд-во АН Узбек.ССР, 1951. -95 с. (на узбек.яз.).
5. Azərbaycan MEA-nın Mərkəzi Elmi Arxivi, f.7, s.2, i.1514.
6. Həsən Əliyev. Biblioqrafiya. Bakı, Elm, 2007. - 128s.
7. Pambıqçılıq sahəsində işləyən alimlərin müşavirəsi. Kommunist, 1955, 14 yanvar, № 11 (9736).
8. Azərbaycan MEA-nın Mərkəzi Elmi Arxivi, f.7, s.3, i.4089.
9. Türk dilləri dialektologiyası məsələlərinə həsr olunmuş müşavirə. Kommunist, 1956, 14 dekabr, № 289 (10322).
10. Həmid Araslı.Biblioqrafiya. Bakı, Elm, 2009. 340 s.
11. Azərbaycan MEA Mərkəzi Elmi Arxivi , f. 7, s.2, i. 4505.
12. М.А.Кашкай. Библиография. Баку, Изд- во АН Азерб.ССР, 1967. - 162 с.
13. Orta əsr tarixçisinin kitabı. Bakı, 1958, 31 yanvar, № 19.
14. Azərbaycan MEA Mərkəzi Elmi Arxivi, f. 7, s.2, i.4520.
15. Академик М.С.Кашкай. Магматизм и металлогения Азербайджана. Материалы к второму Всесоюзному совещанию. Ташкент, Изд- во АН Узб. ССР, 1958. (Совместно с Р.Н. Абдуллаевым, Ш. А. Азизбековым, М.А. Мустафабейли, Э.Ш. Шыхалибейли).
16. Azərbaycan MEA Mərkəzi Elmi Arxivi, f.7, s.2, i.4540.
17. Ələşrəf Əlizadə. Biblioqrafiya. Bakı, “ Nafta-Pres” nəş-tı, 2011, 202 s.
18. Özbək alimi Bakıda dissertasiya müdafiə etmişdir. Bakı, 1959, 26 fevral, № 48 (347).
19. Ə. Əliyev adına ADHTİ-nin Arxivi, f.1, s.1, i. 31.
20. Azərbaycan MEA-nın Mərkəzi Elmi Kitabxanasının cari Arxivi.
21. Azərbaycan MEA-nın Mərkəzi Elmi Arxivi, f.7, s.2, i. 4505.

# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ MUSİQİNİN İNKİŞAFI TARİXİNDƏN
(XIX- XX əsrin əvvəlləri)

***Rəna Baxışova***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

***Açar sözlər:*** *Qarabağ, Şuşa, musiqi, mədəniyyət, muğam, opera*

Azərbaycanın musiqi mədəniyyətində aşıq sənəti və muğam mühüm yer tutur. Bu mədəniyyətin inkişafında və ölkəmizin hüdudlarından kənarda yayılmasında Qarabağın musiqi məktəblərinin və musiqi məclislərinin böyük xidməti olmuşdur. Bunun nəticəsidir ki, Qafqazın musiqi beşiyi sayılan Qarabağ bölgəsi, eləcə də "Qafqazın konservatoriyası" adlandırılan Şuşa şəhəri XIX əsrin sonlarında musiqi mərkəzinə çevrilmişdi.

## ОБ ИСТОРИИ РАЗВИТИЯ МУЗЫКИ В КАРАБАХСКОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНА
(XIX - начало XX вв)

***Рена Бахышова***

***Ключевые слова:*** *Карабах, Шуша, музыка, культура, мугам, опера*

Мугам и ашукское искусство имеют важную в роль в музыкальной культуре Северного Азербайджана. Развитие этой культуры и ее расширение за границы страны, в основном, заслуги музыкальных школ и мероприятий Карабаха. В результате этого, Карабахский регион, считавшийся родиной музыки на Кавказе, и "Консерватория Кавказа" -- город Шуша превратились в центр музыки в конце XIX века.

## FROM HISTORY OF DEVELOPMENT OF MUSIC IN QARABAGH REGION OF AZERBAIJAN
(19-early 20 centuries)

***Rana Bakhishova***

**Keywords:** *Qarabagh, Shusha, music, mugham, cultura, opera*

Ashig art and mugham are of great importance in music culture of Azerbaijan. Music schools and music gatherings of Karabakh made great contributions in development of this culture and its extension over the borders of the country. This is why the region of Karabakh which is considered to be the cradle of music in the Caucasus, as well as the city of Shusha which is called "Conservatory of the Caucasus", turned into the center of music by late 19th centuries.

Hər bir xalqın formalaşması və inkişafında milli-mədəni dəyərlərin rolu böyükdur. Azərbaycanın musiqi mədəniyyətində aşıq sənəti və muğam mühüm yer tutur. Musiqi mədəniyyətimızdə XV-XVI əsrlərdən etibarən kök salmağa başlayan aşıq ənənələri XVI-XVII əsrlərdə dərviş-aşiqlərin sitayiş (ideoloji) funksiyasına xidmət etsə də, XIX əsrdə bədii-estetik xarakter aldı.

Qarabağın musiqi mədəniyyəti də qədimliyi və özünəməxsusluğu ilə musiqi tariximizdə seçilir. Ən mürəkkəb formalı şeirlərin bədahətən deyilməsinə görə ad qazanan Qarabağ aşıq mühiti Aşıq Valehin dövründə aşıq musiqisi ifaçılığı sahəsində artıq öz "çiçəklənən" dövrünə qədəm qoymuşdu.

Qarabağın aşıq mühiti coğrafı baxımdan Göycə məktəbinə aid edilsə də, XVI əsrin sonu XVII əsrdən başlayaraq aşıq Qurbaninin Təbriz aşıq ənənələrini Qarabağ mühitinə gətirmişdir. Lakin Qurbaninin Təbriz məktəbindən gətirdiyi ənənələr olduğu kimi qəbul edilmədi. Çünki, Qarabağın aşıq mühiti təriqət axarında yaranmışdı və aşıqlığın təkkə ocağına söykənən qanadına daxil idi [1, s. 265]. "Qurbani" dastanının rəmzi-ürfani səciyyə daşıması, Abdal-Gülablı Valeh yaradıcılığında təsəvvüf simvolikasının qabarıq yer alması mühitin tarixi mənzərəsindəki təkkə-təriqətin əhatəsi ilə birbaşa bağlıdır[2, s.341]. Bu baxımdan, Aşıq Valeh, Aşıq Sarı, Aşıq Qurbani, Lələ kimi ustad sənətkarların üslubu fərdi yaradıcılıq istiqamətini formalaşdıraraq XVIII əsrdə Qarabağ aşıq sənətini yeni mərhələyə yüksəltdi [3, s.252]. Aşıq sənətinin XVI-XVIII əsrlər üçün daha bir xarakterik cəhəti ondan ibarət idi ki, bu sənət şəhər və hətta saray mühitində geniş yayılmışdı[4, s.14-15].

Göyçə-Kəlbəcər-Tərtər-Bərdə-Beyləqan-Ağcabədi xətti boyundakı tarixi axar və coğrafi mövqe Göyçə və Qarabağ aşıq mühitləri arasında oxşar ifaçılıq, repertuar və saz-balaban müştərəkliyinə səbəb olmuşdu[2, s.342]. Dastançılığın və söz yaradıcılığının güclü olduğu bu mühitdə saz bəstəçiliyi də müəyyən yer almışdı: "Qarabağ dübeyti", "Qarabağ qaytağı", "Qarabağ qaytarması", Qurbaninin "Divani"ləri Valehin "Ayaq Sarıtel", "Orta Sarıtel", "Baş Sarıtel" saz havaları bunu söyləməyə əsas verir. Lakin digər bölgələrin aşıqları solo çıxışa üstünlük verdikləri halda, Tovuz, Gəncə-Şəmkir, Qarabağ sənətkarları həm təklikdə, həm cüt, həm də balabançı ilə məclis keçirirdilər[5, s.28].

Bu mühitin diqqətçəkən başqa bir cəhəti də XIX əsrdən burada qadın aşıq sənətkarlığının yayılmasıdır. Bu ənənə XVIII əsrin sonu - XIX əsrin əvvələrində Şirvan məktəbində yaransa da, öz mükəmməl yüksəlişini Qarabağ

muhitində göstərdi. Qadın aşıqların ilk nümayəndələrindən biri - Ağabəyim ağa aşıq məktəblərində qadın aşıq poeziyasının meydana gəlməsinə və inkişaf etməsinə təsir gostərmişdi. Qadın aşıq poeziyası ənənələrinin kamil yüksəliş yolu yenə Qarabağ aşıq mühitində - Aşıq Pərinin fəaliyyəti nəticəsində başlamışdı. O, təkcə Qarabağ muhitində deyil, ümumiyyətlə, Azərbaycan aşıq şerində qadın yaradıcılığı ənənəsinin genişlənməsinə səbəb olmuşdu [3, s.255-257].

Regionda muğam-qəzəl üslubunun güclənməsi ilə zəifləməyə başlayan Qarabağ aşıq mühiti XX yüzillikdə Göyçə-Kəlbəcər xəttindəki Tərtər və Beyləqanda, eləcə də Abdal-Gülablı Valeh ocağında onun kötükcəsi Aşıq Xaspolad tərəfindən sənət ənənəsi kimi qorunub saxlanmışdı [2, s.343].

Gürcü, erməni, Dağıstan aşıqları da Azərbaycan aşıq yaradıcılığından bəhrələnmişlər. Qeyd edilən yüzilliklərdə Azərbaycan dilində şeir qoşan yalnız erməni aşıqlarının sayının 400-dən çox olduğu göstərilir. Bu aşıqları ancaq "...erməni ailəsində doğulduqları üçün, erməni adlandırmaq mümkündür" [2, s.21].

N.Nikifirov aşıq sənətinin ermənilər arasında geniş yayıldığını və erməni aşıqlarının öz nəğmələrini əsasən, Azərbaycan dilində yazıb, oxuduqlarını qeyd edir [1, s.310]. Azərbaycan aşıq sənətinin çox geniş yayılması, hətta qonşu xalqların yaradıcılığına təsir etməsi Azərbaycan dilinin o dövrdə Qafqazda və Yaxın Şərqdəki tarixi rolunu bir daha təsdiq edir. Həmçinin, erməni aşıqlarının aşıq sənəti ilə Azərbaycan dilində məşğul olmaları o dövrdə Azərbaycan dilinin zənginliyinin təsdiqi və göstəricisidir.

Şərqşünas S.Zelinski xoylu Vartanın Azərbaycan dilində yazdığı "Vücud-namə"sinə istinadən tatarların (Azərbaycan türklərinin - R.B. ) ermənilərin həyat tərzində, eləcə də mənəvi həyatında, dilində dəyişikliklərə səbəb olduğunu, bəzi yerlərdə erməni əhalinin ana dilini unudaraq, tatar dilində danışdığını, aşıq musiqilərini bu dildə ifa etdiyini, tatar musiqisinə qulaq asdığını, bunun nəticəsində erməni anaların öz uşaqlarına laylanı tatar dilində oxuduğunu, ictimai yığıncaqlarda lətifələrin, nağılların və zərbi-məsəllərin də bu dildə danışıldığını göstərir. Həmçinin, o, qeyd edir ki, bu musiqilər avropalıların marağına səbəb olduğu üçün, Şərqin mənəvi həyatı ilə tanışlıq baxımından zəngin materiallardır [6, s.99-100].

Zelinskinin fikirlərinə gəldikdə, xoylu Vartanın erməni olması haqda tarixdə heç bir məlumat yoxdur. Eləcə də, Zelinskinin yazdıqlarından belə nəticəyə gəlirik ki, onun səyahət etdiyi ərazilərin erməni kəndləri olduğu belə, fikrimizcə, həqiqətə uyğun deyil.

Azərbaycan xalqının milli, mədəni və mənəvi sərvəti olan şifahi xalq ədəbiyyatının və aşıq yaradıcılığının toplanıb nəşr edilməsində görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərlinin (1853-1920) də təqdirəlayiq xidmətləri olmuşdur [7, s.183]. O, Azərbaycan musiqisinin korifeylərindən olan Ü.Hacı-

bəyli yaradıcılığının tarixi köklərini, inkişaf yolunu, aşıq dəstələrinin tərkibini, aşıq musiqi formalarının araşdırılmasını ilk olaraq əsaslı təsnifatlandırmış və bu tədqiqatlar musiqi elmində aşıqşünaslığın inkişafına təkan vermişdir.

Milli musiqinin inkişafında ifaçılıq sənəti, xüsusilə də, vokal ifaçılığı və xanəndəlik xüsusi yer tutur. Milli xanəndəlik sənətinin formalaşmasında əsrin ikinci yarısından başlayaraq Şuşada yaradılan musiqi məktəblərinin böyük rolu olmuşdur. Şuşada belə məktəblərdən biri XIX əsrin tanınmış musiqişünası, Şərq muğamlarının kamil bilicisi, şair Xarrat Qulu Məhəmməd oğlu Yusifinin (1823-1883) musiqi məktəbi idi. Klassik Şərq musiqisinin kamil bilicisi, eləcə də şer yazan Xarrat Qulu məclisə gözəl səsi olan gəncləri cəlb edərək məhərrəmlik təziyəsini keçirmək üçün onlara muğamatı və oxumaq qaydalarını öyrədirdi. Lakin o, din xadimlərinin təsiri altında olduğuna görə, xalq məclislərində çıxış etmirdi [8, s.18]. Xarrat Qulunun öz şagirdlərini dini mərasimlərdə çıxış etməyə sövq etdirməsinə baxmayaraq, onlara Şərq musiqisinin əsaslarını, muğamları, Azərbaycan xalq nəğmələrini də öyrədirdi. “Kərbəlayı Qulunun sənəti xarratlıq idi. Çox dəqiq və əhlizövq, şirinkəlam bir şəxs idi ki, cümlə Şuşa əhli onu əziz və mehriban tutardı. Öz sənətində artıq məharəti olduğu kimi, elmi-musiqidə dəxi baxəbər idi və Qarabağın məşhur xanəndələri onun dəstpərvərdələridir” [9, s.130].

Firudin bəy Köçərlinin bu bu dəyərləndirməsi onun dövrünün mahir və sevilən sənətkar olduğunu bir daha vurğulayır. Bu baxımdan, qeyd etmək lazımdır ki, Xarrat Qulunun musiqi məktəbi dinə xidmət məqsədi güdsə də, Azərbaycanda vokal və çalğı musiqisinin inkişafında mühüm rol oynamış, bir sıra ustad sənətkarların yetişməsinə səbəb olmuşdur. Xarrat Qulunun şagirdləri sırasında Hacı Hüsü, Dəli İsmayıl, Şahnaz Abbas, Bülbülcan, Keçəçi oğlu Məmməd, Cabbar Qaryağdı, tarzən Sadıqcan da var idi [8, s.18]. Bu məktəbin yetirmələri nəinki Qarabağın, bütövlükdə Azərbaycanın musiqi tarixində novatorluqları ilə məşhurlaşmışlar. Belə ki, Y.V.Çəmənzəminlinin təbirincə desək, Hacı Hüsü muğamın ifasında yeni dövr açmışdır.A.Əliverdibəyovun təbirincə isə, “Hacı Hüsünün binəzir ifa etdiyi dəstgahlardan “Mahur” və “Şüştər” şayani-diqqətdir. Bu məclisin yetirməsi olan XIX əsrin böyük tar ustadı Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan, 1846-1902) tarı rekonstruksiya etmiş və müasir tarın yaradıcısı kimi tarixə düşmüşdür. Sadıq tarın pərdələrini kəsmiş, beş telli tarı on bir telli tara çevirmiş, ilk olaraq tarı sinə üstə çalmağı kəşf etmişdir [8, s.17, 172, 174].

1883-cu ildə Xarrat Qulu vəfat etdikdən sonra, o vaxtlar Şuşada dini işlərə nəzarət edən “Kor Xəlifə” ləqəbi ilə tanınmış Molla Əli Molla Kəlbəli oğlu dini xarakterli musiqi məktəbi yaradır. Məktəbdə dini elmlər geniş tədris olunmaqla yanaşı, həm də dinləyicilərə Şərq şairləri və mütəfəkkirlərinin əsərləri, klassik muğamlar, onların ifa qaydaları, xanəndəlik sənətinin incəlikləri, musiqi nəzəriyyəsi və təcrübəsi, tar, kamanca və digər musiqi

alətlərində ifa etmək də öyrədilirdi. Məktəbin şagirdləri kamil musiqişunas kimi formalaşır, ədəbiyyatçı kimi yetişirdilər. Həmçinin, klassik musiqi əhali arasında geniş təbliğ olunurdu. Təhsil alan gənclər xalq və şəbih tamaşalarında fəal iştirak edir, xüsusilə, məhərrəmlik ayında tədbirlərin təsirli keçməsinə çalışırdılar. 1893-cü ildə Molla Əli vəfat etdikdən sonra məktəb sahibsiz qalmış və qısa müddətdən sonra bağlanmışdır[10, s.138].Şuşanın Cənubi Qafqazın musiqi mərkəzinə çevrilməsində, vokal sənətinin və çalğı musiqisinin inkişafında xüsusi rol oynamış, milli musiqi tariximizə onlarla musiqi xadimi bəxş etmiş bu məktəb nəinki Qarabağda, eləcə də qonşu vilayətlərdə də tanınmışdı.

Xarrat Qulu vəfatından sonra Kor Xəlifənin məktəbi bu boşluğu doldurmağa nail olsa da, sırf sənətkarlığı inkişaf etdirə bilən bir təsisata ehtiyac duyulurdu. XIX əsrin 80-ci illərində musiqişünas-alim Mir Möhsün Nəvvab məşhur xanəndə Hacı Hüsü ilə birgə musiqinin estetik problemləri, ifaçılıq, muğam sənəti müzakirə olunduğu “Musiqiçilər məclisi” təsis etdi. Məşədi Cəmil Əmirov, İ.Abdullayev, S.Şuşinski, Sadıqcan kimi məşhur xanəndə və sazəndələrin daxil olduğu məclisin əsas məqsədi xanəndəliyi xalq arasında geniş yaymaq və daha da inkişaf etdirmək idi. Bəzən “Xanəndələr ittifaqı” adlandırılan bu məclis uzun illər Şuşada musiqi məktəbi rolunu da oynamışdı. Xanəndələr nəslinin yetişməsinə təkan vermiş məclisdə mütəmadi olaraq musiqi, muğam müsabiqələri keçirilir, gənc istedadlar üzə çıxarılırdı [11, s.137]. M.M.Nəvvabın Şuşada yaratdığı “Musiqiçilər” məclisi yalnız Şuşada deyil, bütün Azərbaycanın mədəni inkişafında əhəmiyyətli rol oynamışdı.

Belə məktəblərdən biri də XIX əsrin sonlarında yaradılmış, təlimin fars dilində olduğu Molla İbrahimin musiqi məktəbi idi. Məktəbə gələcəkdə məhərrəmlik təziyələrində kişi və qadın rollarını ifa etmək üçün yüksək səs tembrinə malik 10-12 yaşlarında gözəl səsi, poeziyaya həvəsi olan istedadlı oğlan uşaqları cəlb olunurdu. Məktəbdə klassik muğam dəstgahları, onların nəzəriyyəsi, quruluşu, tərkibi, ifası, həmçinin ərəb, fars, türk dilləri, dini mərasimlər, şəbihgərdanlıq tədris olunur, şagirdlərə Nizami Gəncəvi, Hafiz, Sədi Şirazi, Ömər Xəyyam, Məhəmməd Füzuli, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Ələsgər Növrəs, Abdulla bəy Asi, Məşədi Əyyub Bakı, Tofiq Fikrət kimi şərq şairlərinin qəzəlləri öyrədilirdi.

XX əsrin əvvəllərindən başlayaraq Şuşadakı musiqi məclislərində və məktəblərində formalaşan xanəndələr dünyanın bir çox ölkələrində tanınmış, xalq mahnılarımızın və muğamlarımızın Azərbaycandan kənarda da tanınması sahəsində əvəzsiz xidmətlər gostərmişlər. Bu baxımdan, Azərbaycanda ilk olaraq Şuşada 1901-ci ildə “Şərq konserti” keçirilmişdir. Azərbaycanda ilk “Şərq konserti”nin təşkilatçısı Ə.Haqverdiyev olmuşdur [12, s.175].

Ümumiyyətlə, milli musiqimizin formalaşması baxımından zəngin təbii imkanlara malik olan Şuşa şəhəri mənəvi dünyamıza böyük sənətkarlar bəxş

etmiş, muğam sənətinin inkişafında müstəsna rol oynamışdır. Azərbaycan mədəniyyətini mənimsəməklə musiqimizi, incəsənətimizi özününkiləşdirməyə çalışan mənfur qonşularımızın elmi səviyyədə özləri-özlərini təkzib etməsi isə daha maraqlıdır: erməni musiqişünası V.D.Korqanov yazmışdır ki, "Cənubi Qafqaza musiqi xadimlərini, çalğıçı və xanəndələri, şer, musiqi və mahnıları onların füsunkar vətəni olan Şuşa verirdi. Bütün Cənubi Qafqaz üçün bir konservatoriya rolunu oynayan bu şəhərdən hər mövsümdə, hətta hər ay Cənubi Qafqaza yeni mahnılar, yeni motivlər gəlirdi" [13, s.28].

V.Vinoqradov da: "Şuşa musiqi istedadlarının beşiyi idi. Bu füsunkar təbiətli yerin xoşavazlı xanəndələri Cənubi Qafqazdan kənarlarda da şöhrət qazanmışdı. "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa ölkələrində təmsil etmişlər" deyərək, tarixi gerçəkliyə bir daha işıq tutmuşdur [14, s.9].

XX əsrin əvvəllərində ictimai-siyasi və mədəni yüksəliş şəraitində müasir Azərbaycan professional musiqi mədəniyyətinin əsasını qoyan Üzeyir Hacıbəyovun Azərbaycan musiqisinin beynəlmiləl əhəmiyyət kəsb edərək yeni pilləyə qalxmasında böyük rolu olmuşdur.1908-ci ildə Ü.Hacıbəyov H.Z.Tağıyevin teatrında tamaşaya hazırladığı "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində bu sənətin əsasını qoyaraq, muğam-opera janrının yaradıcısı oldu. Azərbaycan dinləyicisi üçün yeni janrın qavranılmasında çətinlik olacağını dərk edən Ü. Hacıbəyov Füzulinin "Leyli və Məcnun" poemasına və xalq musiqi janrlarına (muğam, mahnı, rəqs) müraciət etmişdir [15, s.150]. O, "Avropa musiqisindən əlavə bir də Şərq musiqisi vardır və biz azərbaycanlılar-özümüz Şərq əhlindən olduğumuza görə, musiqi təhsili işində Şərq musiqisinə qarşı laqeyd qalarsaq, öz mədəni vəzifəmizi kamalınca ifa etməmiş olarıq..." [16, s.126] düşüncəsiylə dövrün əhval-ruhiyyəsi, xalqın mənəvi tələbləri ilə səsləşən səhnə əsəri yaratmışdır. Operanın yaranması ilə Azərbaycan musiqisində Şərqin ənənəvi professional musiqi sənəti ilə Avropanın professional musiqi yaradıcılığının sintezi baş tutmuş və bu qovuşuq zəminində tamamilə yeni bir üslub yaranmışdır. Bu da, Şərq və Qərb mədəniyyətlərinin fəal, qarşılıqlı təsirinə səbəb olmuşdu.

Bəstəkarın ilk musiqi əsəri "Leyli və Məcnun" operası musiqi tarixində əvvəlinci muğam operası olaraq inqilabdan əvvəlki "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşid Banu", "Əsli və Kərəm", "Harun və Leyla", "Şah İsmayıl", "Aşıq Qərib" kimi muğam operalarının üslubunu müəyyənləşdirmişdi.Ü. Hacıbəyovun 1910-cu ildə yazdığı "Ər və arvad", 1911-də "O olmasın, bu olsun», 1913-də "Arşın mal alan" kimi sosial məişət mövzulu musiqili komediyaları bəstəkar-xalq mahnıları və rəqs musiqisinə əsaslanmışdır.

Fikrət Əmirovun fikrincə: "bu, tarixən qanunauyğun bir hadisə idi: Azərbaycan musiqi sənəti üçün yeni olan muğam operası möhkəm kök salmış

milli musiqi ənənələri, yaradıcılığı və ifaçılığı əsasında meydana çıxdı" [17, s.42]. Ü.Hacıbəyovun şah əsəri "Koroğlu" operası rus və Avropa epik operasının klassik nümunələrinin ənənələrini layiqincə davam etdirən, xalqın folklor ruhu ilə aşılanan musiqi sənətimizin yüksək nailiyyətlərindəndir.

Ü.Hacıbəyov həm də Azərbaycanda ilk professional qəhrəmanlıq və vətənpərvərlik mövzusunda yazılmış mahnıların müəllifidir. Onun bu mövzuda yazdığı ilk mahnı "Qızıl əsgər" marşıdır.

Müasir Azərbaycan musiqişünaslığının əsasını qoyan da Ü.Hacıbəyov olmuşdur. O, uzun illər boyu xalq musiqisinin üzərində elmi tədqiqatlar aparmış, milli musiqinin müxtəlif problemlərinə həsr olunmuş "Azərbaycanda musiqinin inkişafı", "Azərbaycan musiqi həyatına bir nəzər", "Azərbaycan türk xalq musiqisi haqqında", "Şərq musiqisi və Qərb musiqi alətləri", "Musiqidə xəiqilik" məqalələrində, məruzə və çıxışlarında Azərbaycan musiqi dilinin lad, melodiya, metroritm, səs sistemi, çoxsəslilik, vokal sənəti ilə bağlı problemlərini irəli sürmüş və həllinə nail olmuşdur. Onun elmi axtarışları "Azərbaycan xalq musiqisinin əsasları" adlı fundamental əsərdə tamamlanmışdır [18, s.133].

İfaçılıq sənəti tarixən inkişaf etmiş, XIX əsrin ikinci yarısından başlayaraq keçirilən musiqi məclisləri xanəndəliklə yanaşı, sazəndəlik sənətini də yeni inkişaf mərhələsinə qaldırmış və bir çox məşhur ifaçıların yetişməsinə səbəb olmuşdur.

Əgər aşıq sənəti öz ədəbi qidasını zəngin xalq şerindən alırdısa, xanəndə sənətinin ədəbi mənbəyi klassik Azərbaycan şeri, xüsusilə qəzəl idi. Məşhur Azərbaycan musiqiçiləri Cabbar Qaryağdı oğlu, Bülbül və Saşa Oqanezaşvilinin əlyazmalarından məlum olur ki, XIX əsrin birinci yarısında xanəndələr tar, kamança və yastıbalabanın müşayiəti ilə oxuyurdular. Xanəndə və çalğıçılara o zaman "sazəndə dəstəsi" deyilirdi. Bütün xalq şənliklərinə sazəndə dəstəsi dəvət olunurdı. XIX əsrin ikinci yarısında sazəndə dəstəsi - xanəndə, tarzən, kamança və qoşanağara ifaçısı olaraq dörd nəfərdən, XX əsrin əvvəllərindən isə əsasən üç nəfərdən - xanəndədən, tarzəndən və kamança ifaçısından ibarət olmuşdur. O dövrdə təkcə Şuşada 70-ə qədər sazəndə fəaliyyət göstərirdi.

Bir fakt da nəzərdən qaçırılmamalıdır ki, XIX əsrin axırları - XX əsrin əvvəllərində Azərbaycan ərazisində kamança və tar ifaçıları arasında mənfur qonşumuzun nümayəndələri də olmuşlar. Ermənilər sazəndə dəstəsinin tərkibində müxtəlif el şənliklərində çıxışlar edirdilər. Elə buna görə də onlar Azərbaycan muğamlarının instrumental variantını mənimsəyərək, bu baza üzərində sonralar özlərinin instrumental muğam məktəblərini yaratmışlar.

XIX – XX əsrin əvvəllərində Qarabağın musiqi mədəniyyətinin təhlili göstərir ki, bu bütövlükdə Azərbaycan mədəniyyətinin, musiqi sənətinin inkişafında xüsusi bir mərhələdir. XIX əsrin II yarısında və XX əsrin əvvəllərində Qarabağ muğam məktəbi yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur.

Qarabağın musiqi məclisləri xalq musiqisinin inkişafına səbəb olmuş, milli musiqimiz məclis, toy və şənlik kimi məhdud çərçivədən çıxaraq, teatr və konsert kimi ictimai məkanlara yol tapmışdır. Bunun nəticəsidir ki, Şuşa şəhəri XIX əsrin sonunda musiqi mərkəzinə çevrilmişdi.

Bu məktəbin yetirmələri nəinki Qarabağın, bütövlükdə Azərbaycanın musiqi tarixində novatorluqları ilə fərqlənmişlər: Hacı Hüsünün muğam ifasında yeni dövr açması, Sadıqcanın tarı rekonstruksiya etməsi, Ü.Hacıbəyovun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqının mənəvi mədəniyyətinin inkişafında böyük rol oynamışdır.

Qarabağın, o cümlədən "Qafqazın konservatoriyası" adlandırılan Şuşanın xanəndə və xalq çalğı alətləri ifaçılarının şöhrəti vətənimizin hüdudlarını aşaraq, bütün Qafqaza yayılmışdı. Qarabağ musiqi məktəblərinin yetirmələrinin və professional xalq musiqiçilərinin xarici ölkələrə səfərləri mədəni əlaqələrin genişlənməsi və möhkəmlənməsində mühüm rol oynamışdı. Öz məlahətli səsləri və professional ifaları ilə seçilən Qarabağ xanəndələri, təkcə Qafqazın müxtəlif yerlərində deyil, Orta Asiya, İran və Türkiyədə də fəaliyyət göstərirdi.

## ƏDƏBİYYAT


1. Namazov Q.M. Ozan-aşıq sənətinin tarixi. Bakı: Elm və təhsil, 2013, 480 s.
2. Ozan aşıq yaradıcılığının inkişaf yolları. Bakı: Çaşıoğlu, 2013, 788 s.
3. Nəbiyev A.M. Azərbaycan aşıq məktəbləri, Bakı: "Nurlan", 2004, 312 s.
4. Azərbaycan aşıqları. Bakı: Golden Book, 2009, 126 s.
5. Məmmədov T.A. Azərbaycan aşıq yaradıcılığı: ali musiqi məktəbləri üçün dərslik. Bakı: "Apostrof' çap evi, 2011, 648 s.
6. Хойского Вартана, армянского народного певца (Записаль и перевель С. Зелинский) Сборник материалов для описания местностей и племен Кавказа /Издание Управления Кавказскаго Учебного Округа. Вып.2. Тифилис: Канцелярии Главноначальствующаго гражд. частию на Кавказ, 1862, отдел II, сс.99-106
7. Сборник материалов для описания местностей и племен Кавказа /Издание Управления Кавказскаго Учебного Округа.

Вып.42.Тифилис: Канцелярии НаместникаЕго Императорского Величества на Кавкази К.Козловскаго, 1910

8. Əliverdibəyov A.Ə. Rəsmli musiqi tarixi. Bakı: "Şuşa" nəşriyyatı, 2001, 232 s.
9. Köçərli F.B. Azərbaycan ədəbiyyatı tarixi, ikinci cild, Bakı: 1981
10. Zeynalov G.T. Şuşanın ifaçılıq məktəbləri /Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XX buraxılış, Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2010, 166 s., ss. 137-139
11. Məmmədova Z.M. Milli musiqi mədəniyyətimizin inkişafinda muğam məclislərinin rolu. / Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XIX buraxılış, Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2010, 198 s., ss. 149-152
12. Məmmədov N.R. Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə. Bakı: ADPU-nun mətbəəsi, 2005, 169+9 s.
13. Корганов В.Д. Кавказская музыка: сборник статей /*В. Д.Корганов*. 2-е изд. Тифлис: Скоропечатня М. Мартиросянца, 1908. 84 с.http://elib.shpl.ru/ru/nodes/23770-korganov-v-d-kavkazskaya-muzyka-sbornik-statey-tiflis-1908#page/1/mode/grid/zoom/1
14. Виноградов В.В. УзеирГаджибековиАзербайджанская музыка. М.: Музгиз, 1938, 77 с.
15. Hacıbəyli Ü. "Azərbaycanda musiqi tərəqqisi" məqaləsi. Əsərləri II cild. Bakı, 1965, s.203-204; Ələkbərov Ə. Üzeyir Hacıbəylinin məqalələrində tar sənəti // Konservatoriya. Bakı, 2010, № 4 (10) s. 125-130
16. Səfərova Z.Y. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: Azərnəşr, 2006, 544 s.
17. Əmirov F.C. Musiqi düşüncələri. Bakı: 1983, 141 s.
18. Şuşinski F.M. Azərbaycan xalq musiqiçiləri. Bakı: Yazıçı, 1985, 480 s.

# AZƏRBAYCAN-MDB MÜNASİBƏTLƏRİ

(Moldova, Gürcüstan, Ermənistan və Taçikstan dövlətləri kontekstində)

***Hüseyn Bəxtiyarov***
*Gəncə Dövlət Universiteti*

***Açar sözlər:*** *Azərbaycan, MDB, əməkdaşlıq, münasibət, beynəlxalq*

# ОТНОШЕНИЕ АЗЕРБАЙДЖАН-СНГ

(в контексте государствами Молдова, Грузия, Армения и Таджикистан)

***Гусейн Бахтияров***

***Ключевые слово:*** *Азербайджан, СНГ, сотрудничества,отношения, международные*

В статье исследуются связи Азербайджана в рамках с государствами СНГ- Молдова, Грузия Армения и Таджикистан.Отмечается, что отношения с этими государствами и занял важное место во внешней политике. Из этих связей с Арменией налажена.В создании и развитии отношений следует особо отметить деятельность Великого лидера Гейдара Алиева. Президент страны Ильхам Алиев успешно продолжает эту политику.

# AZERBAIJAN-CIS RELATIONS

(Moldova, Georgia, Armenia and Tajikistan in the context of the state)

***Huseyn Bakhtiyarov***

***Keywords:*** *Azerbaijan, CIS, cooperation, relations, international*

In the article the state of relations with Azerbaijan in the framework of the CIS Moldova, Georgia, Armenia and Tajikistan is being investigated. It is noted that this state has an important place in foreign policy and relations with. From these countries not establish relations with Armenia. It should be noted activity of the great Leader Heydar Aliyev in the establishment and development of relations.

Azərbaycanın Moldova dövləti ilə münasibətləri MDB çərçivəsində əməkdaşlıq baxımından mühüm əhəmiyyət daşıyır. Bu iki ölkə arasında diplomatik əlaqələr 1992-ci il mayın 18-də qurulub [1]. 1997-ci ilin noyabrınadək bu əlaqələr yalnız beynəlxalq və regional təşkilatlar çərçivəsində mümkün olub. Bu baxımdan, GUAM-ın yaradılmasında Moldovanın iştirakını xüsusi qeyd etmək olar. 1997-ci il noyabrın 26-27-də Moldova prezidenti P.Luçinskinin Azərbaycana səfərindən sonra münasibətlərimiz sistemli xarakter almağa başlayıb. Səfər çərçivəsində Azərbaycan və Moldova Respublikaları arasında "Dostluq və Əməkdaşlıq haqqında" müqavilə, bir neçə hökumətlər-arası saziş və digər hüquqi-normativ sənədlər imzalanmışdır [2, s.585].

2004-cü il oktyabrın 26-27-də Moldova dövlətinin prezidenti V.Voro-ninin Azərbaycana rəsmi səfəri də mühüm əhəmiyyət kəsb edir. Səfər zamanı 9 sənəd, o cümlədən "Azərbaycan Respublikası Prezidentinin və Moldova Respublikası Prezidentinin Birgə Bəyannaməsi" imzalanmışdır [2, s.586]

2005-ci il aprelin 21-də Azərbaycan Respublikasının prezidenti İ.Əliyevin Moldovaya rəsmi səfəri də qarşılıqlı münasibətlər baxımından zəngin olmuşdur. Səfər zamanı iki ölkə arasında daha 5 sənəd imzalanmışdır [2, s.586].

Qeyd etmək lazımdır ki, sonrakı illərdə əməkdaşlıq əlaqələri ayrı-ayrı təşkilatlar çərçivəsində davam etdirilmişdir. Ümumiyyətlə, 2006-2014-cü illərdə iki dövlət arasında münasibətlərdə əlaqələr qırılmamış, həm beynəlxalq, həm də regional təşkilatlar səviyyəsində inkişaf etdirilən əlaqələr Azərbaycan və Moldova xalqlarının daha sıx əməkdaşlığına hərtərəfli hüquqi baza yaratmışdır.

İkitərəfli münasibətlərdə Azərbaycan və Gürcüstan arasında əməkdaşlıq da ciddi əhəmiyyət daşıyır. İki dövlət arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də yaradılıb. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına stimul vermişdir.

Azərbaycan-Gürcüstan münasibətlərini iki mərhələyə bölmək olar: Birinci mərhələ-1991-ci ildən 1993-cü ilə qədər olan dövrü, ikinci mərhələ isə 1993-cü ildən sonrakı illəri əhatə edir. Zviad Qamsaxurdiyanın hakimiyyəti dövründə formalaşan gürcü millətçiliyi yerli azərbaycanlılara qarşı çevrildi.

1993-cü ildə ulu öndər Heydər Əliyevin və Eduard Şevardnadzenin hakimiyyətə gəlməsi Cənubi Qafqazda iki xalq arasında ziddiyyətlərin aradan qalxmasına kömək etdi. Azərbaycanla Gürcüstanı aşağıdakı siyasi xətlər birləşdirir: 1. Müstəqil dövlətin möhkəmlənməsi və beynəlxalq əlaqələrin genişlənməsi. 2. Qafqazda nisbi siyasi sabitliyin yaranması. 3. Transqafqaz və Transxəzər magistralının təhlükəsizliyinin təmin edilməsi. 4. Demokratik cəmiyyətin, hüquqi dövlətin qurulması [3].

Gürcüstan Respublikası regionda Azərbaycanın ən yaxın müttəfiqlərindən biridir. Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-

Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirmişdir. 1998-ci il sentyabrın 7-8-də keçirilmiş tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə Beynəlxalq Konfrans keçirildi. Həmin il oktyabrın 7-də Azərbaycanın Gürcüstanla sərhədində yeni körpünün açılışı oldu. 1999-cu il aprelin 17-də isə Bakı-Supsa neft kəmərini işə salındı. Ötən dövrdə hər iki ölkənin həyatında tarixi əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinin tikintisi sahəsində intensiv işlər aparılmışdır. Nəhayət, 2005-ci il mayın 24-25-də neft kəmərinin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin istifadəyə verilməsi mərasimi keçirilmişdir [4].

2012-ci ilin yekunlarına görə, Azərbaycan və Gürcüstan arasında qarşılıqlı ticarət dövriyyəsinin həcmi 1 milyard dollardan çox olmuşdur. Azərbaycan Gürcüstanda əsas investor və kreditor ölkələrdən biridir. Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkət Azərbaycan Dövlət Neft Şirkətidir [5]. Bu fikirlər onu təsdiq edir ki, Azərbaycan-Gürcüstan münasibətlərinin ikişafı bir çox ölkələr üçün nümunə ola bilər.

İki ölkə arasında iqtisadiyyatın digər sahələri ilə yanaşı aqrar-sənaye kompleksi istiqamətində də əməkdaşlıq əlaqələri inkişaf edir. 2011-ci ildə Gürcüstandan ölkəmizə 12754,9 min ABŞ dolları dəyərində bar gətirən ağaclar, kolluqlar, peyvənd edilmiş və edilməmiş tinglər, heyvan və bitki mənşəli piylər və yağlar, mandarin və digər sitrus meyvə məhsulları, kartof, tərəvəz bitkilərinin toxumu, ədviyyatlar və digər kənd təsərrüfatı məhsulları idxal edilmişdir. Ölkəmizdən Gürcüstana isə 17346,4 min ABŞ dolları dəyərində faraş meyvə-tərəvəz, bitki yağları, meyvə-tərəvəz konservləri, şəkər tozu, çay və digər aqrar istehsal məhsulları ixrac olunmuşdur. Azərbaycan Respublikası ilə Gürcüstan arasında aqrar elmi-tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcuddur. Belə ki, Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutu ilə Gürcüstan Elmi-Tədqiqat Bitki Mühafizəsi İnstitutu arasında Quraq Bölgələrdə Beynəlxalq Kənd Təsərrüfatı Tədqiqatları Mərkəzinin maliyyə dəstəyi ilə taxıl əkinlərində xəstəliklərin arealının müəyyənləşdirilməsi üzrə vaxtaşırı birgə ekspedisiyalar keçirilir. Azərbaycan Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun Gürcüstanın müvafiq elmi-tədqiqat institutu ilə əməkdaşlıq əlaqəsi davam etdirilir. İki ölkə arasında mütəmadi olaraq aqrar elmi tədqiqatların nəticələri barədə informasiya mübadiləsi aparılır [3].

Azərbaycanın qarşılıqlı münasibətlət çərçivəsində əməkdaşlığı sahəsində ciddi problemlər yaradan dövlət ErmənistanRespublikasıdır. Hələ dövlət müstəqilliyimizin bərpasınadək Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları başlamış, müstəqilliyimizin ilk illərində, artıq bu günədək geri qaytarılmayan torpaqlarımız işğal edilmişdi. 1992-ci il martın 24-də ATƏM-in Nazirlər

Şurasının Helsinkdə keçirilmiş görüşündə Minsk Qrupu yaradılmışdı. Minsk qrupunun tərkibinə Azərbaycan,Ermənistan, Rusiya Federasiyası,Amerika Birləşmiş Ştatları, Fransa, Polşa, Almaniya, Türkiyə, Belarus, Finlandiya və İsveç dövlətləri daxil idi. 1996-cı ilin dekabr ayında Rusiya, ABŞ və Fransa nümayəndələrindən ibarət həmsədrlər yaradıldı. Ümumiyyətlə, Minsk qrupunun əsas vəzifəsi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək idi. Münaqişənin həllinə dair qrup tərəfindən müxtəlif variantlar təklif edilsə də, Ermənistan dövlətinin dekonstruktiv siyasi xəttinə görə nəticə əldə olunmamışdır. Bütün bunlara görə Azərbaycan və Ermənistan dövlətləri arasında siyasi, iqtisadi və mədəni əlaqələr qurulmamış, dövrümüzdə də bu istiqamətdə real addımların atılması mümkün deyildir [6].

Ölkəmizin MDB çərçivəsində əməkdaşlığında Tacikistan Respublikası da mühüm yer tutur. İki ölkə arasında diplomatik münasibətlərin əsası 1992-ci il mayın 29-da qoyulmuşdur. Həmin dövrdən etibarən Azərbaycan-Tacikistan münasibətləri inkişaf etməyə başladı. Tacikistan 1996-1999-cu illərdə Ermənistan-Azərbaycan, Dağlıq münaqişəsinə dair aparılan danışıqlarda Azərbaycanın mövqeyini müdafiə etmiş və problemin diplomatik vasitələrlə həllinə səy göstərmişdir [7].

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2007-ci il martın 15-də Tacikstan Respublikasına ilk rəsmi səfərini etmişdir. Səfər gedişində iki ölkə arasında əməkdaşlığın müxtəlif istiqamətləri müzakirə edilmiş və dövlət başçıları münasibətlərin inkişafına mane olan halları aradan qaldıracaqlarını bəyan etmişlər. Həmin ilin avqustun 13-də Tacikistan Respublikasının prezidenti İmaməli Rəhmonun da ölkəmizə ilk rəsmi səfəri oldu. Səfər zamanı Tacikstan prezidenti bildirdi ki, iki dövlət arasında əməkdaşlıq uğurla inkişaf edir və bu istiqamətdə Azərbaycan prezidenti cənab İlham Əliyevin böyük xidmətləri vardır [8].

Azərbaycan-Tacikistan münasibətlərinin inkişafında qarşılıqlı olaraq səfirliklərin açılmasının böyük rolu olmuşdur. Belə ki, 2007-ci ilin avqustunda Azərbaycan Respublikasının Tacikistanda, 2008-ci ildə isə Tacikistan Respublikasının Azərbaycanda səfirliyi açılmışdır [6].

İki ölkə arasında iqtisadi əməkdaşlıq əlaqələri də geniş xarakter daşımışdır. Belə ki, 2011-ci ilin statistik məlumatına görə Azərbaycan və Tacikistan dövlətləri arasında ticarət dövriyyəsinin həcmi 15,99 mln dol. həcmində olmuşdur [9]. Qeyd edək ki, 2012-2014-cü illərdə bu göstərici daha da yüksəlmiş və bununla iki dövlət arasında iqtisadi əməkdaşlıq əlaqələri davamlı xarakter daşımışıdır.

Ümumiyyətlə, ölkəmizin qlobal təhlükəsizliyində MDB ilə əməkdaşlıq da böyük rol oynamışdır. Azərbaycanın MDB çərçivəsində əməkdaşlığı bütün istiqamətlər üzrə uğurla aparılmışdır. MDB dövlətləri arasında yalnız

Ermənistan Respublikası ilə əlaqələr qurulmadı və müqavilələr imzalanmadı. Ulu öndər Heydər Əliyev əvvəlki iqtidarlardan fərqli olaraq, ölkəmizin MDB-yə daxil olmasının təhlükəli olmadığını əsaslandırdı və tarixi inkişaf bunu tamamilə təsdiq etdi.

## ƏDƏBİYYAT

1. www.google.az. Moldova və Azərbaycan münasibətləri.
2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: 2005.
3. www.google.az. Azərbaycan-Gürcüstan münasibətlərinin mərhələləri.
4. www.google.az. Azərbaycan-Gürcüstan çoxtərəfli əməkdaşlığı.
5. www.google.az. Azərbaycan-Gürcüstan ticarət dövriyyəsi.
6. www.google.az. Azərbaycan-Ermənistan münasibətləri
7. www.google.az. Azərbaycan-Tacikstan diplomatik münasibətləri.
8. www.google.az. Azərbaycan-Türkmənistan münasibətlərində səfirliklərin rolu.
9. https://ru.wikipedia.org/wiki/ Азербайджан-Таджикстан.

# XX ƏSRİN SONUNDA ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏRAZİ İDDİALARI VƏ SOVET RƏHBƏRLİYİNİN QAFQAZ SİYASƏTİNDƏ QARABAĞ DÜYÜNÜ

***Müzəffər İsayev***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

***Açar sözlər:*** *Dağlıq Qarabağ, Azərbaycan, Ermənistan, Cənubi Qafqaz, ərazi iddiaları, Sovet rəhbərliyi, Moskva*

Məqalədə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının tarixi qısaca nəzərdən keçirilir. Göstərilir ki, ermənilərin məqsədi "Böyük Ermənistan" yaratmaqdan ibarətdir. XX əsrin sonunda ermənilərin bu iddiaları daha da genişlənmiş və Moskvadakı havadarlarının köməyi ilə Dağlıq Qarabağ və ətrafındakı rayonlar Ermənistan ordusu tərəfindən işğal olunmuşdur. Lakin Azərbaycan dövləti öz torpaqlarının geri qaytarılacağında israrlıdır.

# ТЕРРИТОРИАЛЬНЫЕ ПРИТЯЗАНИЯ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА И КАРАБАХСКИЙ УЗЕЛ СОВЕТСКОГО ПРАВИТЕЛЬСТВА В КАВКАЗСКОЙ ПОЛИТИКЕ В КОНЦЕ XX ВЕКА

***Музаффар Исае*в**

***Ключевые слова:*** *Нагорный Карабах, Азербайджан, Армения, Южный Кавказ, территориальные притязания, советское руководство, Москва*

В статье кратко рассказано об истории территориальных притязаний Армении против Азербайджана. Раскрыт замысел армян о создании Великой Армении. В конце 20 века эти притязания армян еще больше расширились и при помощи Московских покровителей армянская армия захватила Нагорный Карабах и близлежащие районы. Однако, Азербайджанское правительство настаивает на вопросе возвращения своих территорий.

# ARMENIA'S TERRITORIAL CLAIMS AGAINST AZERBAIJAN AND THE KARABAKH KNOT OF CAUCASUS POLICY OF THE SOVIET GOVERNMENT AT THE END OF THE TWENTIETH CENTURY

***Muzaffar İsayev***

***Keywords:*** *Nagorno-Karabakh, Azerbaijan, Armenia, South Caucasus, territorial claims, Soviet government, Moscow*

The history of the territorial claims of Armenia against Azerbaijan reviewed in the article. It is noted that the purpose of the Armenians is to create "Great Armenia". At the end of the twentieth century expanded the claims of Armenians. Nagorno-Karabakh and the surrounding regions was occupied by Armenian army with the help of patrons in Moscow. But the Azerbaijan government insists on the return of their native lands.

XX əsrin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları məsələsinin tarixinə qısa bir baxış.

Tarixi mənbələr göstərir ki, ermənilərin Azərbaycana qarşı ərazi iddialarının əsas məqsədi tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətini yaratmaq və sonradan onu müxtəlif yollarla genişləndirib "Böyük Ermənistan" yaratmaqdan ibarətdir.

Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının reallaşmasına çar Rusiyası havadarlıq edərək Azərbaycana və onun strateji cəhətdən böyük əhəmiyyətə malik olan Qarabağ bölgəsinə ermənilərin kütləvi köçürülməsinə rəvac vermişdir. Nəticədə Azərbaycanın Dağlıq Qarabağ hissəsində demoqrafik vəziyyət pozulmuş və bu ermənilərin gələcək ərazi iddialarının baş qaldırmasına səbəb olmuşdur.

Məlumdur ki, RK(b)P MK Qafqaz bürosu 1921-ci il 5 iyul tarixində N.Nərimanovun qızğın fəaliyyəti nəticəsində "Dağlıq Qarabağı Azərbaycan SSR-in hüdudlarında saxlamaq" haqqında qərar qəbul etdi. O vaxtdan Dağlıq Qarabağ deyilən məsələ aradan götürüldü və bu vəziyyət 1945-ci ilə kimi davam etdi.

1945-ci ilin noyabr ayında Ermənistan K(b)PMKÜYK(b)P MK-ya, Y.Stalinə maktubla müraciət etdi. Məktubda qondarma, əsassız və saxta dəlillər gətirərək Dağlıq Qarabağın guya 1923-cü ildən Azərbaycanın tərkibində olduğunu vurğulamışdır.

Əslində Dağlıq Qarabağ 1923-cü ilə qədər də Azərbaycanın tərkib hissəsi olmuşdur. 1921-ci il 5 iyul tarixli qərarla Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması təsdiqlənmiş və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin

dekreti ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır.

Məktubda Vilayətin əhalisinin əsasən ermənilərdən ibarət olmasını, Dağlıq Qarabağın kənd təsərrüfatının Ermənistanın dağlıq hissəsinə oxşar olmasını, kadr hazırlığında Dağlıq Qarabağın Ermənistanın köməyinə olan ehtiyacını, Dağlıq Qarabağ əhalisinin arzusunu, Qarabağın keçmiş mərkəzi dağılmış Şuşanın bərpası zərurətini nəzərə alaraq "Azərbaycan SSRİ Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ Vilayəti sifətilə Ermənistan SSRİ tərkibinə daxil etmək haqqında məsələyə baxmağı YJK(b)PMK və İttifaq hökümətinə təklif edilir".

YJK(b)P MK-sı Ermənistanın məktubunu baxılmaq üçün Azərbaycan K(b)PMK katibi M.C.Bağırova göndərir. M.C.Bağırovun göstərişi ilə Azərbaycanın 1918-ci il xəritəsi hazırlanır. Xəritə və M.C.Bağırovun müvafiq məktubu Stalinə göndərilir. M.C.Bağırov Dağlıq Qarabağın Şuşa istisna olmaqla Ermənistana verilməsinə etiraz etmir. Ancaq bunun əvəzində azərbaycanlıların qədimdən məskunlaşıb kip yaşadıqları Göyçə və Zəngəzur Ermənistanın tərkibində olan rayonlarının Azərbaycana birləşdirilməsini tələb edir. Məlumdur ki, Ermənistan rəhbərliyinin Dağlıq Qarabağı Ermənistanın tərkibinə daxil etmək haqqında təklifi qəti şəkildə rədd edilmişdir.

Akademik Tofiq Köçərli yazır ki, o zaman Azərbaycan K(b)PMK katibi işləmiş mərhum Həsən Həsənov vaxtilə onunla şəxsi söhbətində demişdir ki, Stalin Bağırovun cavab məktubu ilə tanış olduqdan sonra belə bir qısa dərkənar qoymuşdur:

Dəli-zad olmamısınız ki?

Arxivə.

Beləliklə, M.C.Bağırovun qətiyyətli və əsaslandırılmış alternativ təklifi Ermənistanın Dağlıq Qarabağ haqqında planlarını alt-üst etdi.

Sovet hakimiyyəti dövründə Dağlıq Qarabağ məsələsini bir neçə dəfə qaldıran erməni millətçiləri və onların havadarları öz məqsədlərinə nail olmayıb əlverişli tarixi məqam gözləməyə məcbur oldular.

Dağlıq Qarabağ məsələsi bir müddət səngidi. Lakin ermənilər 60-cı illərdə bu məsələni mərkəzdəki havadarlarının köməyi ilə yenidən ortaya atdılar. Amma erməni millətçiləri yenə də öz məqsədlərinə nail ola bilmədilər.

1964-cü ildə Mikoyan Dağlıq Qarabağın Ermənistana verilməsi təklifini yenidən irəli sürdü və Xruşşova bildirdi ki, əgər Dağlıq Qarabağ Ermənistana birləşdirilməsə, oradakı ermənilər Ermənistana köçəcəklər. Xruşşov isə əsəbiləşərək: "Mən Dağlıq Qarabağ ermənilərinin bir sutka ərzində Ermənistana köçürülməsi üçün 12 min hərb maşını verməyə hazıram" demişdi. Görünür o, bu məsələnin müsbət həllinin yaxşı nəticələr verməyəcəyini əvvəlcədən başa düşmüşdür.

Erməni millətçilərinin gözlədikləri əlverişli şərait 1985-ci ildə gəlib yetişdi. Həmin ildən Sovet imperiyasına başçılıq edən Sov.İKPMK-nın Baş

katibi M.S.Qorbaçov özü ilə yenidənqurma, "demokratiya" və aşkarlıq da gətirdi. Əslində Qorbaçovun məqsədi Sovet imperiyasını dağıtmaq idi. Kəsəyən toru söküb dağıtdığı kimi, Qorbaçov da yenidənqurma adı ilə Sovet imperiyasının strukturlarını söküb dağıdırdı. Hətta o zaman bəzi yaşlı adamlar Qorbaçovun yenidənqurmasına istehza ilə "yenidənqırma" deyirdilər.

Sonralar bunu Qorbaçov özü də etiraf etmiş və Türkiyənin Amerika Universitetindəki çıxışında demişdir: "Həyatımın məqsədi kommunizmi məhv etmək olub".

Erməni millətçiləri və onların xaricdə və mərkəzdə olan havadarları Qorbaçovun gətirdiyi yenidənqurma və aşkarlıqdan məharətlə istifadə etdilər.

Bu vaxta qədər erməni millətçiləri yalnız Türkiyədən ərazi iddiaları olduğunu bəyan edirdilər. 1985-ci ildən sonra onlar birləşmiş Ermənistan yaratmağı və Qarabağla Naxçıvanı Ermənistana birləşdirməyi strateji məqsəd elan etdilər.

Ermənistanın Mərkəzdəki havadarları və Ermənistan rəhbərləri "1988-1995-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında" qərar qəbul etmişdi. Həmin qərara əsasən Vilayətdə yaşayan erməni əhalisinin sosial-iqtisadi şəraitini yaxşılaşdırmaq üçün 400 milyon manat vəsait ayrılmışdı. Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, iqtisadi gerilik haqqında çığır-bağır salmaq "Böyük Ermənistan" yaratmaq xülyasında olan ermənilər üçün yalnız bəhanədir. Belə ki, 1988-ci ilin fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası vilayətin Azərbaycandan ayrılması və Ermənistana birləşdirilməsi haqqında qərar çıxarır. Qərarda deyilirdi: "Dağlıq Qarabağ erməni əhalisinin arzusunu nəzərə alaraq vilayətin növbədənkənar sessiyası DQMV-nın Azərbaycan SSRİ-in tərkibindən Ermənistan SSRİ-in tərkibinə keçməsi haqqında qərar qəbul edir. Eyni zamanda bu qərarı həyata keşirmək üçün SSRİ Ali Sovetinin qarşısında məsələ qaldırır".

Bu qərardan sonra ermənilər açıq təcavüzə başladılar və Ermənistanda yaşayan azərbaycanlılardan ibarət dinc əhali ən vəhşi üsullarla öz yerlərindən qovulmağa başlandı.

1988-ci il iyun ayının 15-də Ermənistan SSRİ Ali Sovetinin sessiyası Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSRİ-in tərkibinə birləşdirilməsi məsələsini müzakirə edib bəyənmiş, məsələnin SSRİ Ali Soveti qarşısında qaldırılması haqqında qərar qəbul edilmişdir. 1988-ci il iyulun 18-də SSRİ Ali Soveti "Dağlıq Qarabağ məsələsi"ni xüsusi iclasda müzakirə edir.

İclasda ermənilər məqsədlərinə nail olmadılar, lakin burada aydın oldu ki, Dağlıq Qarabağ vilayətində baş verən hadisələr uydurulmuş sosial-iqtisadi geriliyin nəticəsi deyil, Ermənistanın Azərbaycana qarşı açıq ərazi iddiasıdır. Azərbaycan KP Dağlıq Qarabağ Muxtar Vilayəti Komitəsinin birinci katibi H.A.Paqosyan iclasda öz çıxışını belə tamamlamışdır: "Bu iki millətin

nümayəndələri arasında günbəgün minlərlə iqtisadi əlaqə həyata keçirilməlidir. İndi bunlar mümkün olmur. Və gəlin realist olaq. Tezliklə mümkün olmayacaq. Yaranmış şəraitdə yeganə düzgün qərar Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılmasıdır".

1988-ci il hadisələri başlayanda əvvəllər vəziyyəti son dərəcə gərginləşdirməyə çalışan erməni millətçiləri və siyasətçiləri Moskvadakı havadarlarının köməkliyi ilə ictimai rəyi öz tərəflərinə çəkmək məqsədilə vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanan kütləvi mitinqlər və nümayişlər təşkil etdilər. Halbuki statistik məlumatlar vilayətin sosial-iqtisadi cəhətdən Azərbaycanın digər bölgələrindən yüksək olduğunu göstərir. Hadisələrin sonrakı gedişi bu iddiaların əsassız olduğunu, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasında olduğunu göstərdi.

Azərbaycanlılar və ermənilər arasında yaratdığı Dağlıq Qarabağ münaqişə ocağını alovlandırmaq məqsədilə Moskva hələ 40-cı illərdə Ermənistanda təşkil edilmiş "Qarabağ komitəsinin" fəaliyyətini genişləndirmək üçün münasib şərait yaratdı. 1987-ci ilin oktyabrında Yerevanda "Qarabağ komitəsinin" ilk mitinqi keçirildi. Moskva 1987-ci ilin noyabrında Parisdə Qorbaçovun yaxın adamı və köməkçisi olan A.Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini qeyri-rəsmi şəkildə bütün dünyaya bildirdi.

Beləliklə, akademik Abel Aqanbekyan müəyyən mənada Moskvanın və Ermənistanın Dağlıq Qarabağ kartını açdı. Aqanbekyan bəyan etdi ki, o, Qarabağın Ermənistana verilməsini arzulayır. Səbəbini isə belə əsaslandırdı: "Bir iqtisadçı kimi hesab edirəm ki, Qarabağ Azərbaycandan daha çox Ermənistanla bağlıdır". Bu, tam əsassız və saxta dəlil idi.

Aqanbekyanın 1987-ci il noybrın 18-də "Humanite" qəzetində dərc olunmuş musahibəsi ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı.

XX əsrin sonunda azərbaycanlılar növbəti dəfə etnik təmizləmə və soyqırımına məruz qalmışdılar. Bütün dövrlərdə olduğu kimi ermənilərin həyata keçirdiyi bu işğalçılıq siyasəti kütləvi qırğınlarla müşayiət edilmişdir. 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 min azərbaycanlı həlak olmuş, 100 mindən çoxu yaralanmış, 50 min nəfər isə əlil olmuşdur. 1988-ci ildə Ermənistandakı 185 azərbaycanlı kəndindən, habelə digər yaşayış məntəqələrindən 230 min nəfərə qədər azərbaycanlı qovuldu. Onlara məxsus 31 min ev, 165 kolxoz və sovxoz əmlakı, çoxlu mal-qara talandı. 1992-ci il fevralın 26-da ermənilərin Xocalıda törətdikləri soyqırımı bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Dünya tarixində Xocalı faciəsi tarixi yaddaşlardan heş vaxt silinməyən Xatın, Sonqmi, Ruanda kimi dəhşətli faciələrdən heç də geri qalmır. Adı çəkilən hadisələr müharibələr tarixinə dinc əhalinin soyqırımı kimi daxil olmuş və

bütün dünyada geniş əks-səda doğurmuşdur. Lakin bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımına böyük dövlətlər laqeyd yanaşır, bəzən də ermənipərəst mövqedən çıxış edirlər.

Sovet rəhbərliyinin məsələyə vaxtında və prinsipial qiymət verməməsi, Ermənistanın əsassız ərazi iddialarının qarşısının alınmaması əvvəl Əskəranda, sonra isə 1989-cu il yanvarın 12-də ermənilər tərəfindən hazırlanan xüsusi plan əsasında Sumqayıtda faciəli nəticələrə gətirib çıxardı.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti DQMV-də və onun ətrafında millətlərarası münaqişələrin davam etməsi ilə əlaqədar olaraq və regionda vəziyyəti sabitləşdirmək məqsədilə Dağlıq Qarabağın Azərbaycan SSRİ tərkibində Muxtar Vilayət statusunu saxlamaqla DQMV-də Xüsusi İdarə Formasının tətbiq edilməsi haqqında fərman qəbul etdi. Həmin fərmanla DQMV-də bilavasitə SSRİ-nin ali dövlət orqanlarına tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı.

Bu komitə regionda millətlərarası münasibətləri qaydaya salmaq və regionda vəziyyəti sabitləşdirmək məqsədi ilə yaradılsa da, onun sədri A.Volski vəziyyəti daha da gərginləşdirmək siyasəti yeridirdi. Onun səyi ilə az bir müddət ərzində vilayətin bütün idarə və müəssisələri Azərbaycanın tərkibindən çıxarılıb mərkəzin tabeliyinə keçirildi. Bütün sənədlərdə DQMV Azərbaycanın tərkibindən çıxarıldı. Bu isə yerli azərbaycanlı əhalinin ermənilər tərəfindən sıxışdırılmasına, az sonra isə kütləvi şəkildə qovulmasına gətirib çıxardı.

Sovet rəhbərliyinin hadisələrə biganə münasibəti və ermənilərin ərazi iddialarına göz yummasından istifadə edən Ermənistan parlamenti 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında beynəlxalq hüquqa zidd olan qərar qəbul etdi. Az bir müddət ərzində DQMV-nin bütün müəssisələri Ermənistanın tabeliyinə verildi. Ermənistan mərkəzin açıq himayədarlığı ilə Azərbaycanın digər bölgələrinə qarşı hərbi təcavüzə başladı. Sovet rəhbərliyinin ermənipərəst siyasəti nəticəsində 1990-cı ilin sonu 1991-ci ilin əvvəlində vəziyyətin getdikcə ağırlaşmasına və Azərbaycanın Ermənistanla sərhəd olan digər bölgələrinə ermənilərin hərbi təcavüzünün daha geniş miqyas almasına gətirib çıxardı.

Azərbaycan SSRİ Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistanla sərhəd boyu (975 km.) fövqəladə vəziyyət elan etdi. Sərhədlər mühəndis qurğularla möhkəmləndirildi, onu müdafiə etmək üçün xüsusi təyinatlı milis dəstələri yaradıldı. 1991-ci ilin əvvəllərindən DQMV təyyarə meydanına nəzarət Azərbaycan milisinə verildi.

Xalqın tələbi ilə 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında respublikanın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat və xüsusən oktyabrın 18-də bu barədə Konstitusiya aktının qəbulu ilə əlaqədar Dağlıq Qarabağ münaqişəsi daha da kəskinləşdi. Bu münaqişə Ermənistanın əli ilə Azərbaycana qarşı aparılan təcavüzkar müharibəyə çevrildi.

Sovet rəhbərliyinin Azərbaycana qarşı həyasızcasına ərazi iddiaları irəli sürən Ermənistana himayədarlıq etməsi səbəbindən hadisələr getdikcə mürəkkəbləşdi və hər iki respublika müharibə vəziyyətində qarşı-qarşıya dayandı. Moskva tərəfindən ermənilərin müdafiə olunması və Azərbaycanın o zamankı rəhbərliyinin hadisələrə qarşı passiv münasibəti Ermənistanın Azərbaycana qarşı təcavüzünün daha da genişlənməsinə gətirib çıxardı ki, bu da azərbaycanlıların öz dədə-baba yurdlarından kütləvi deportasiyası ilə nəticələndi.

Erməni millətçilərinin daima havadarı olan Moskva Ermənistanın əli ilə Azərbaycana qulaqburması vermək üçün planlar hazırlayırdı. Bu planların tərkib hissəsi kimi 1990-cı il yanvarın 10-da Sov.İKPMK-nın Siyasi Bürosu “Dağlıq Qarabağda vəziyyəti normallaşdırmaq haqqında” qərar qəbul etdi. Qərarda Dağlıq Qarabağ Xüsusi İdarə Komitəsi ləğv edilir, əvəzində Azərbaycan SSRİ Ali Soveti Rəyasət Heyətinin Respublika Təşkilat Komitəsinin yaradılması nəzərdə tutulurdu. Qəbul edilən bu qərar o dərəcədə gecikmişdi ki, milli münaqişələr həddindən artıq gərginləşmiş, iki xalq qarşı-qarşıya dayanmışdı.

Dağlıq Qarabağ üzrə Təşkilat Komitəsinə rəhbərlik Azərbaycan KPMK-nin ikinci katibi V.Polyanıçkaya həvalə edilmişdi. Komitə əslində Volskinin işini başqa formada davam etdirirdi.

1992-ci ilin əvvəllərində Ermənistan Silahlı qüvvələri bir-birinin ardınca Qarabağın dağlıq hissəsində azərbaycanlıların yaşadığı sonuncu yaşayış yerini də işğal etdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə onlar Xankəndində yerləşən Rusiyanın 366-cı motoatıcı alayının köməyilə Xocalı şəhərinə hücum edərək min nəfərə qədər dinc sakini qətlə yetirdilər. Bundan az sonra ermənilər Yuxarı Qarabağı işğal etdilər.

1992-ci il mayın 8-də Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhəri işğal olundu. Bundan sonra ermənilər Azərbaycan torpaqlarında möhkəmlənmək üçün başqa rayonlara da hücuma başladılar. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi yolunda başlıca maneə olan qədim Azərbaycan torpağı Laçın şəhəri 1992-ci il mayın 17-də Ermənistan ordusu tərəfindən işğal olundu. Daha da həyasızlaşan ermənilər Kəlbəcər, Aşdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının ərazilərini də işğal etdilər.

Lakin təəssüflər olsun ki, dünya birliyi Ermənistanın bu açıq-aşkar təcavüzkarlığına göz yumdu və təcavüzkarın cilovlanması üçün heç bir əməli tədbir görmədi. BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin Ermənistan Silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar 7 bəyanat və 4 qətnamə qəbul etmişdir. Lakin bunların heç bir əməli əhəmiyyəti olmadı.

Cəzasız qaldığından ruhlanan və bundan istifadə edən Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə də məhəl qoymadı. Təhlükəsizlik Şurasının qəbul etdiyi bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı geniş miqyaslı təcavüzü “Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə”

kimi qiymətləndirilmişdir.

1992-ci ildən başlayaraq Dağlıq Qarabağ münaqişəsi daha çox beynəlxalq əhəmiyyətli problemə çevrilməyə başladı. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin üzvü oldu. Azərbaycan ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi üzv dövlətlərin daha çox diqqət obyektinə çevrildi.

Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ilin may ayında Laçının və Şuşanın işğal edilməsi əlavə problemlər yaratdı və Qarabağ probleminin sülh yolu ilə həllini öz üzərinə götürmüş Minsk qrupunun fəaliyyətini xeyli dərəcədə çətinləşdirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin dinc yolla nizamlanması Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1993-cü ildən başlayaraq xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra münaqişəni aradan qaldırmaq üçün dövlət başçıları ilə apardığı ikitərəfli və çoxtərəfli görüşlərdə, ATƏT-in zirvə toplantısında, beynəlxalq forumlarda göstərdiyi ardıcıl səylər dövlət başçısının apardığı siyasətin mühüm hissəsini təşkil etmişdir.

Heydər Əliyev Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədilə məhz Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində 1994-cü il mayın 12-də atəşkəs haqqında razılıq əldə edildi və bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı.

1992-ci ildən başlayaraq beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in Minsk qrupunun vasitəçilik səyləri ilə yanaşı, 1999-cu ilin aprelindən yeni formada da addımlar atılmışdır.

1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə Toplantısında Heydər Əliyevin çox böyük və gərgin əməyi və diplomatik səyi nəticəsində münaqişənin həllinin hüquqi-siyasi çərçivəsini müəyyənləşdirən xüsusi bir bəyanat qəbul edildi. Bu bəyanat Ermənistan istisna olmaqla dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun aktına daxil edildi.

Ermənistan Azərbaycana qarşı təcavüzünü son vaxtlar fəallaşdırdığı "erməni soyqırımı" ilə əlaqələndirir. 2015-ci il mart ayının 12-də Avropa Parlamenti "Dünyada insan haqları və demokratiya" adlı sənəddə Avropa İttifaqına daxil olan 28 ölkəyə qondarma "erməni soyqırımının" tanınması ilə əlaqədar müraciət etmişdir. Bu günlərdə isə Avropa Parlamentinin qəbul etdiyi sənəddə Avropa birliyinə daxil olan ölkələri 24 aprel tarixini "erməni soyqırımı günü" kimi qeyd etməyə çağırmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması

məsələsinə BMT və ATƏT ilə yanaşı, 1993-cü ildən İslam Konfransı Təşkilatı (İKT) özünün bütün toplantılarında baxmış və Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən qərarlar qəbul etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Qafqaz regionu üçün ən başlıca təhlükə olduğunu beynəlxalq təşkilatlar da etiraf edir və münaqişənin tezliklə aradan qaldırılmasında maraqlı olduğunu bildirirlər.

Azərbaycan Prezidenti seçildiyi 2003-cü ilin oktyabrın 15-dən İlham Əliyev bütün xarici səfərlərdə, eləcə də Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək, Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacağını, ehtiyac yarandığı halda hərbi əməliyyatların başlanmasına qərar verəcəyini vurğulamışdır. Bununla yanaşı dövlət başçısı Azərbaycanın xarici siyasət kursunun mühüm tərkib hissələrindən birinə çevrilən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınmasının tərəfdarı olduğunu bildirərək, beynəlxalq təşkilatların bu sahədə səylərinin gücləndirilməsinin zəruri olduğunu bəyan etmişdir.

## ƏDƏBİYYAT


1. *Alıyev İ.Q.* Naqornıy Karabax: istoriya , faktı, sobıtiya (rus dilində). Bakı: 1989.
2. *ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına dair təklifləri.* “Xalq” qəzeti, 21 fevral, 2001.
3. *Dağlıq Qarabağ: Zəka qalib gələcək: sənədlər və materiallar.* Bakı: 1989.
4. *Əliyev H.Ə.* Müstəqilliyimiz əbədidir. Bakı: 1997.
5. *Əliyev C., Budaqov B.* Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı. Bakı: 2003.
6. *Əhmədova E.* Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: 1998.
7. *Həsənov Ə.M.* Azərbaucan və ATƏT. Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı: 1997.
8. *İsmayılov M.* Qarabağın tarixi. Bakı: 1999.
9. *Köçərli T.* Qarabağ: yalan və həqiqət. Bakı: 1998.

# SƏFƏVİ İMPERİYASI XVIII ƏSRİN İLK RÜBÜNDƏ

*(başbakanlıq Osmanlı arxivi sənədləri əsasında)*

***Xəyalə Süleymanova***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

***Açar sözlər:*** *Səfəvi imperiyası, XVIII əsrin ilk rübü, Osmanlı arxivinin sənədləri*

Səfəvilər imperiyasının tarixi tədqiqatçılar tərəfindən ən çox müraciət olunan dövlətlərdən biri olmuşdur. Məlum olduğu kimi, Azərbaycan Səfəvi imperiyası XVIII əsrdə əvvəlki qüdrətini itirərək siyasi və iqdisadi cəhətdən qonşu dövlətlərdən, xüsusilə də Rusiya və Osmanlı dövlətlərindən geri qalırdı. Bu dövrdə imperiya ərazisində olmuş səyyahlar, diplomatlar və salnaməçilər imperiyanın siyasi və iqtisadi cəhətdən zəiflədiyini qeyd etmişlər.

## ИМПЕРИЯСЕФЕВИДОВ В ПЕРВОЙ ЧЕТВЕРТИ XVIII ВЕКА

*(на основе документов османского архива при премьер-министре)*

***Хаяла Сулейманова***

***Ключевые слова:*** *Империя Сефевидов, первая четверть XVIII века, документы Османского Архива.*

Один из самых мощных империй в мире - Империя Сефевидов в первой четверти XVIII века, в экономическом и политическом плане была ослаблена. В начале XVIII века волна внутренних беспорядков охватило Азербайджанское государство Сефевидов, которое переживало глубокий экономический и политический кризис. Соседние государства, в том числе Османская и Российская империи следили за развитием событий и хотели использовать его в собственных интересах. Несомненно, развал отечественной промышленности в результате потериизначимости Шелкового пути стал одним из главных причин ослабивших империю. В статье политическое положение Империи Сефевидов первой четверти XVIII века исследованы на основе документов Османского архива при Премьер-министре Турецкой Республики.

# .SAFAVI EMPIRE IN THE FIRST QUARTER OF THE XVIII CENTURY

*(on the basis of the documents of the Bashbakanlig Ottoman Archive)*

***Khayala Suleymanova***

***Keywords:*** *Safavi Empire, the first quarter of the XVIII century, BOA documents*

One of the most powerful empire in the world Safavi had been weakened economically and politically in the first quarter of the eighteenth century. Azerbaijan Safavi state which was in the deep economic and political crisis involved in the wave of inland rebellions. Neighboring countries, including the Ottoman Empire and the Russian Empire wanted to use it for their own benefit following these incidents attentively. Undoubtedly, one of the main reasons which make empire weaken is losing Silk Road`s importance by means of collapsing local industry. İn the article, the political situations of the Safavi Empire in first quarter of the eighteenth century, has been investigated on the basis of the documents of the Bashbakanlig Ottoman Archive.

XVIII əsrin əvvəllərində Səfəvi imperiyasının dağıdılmış neft anbarları haqda İ.Y.Lerxməlumat verir [2, 32]. Vəzifələr pulla alınıb-satılır, dövlət işlərinə biganəlik, rüşvətxorluq və korrupsiya ilə nəticələnir [24, 44; 26, 241]. Y.T.Kruşinski Şah Sultan Hüseyn haqda yazır ki, "şah və hökumət başçıları eyş-işrətə o təhər qurşandılar ki, qəflət yuxusuna o cür daldılar ki, ölkədə baş verən hadisələrdən qafil oldular" [6, 17]. 1703-cü ildə Şamaxıda olmuş K.Bruin yazır ki, çörək və digər mallar bahalaşıb. Müəllif qeyd edir ki, qoşuna uzun müddət maaş verilmədiyindən əhalini qarət etməklə dolanırlar [1, 16]. 1704-cü ildə İsfahanda olmuş hollandiyalı Le-Berk yazır ki, hər yerdə özbaşnalıq hökm sürür, ədalətdən əsər əlamət yoxdur [3, 64]. Ölkədə narazılıqlar baş verməyən yerlər olduqca az idi [18, 229]. Ölkədə narazılıqların daha da genişlənməsində iqtisadi amillər əsaslı rol oynayırdı. İpək yolunun öz əhəmiyyətini itirməsi də Azərbaycan Səfəvi imperiyasının iqtisadi cəhətdən zəifləməsinə gətirib çıxarmışdı.

XVIII əsrin əvvəllərində dərin iqtisadi və siyasi böhran keçirən Azərbaycan Səfəvi dövlətini daxili iğtişaşlar dalğası bürüdü. Qonşu dövlətlər, o cümlədən Osmanlı imperiyası baş verən bu hadisələri diqqətlə izləyərək bundan öz maraqları naminə istifadə etmək istəyirdilər. Bunu dövrün sənədləri təsdiq edir. XVIII əsrin əvvəllərində Osmanlı dövləti Azərbaycanda Səfəvilərə qarşı baş verən qarışıqlıqları və Dağıstanda dağlı xalqlarının qiyamlarını sərhəd valilərinin verdiyi məlumatlar əsasında izləyirdi [C.H. 1010.; 10, 107]. İlk

üsyan 1707-ci ildə Car-Balakəndə başlasa da, sonra bütün imperiyanı bürüdü. 1709-cu ildə Qəndəhar şəhərini zəbt edib İsfahanı hədələyən əfqan qəbilələri mərkəzi hökumətə Azərbaycanda baş verən üsyanları yatırmağa imkan vermədi [5, 382]. 1709-cu ildə Təbriz və Şirvan əhalisi, 1715-ci ildə kürdlər, 1717- ci ildə şahsevənlər, 1720-ci illərdə lurlar, 1721-ci ildə bəluclar, 1722-ci ildə isə gürcülər üsyan etdirlər [19, 310]. Hacı Davudun və əfqanların üsyanları isə dövləti daha da sarsıtdı. Çünki artıq üsyançılara Azərbaycan Səfəvi dövlətinin ərazilərini ələ keçirmək istəyən qonşu dövlətlər də kömək edirdi. İmperiyanın iqtisadi cəhətdən zəiflədiyi dövrdə belə separatçılıq çıxışlarını yatırmaq çox çətin idi.

Bu dövrdə Rusiya regiondakı vəziyyəti diqqətlə izləyirdi. Osmanlı dövlətinin regiona olan marağı Rusiyanı narahat edirdi. Xüsusilə, dağlı xalqlarının və Şirvan bölgəsinin əhalisinin osmanlılarla birgə hərəkət etməsinə yol verməməyə çalışırdı. Belə ki, knyaz Bekoviç Çerkasski 1714-cü ildə rus çarına göndərdiyi raportunda yazırdı ki, osmanlıların Şimali Qafqaza çıxmasına yol vermək olmaz. Çünki nizami qoşundan daha yaxşı vuruşan dağlı xalqların osmanlılar ilə birləşməsi osmanlıların qüvvəsini xeyli artıracaqdır [20, 109]. Öz məqsədlərini həyata keçirmək məqsədi ilə 1716-ci ildə I Pyotr ölkə daxilindəki siyasi və iqtisadi vəziyyəti daha dərindən öyrənmək üçün A.Volınskini Azərbaycana göndərdi. Onun missiyasının iki əsas məqsədi var idi: Səfəvilər imperiyasının vəziyyətini ətraflı şəkildə öyrənmək və rus tacirləri üçün ticarət imtiyazları əldə etmək. A.Volınski hər iki tapşırığı uğurla yerinə yetirdi [17, 3]. Rusiya elçisi Səfəvi hökumətini inandırmağa çalışmalı idi ki, osmanlılar onların əsl düşmənidir, rus çarı isə şah ilə ancaq dostluq əlaqələri qurmaq istəyir [21, 409]. A.Volınskinin raportları I Pyotrun İran körfəzinin isti sularına nəzarət etmək arzusunu həyata keçirməyə cəsarətləndirdi [25, 126]. Əlbəttə ki, Rusiyanın bu addımları Osmanlı imperiyasını ciddi narahat edirdi. Mənbələrdən aydın olur ki, Osmanlı imperiyası da Səfəvi dövlətində baş verən üsyanlara qarşı biganə deyildi və bundan öz məqsədlərinə uyğun istifadə etməyə çalışırdı. Osmanlı imperiyasının 1707-ci ildə Şirvanda başlayan üsyana hələ də xüsusi maraq göstərdiyini 1718-cı ilə aid Osmanlı arxiv sənədləri sübut edir [A.AMD 1/64.; 10, 107].

Səfəvi dövlətində baş verən hadisələri daha yaxından öyrənmək üçün Osmanlı sultanı 1720-ci il iyun ayında Dürri Əhməd Əfəndinin İsfahana elçi göndərilməsinə qərar verdi [C.H. 6544; 10, 108]. Dürri Əhməd Əfəndi İsfahana gəldi və Şah Sultan Hüseynlə görüşdü. Şah Sultan Hüseyn bu görüşdən sonra elçinin ziyarətinin zahiri səbəbi olan Avstriya ilə tranzit ticarət əlaqələrini tənzimləməyə dair fərman verdi. Bu fərman, həm da İsfahan ictimaiyyətində Dürri Əhməd Əfəndinin gəlişi ilə bağlı şübhələri aradan qaldırmağa yönəlmişdi [NHD.7; 10, 110; 5, 25-26]. Belə ki, bir neçə ay İsfahanda bəzi sərhəd məsələlərini müzakirə edən elçi heyəti 1721-ci ildə geri qayıdıb, dekabrda

İstanbula gəldi [22, 30]. Dürri Əhməd Əfəndi Səfəvi dövlətinin daxili vəziyyəti haqqında İbrahim Paşaya mühüm məlumatlar gətirdi [8, 137].

Osmanlı dövlətinin mərkəzində Səfəvi məsələsi ilə bağlı ortaq bir razılıq olmamasına baxmayaraq, 16-17 may 1722-ci ildə Bağdad valisi vəzir Həsən paşaya əmr göndərilir. Göndərilən əmrə görə, Mir Mahmud İsfahanı mühasirəyə alıb, Dağıstan sünniləri də Şamaxını ələ keçirib Gəncə üzərinə hərəkət ediblər. Hər nə qədər Osmanlı dövləti ilə Səfəvi dövləti arasındakı sülh nəzərə alınaraq Səfəvi ərazisinə hücum etmək uyğun deyilsə də, Səfəvi ərazisindəki sünnilərin can və mallarını qorumaq, Osmanlı dövləti üçün Səfəvi dövləti ilə olan sülhü qorumaqdan daha önəmlidir. Buna görə, İsfahan süqut edən kimi hərəkətə keçilməlidir [MD.130; 10, 125].Ərzurum valisi vəzir Silahdar İbrahim Paşaya, həm də Van valisi vəzir Abdullah Paşaya əmr göndərilmişdir [MD.130; 10, 125]. Sənəddən aydın olur ki, Osmanlı dövlətinin qərarı İsfahanın əfqanlar tərəfindən ələ keçirilməsi xəbəri alınan kimi Səfəvi ərazisinə hücum edib, lazımlı görülən yerlərin ələ keçirilməsi istiqamətində olmuşdur. Lakin şərq sərhədindən gələn bir məktub, verilmiş olan bütün əmrləri alt-üst etdi. Belə ki, Bağdad valisi vəzir Əyyubi Həsən Paşa, Mir Mahmudun uğur qazanacağına əmin olduğu, ancaq özünün şəxsiyyəti və niyyəti haqqında məlumat olmadan Səfəvi ərazilərinə hücum edilməsinin doğru olmadığını bildirdi. Bundan sonra Səfəvi ərazisinə hücum edilməsi məsələsində şübhələri olan Sədrəzəm Damad İbrahim Paşa, bu fikrin yerində olduğuna qərar verdi və sərhəd valilərinə iyul ayının əvvəllərində yazılan əmrlərdə Mir Mahmudun niyətinin nə olduğu bilinmədən, İsfahan ələ keçirilsə belə, hücum etməmələri bildirildi (1722-ci il iyul) [MD.130; 10, 126]. Ciddi müqavimətlə qarşılaşmayan əfqan qoşunu mart ayının başlanğıcında İsfahana yaxınlaşdı və 1722-ci il martın 8-də Gülnabad döyüşündə şah qoşununu məğlub etdi [14, 14; 7, 33-38]. İ.Külbilgənin fikrincə, Damad İbrahim Paşanın siyasi məqsədi, hadisələrin necə cərəyan etməsindən asılı olmayaraq, sülhü qorumaq və müharibəyə başlamamaq idi [10, 126].

I Pyotrun yürüşüxəbəri isə vəziyyəti tamam dəyişir və Osmanlı imperiyası daha ciddi addımlar atmağa başlayır. Şirvanda möhkəmlənmək üçün Hacı Davuda güclü himayəçi lazım idi. Hacı Davud və müttəfiqləri Şamaxı şəhərinə hücum etmədən əvvəl kömək üçün Rusiyaya müraciət etmişdilər [23, 240-241]. Lakin məlum olduğu kimi Rusiya bu təklifə müsbət cavab vermədi. Cənubi Qafqazda rusların çoxdan gözlənilən təcavüzünə mane olmaq istəyən sultan isə Hacı Davudun təklifini tərəddüdsüz qəbul edir. Osmanlı imperiyası Hacı Davudla əlaqə saxlayaraq ondan Səfəvilər imperiyasına qarşı mübarizədə istifadə edirdi. Arxiv sənədlərində Şirvan əyalətinin "yurdluq və ocaqlıq" olaraq Hacı Davuda verilməsi haqqında berat (nişan və imtiyaz verildiyini bildirən fərman-X.S.) verilməsi və bunun vəzir İbrahim paşaya tapşırıldığı haqda məlumatlar var. Sənəddə Hacı Davudun bədniyyət qızılbaş fəsadına qarşı əhli-

sünnət xüsusunda mərdanə hərəkət etməsi kimi qiymətləndirilərək təriflənir [C.H. 1394; 12, 45-46].

İsfahanın süqutu dəqiqləşəndən sonra Osmanlı sultanı1723-cü il fevral ayından etibarən valilər, sərəsgərlər və əsgərlərin şübhələrini ortadan qaldırmaq üçün Səfəvi torpaqlarına ediləcək yürüşlərin qanuna uyğunluğuna dair hökmləri sərhəd valilərinə göndərməyə başladı. Artıq Səfəvi şahı əsir olduğuna və şahlıq iddiasındakı Şahzadə Təhmasibin də bu işə iqtidarı olmadığı aydın olduğuna görə, hərəkətə keçməmək üçün heç bir səbəb yoxdur [MD. 131; 10, 134]. Sənəddən aydın olur ki, Osmanlı sarayında Səfəvilər imperiyasının ərazisinin tutlması fikri aktual idi. 1723-cü il 21 fevralında Osmanlı baş vəziri İ.Neplyuyevi yanına dəvət edərək bildirdi ki, rus ordusu "Səfəvi ölkələrinə" ordu ilə girərsə Hacı Davud, Mir Mahmud və oradakı bütün hakimlər birləşərək ona qarşı çıxarlar, üstəlik eyni etiqadda olan müsəlman xalqlarının qoruyucusu kimi Osmanlı imperiyası da rus çarının yürüşünü açıq düşmənçilik kimi qəbul edib, müharibəyə qoşulmaq məcburiyyətində qalacaq və rus-türk müharibəsi başlayacaq [11, 563]. T.Mustafazadə belə nəticəyə gəlir ki, rus diplomatiyası Osmanlı dövləti ilə müharibə təhlükəsini tamamilə ləğv edə bilməsə də, onu müəyyən müddətə hərbi əməliyyatlardan çəkindirməyə və və osmanlıların yay kampaniyasına hazırlıq vaxtını əldən buraxıb gecikdirməyə müvəffəq oldu [22, 64].

Şah II Təhmasib isə düşdüyü bu çətin vəziyyətdən çıxmaq üçün müəyyən addımlar atırdı. Onun əsas məqsədlərindən biri Osmanlı dövləti ilə siyasi əlaqələrin qurulması idi. Şah II Təhmasib həmçinin Rusiya ilə də danışıqlar aparırdı. Bu zaman isə Peterburqda Rusiya hökuməti ilə İsmayıl bəy arasında aparılan danışıqlar nəticəsində 1723-cü il sentyabrın 12-də müqavilə imzalandı. Şah II Təhmasib Peterburq müqaviləsini ratifikasiyasından imtina etdi [ətraflı bax: 4, 112-113]. Rusiya və Osmanlı dövlətləri Səfəvi dövlətinin daxilindəki qarışıqlıqlardan faydalanmaqla yanaşı, həm də bölgədə bir-birinin mövqeyini zəiflətməyə çalışırdı [16, 54].

Arifi Əhməd paşa da 1724-cüilin mayında Tiflisdən 60 min nəfərlik ordu ilə İrəvana hücum etdi. Arifi Əhməd paşaya əmr və məktubları gətirən Kemankeş Mustafa Ağa 29 mayda İstanbuldan çıxmış, 17 iyunda Arpaçay ətrafında Osmanlı ordusuna çata bilmişdi [10, 147]. Osmanlı dövləti ilə razılığa gələ bilmək ümidi ilə Şah II Təhmasib Bərxudar xan adlı elçisindən sonra, bu dəfə etimadüddövləsi vasitəsilə, Murtazaqulu xan adlı başqa bir elçini 1723-cü il iyun ayında Van valisi vəzir Köprülüzadə Abdullah paşanın yanına göndərdi. Məktubu gətirən elçinin Vana gəlməsinə icazə verilmədi, Xoyda qalması bildirildi. Bu elçinin də İstanbula gəlməsinə icazə verilmədi, məktubun bir surətinin İstanbula göndərilməsi əmr edildi. Elçi, İstanbuldan cavab gələnə qədər gözləməli oldu. Lakin dərhal fikrini dəyişdirən Osmanlı sultanı elçinin İstanbula göndərilməsini, ancaq özü ilə 4 nəfərdən artıq adamla gəlməməsini

əmr etdi [MD. 131; 10, 154].Elçi Bərxudar xanın isə Şəhrizordan Ərzuruma göndərilməsi və orada qalması İrəvan sərəsgəri vəzir Arifi Əhməd paşaya əmr edildi. Lakin az sonra qərar dəyişmiş, 1723-cü ilin noyabr ayında elçinin Ərzurumdan İrəvan sərəsgəri Arifi Əhməd paşanın tabeliyinə göndərilməsinə qərar verilmişdi [MD. 131; 10, 155].

1724-cü il yayında həm Osmanlı, həm də Rusiya artıq müharibəni dayandırmaq qərarına gələrək İstanbul sülhünü imzaladılar. [ətraflı bax: 4, 122-124].

Rusiya və Osmanlı dövləti arasındakı gərginlikdən şərq ticarətinin təhlükəyə düşməsindən narahat olan Fransanın İstanbul elçisi de Bonak vasitəsi ilə tərəflərin diplomatik təmsilçilərinin görüşündən sonra 24 iyun 1724-cü ildə müqavilə imzalandı [15, 111]. I Pyotr müqaviləni 31 avqustda, III Əhməd isə 15 yanvar 1725-ci ildə təsdiq etdi [NHD.7; 10, 164].

Osmanlı dövləti ilə Rusiya arasında bağlanan müqaviləyə görə, Şirvan əyaləti sərhədlərinin təsbit edilməsi üçün göndərilən Dərviş Məhəmməd ağa və Aleksandr Romansovun təyin etdiyi sərhəd məntəqələrinin adları sənəddə qeyd olunmuşdur [C.H.l958; 13, 36-38].Osmanlı tərəfi müqaviləyə görə ona çatmış əraziləri ələ keçirməyə başladı. 1725-ci ilin iyul-avqust aylarında Abdullah paşa sərkərdələrdən birinə Urmiya qalasının ələ keçirilməsini tapşırdı [MD.135; 10, 176]. Bu zaman Şah II Təhmasibin Ərdəbili qoruyacaq gücü qalmamışdı [MD.135; 10, 177]. Bundan istifadə edən Osmanlı tərəfi işğal zonasına aid edilməyən Ərdəbil şəhərini də ələ keçirdi.

İrəvanı ələ keçirən Arifi Əhməd paşa 1725-ci il fevral ayında Gəncə sərəsgərliyinə təyin edildi. Hacı Davud xan da Əhməd paşanın xidmətində idi. 1725-ci ilin may ayında isə Gəncə sərəsgərliyinə Ərzurum valisi vəzir Mustafa paşa təyin edildi [MD.132; 10, 178]. Gəncə 4 iyul 1725-ci ildə mühasirəyə alındı və sentyabrın 3-də ələ keçirildi [MD.132; 10, 179]. Osmanlı ordusu 58 günlük mühasirədən sonra, 31 avqust 1724-cü ildə Həmədana girdi [MD.132; 10, 180]. Təbriz 1725-ci il avqustun 7-də tutulur [22, 91-93].

Göründüyü kimi XVIII əsrin ilk rübündə Səfəvi imperiyası özünün zəifləmə və dağılma dövrünü yaşayırdı.

İmperiyada baş verən iğtişaşlar, mərkəzdən qaçma meylləri, üsyanlar imperiyanın süqutuna təsir göstərsə də şübhəsizdir ki, ipək yolunun öz əhəmiyətini itirməsi nəticəsində yerli sənayenin çökməsi başlıca səbəb idi.

Dünyanın ən qüdrətli imperiyalarından biri olan Azərbaycan Səfəvi imperiyasının zəifləməsi qonşu dövlətlərin regiona olan marağını daha da artırması nəticəsində imperiyanın süqutu qaçılmaz oldu.

## ƏDƏBİYYAT


1. *AMEA TİEA*, inv. 480.
2. *AMEA TİEA,inv*. 486.
3. *AMEA TİEA*, inv. 2057.
4. *Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi 1639-1828*. I cild. Bakı: “Regionların inkişafı ictimai birliyi”, 2009, 512 s.
5. *Azərbaycan tarixi*. 7 cilddə, III c. Bakı: Elm, 2007, 592 s.
6. *Kruşinski Y.T.* Xristian səyyahın tarixi.( Farscadan tərcümə edən Şahin Fazil). Bakı: Azərnəşr, 1993, 105 s.
7. *Tiflisi J.* Vaqiati-Mir Veys və Şah Hüseyn. (Omanlıcadan tərcümə ed. və ön sözün müəll. Şahin Fazil). Bakı: Azərnəşr, 1992, 58 s.
8. *Aktepe M.M.* Nevşehirli İbrahim Paşa // İ.A., M.E.B., C. IX, İstanbul: 1964, s. 133-166.
9. *Ateş A.* Afşarlı Nadir şah ve döneminde Osmanlı İran mücadileleri. Doktora tezi, İsparta: 2001, 155 s.
10. *Külbilge İ.* XVIII yüzyılın ilk yarısında Osmanlı-İran siyasi ilişkiləri (1703-1747). (Yayınlanmamış doktora tezi). İzmir: 2010, 419 s.
11. *Osmanlı*. I c. Ankara: Semih Ofset, 1999, 702 s.
12. *Osmanlı devleti ile Azerbaycan Türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri* (1578-1914). I c. Ankara: 1992, 427 s.
13. *Osmanlı devleti ile Azerbaycan Türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri* (1575-1918). II c. Ankara: 1993, 483 s.
14. *Osmanli-İran-Rus ilişkilerine ait iki kaynak.(*Tercüme eden ve yayina hazirlayan Hrand D. Andreasyan). İstanbul: Edebiyat Fakültesi Matbaasi, 1974, 116 s.
15. *Osmanlı diplomasisi*. Eskişehir: Anadolu Üniversitesi Web-Ofset Tesisleri, 2013, 207 s.
16. *Türkiye tarihi*. III c. Osmanlı devleti 1600-1908. İstanbul: Cem yayınevi, 422 s.
17. *Алиев Ф.М.* Миссия посланника русского государства А.П. Волынского в Азербайджане. Баку: Элм, 1979, 121 с.
18. *Гаджиев В.Г.* Сочинение И.Гербера “Описание стран и народов между Астраханы и река Курой находящихся” как источник по истории народов Кавказа. Москва: Наука, 1979, 271 с.
19. *Пигулевская И.В., Якубовский А.Ю., Петрушевский И.П., Строева Л.В., Беленицкий А.М.* Истории Ирана с древнейших времен до конца XVIII в.. Ленинград: Изд. Ленинградского университета, 1958, 390 с.

20. *Лысцов В.П.* Персидский поход Петра I. 1722-1723. Москва: Издательство МГУ, 1951, 245 с.

21. *Молчанов Н.Н.*Дипломатия Петра Первого. Москва: Издательство Международные отнешения, 1986, 440 с.

22. *Мустафазаде Т.Т.* Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку: Элм, 1993, 240 с.

23. *Русско-дагестанские отношения XVII-XVIII вв.* (документы и материалы). Махачкала: Дагкнигоиздат, 1958, 336 с.

24. *Lockhart L.* The Fall Of The Safavi Dynasty And The Afghan Occupation Of Persia. London: 1958, 256 p.

25. *Savory R.* İran Under The Safavids. Cambridge: Cambridge University Press, 1980, 277 p.

26. *The Cambridge History of Iran; The Timurid and Safavid Periods* (ed.by P. Jackson, L. Lockhart).volume. 6, Cambridge: Cambridge University Press, 1986, Pp. xxiii, 1087; 72 plates, 24 figures, 7 maps, 6 tables.

# Mündəricat

*Xəqani Alməmmədov* .QARABAĞIN ERKƏN OTURAQ ƏKİNÇİ-MALDAR TAYFALARINA AİD YAŞAYIŞ MƏSKƏNLƏRİ ...............3
*Abbas Seyidov.*DÖVLƏTÇİLİK TARİXİMİZİN ÖYRƏNİLMƏSİNDƏ NUMİZMATİKANIN ROLU ....................................................................10
*Vəfa Quliyeva, Qənirə Pirquliyeva.* BAKI QALASININ TARİXİNƏ DAİR YENİ MƏLUMATLAR ...................................................................19
*Yusif Fərzəliyev, Gülnara Sultanova.* AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN MİLLİ ORDU QURUCULUĞU .......................26
*İbrahim Kazımbəyli.* İRƏVANIN ERMƏNİLƏRƏ VERİLMƏSİ VƏ BUNUN TARİXİ-SİYASİ SƏBƏBLƏRİ .............................................34
*Hidayət Cəfərov.* XOCALI-GƏDƏBƏY ARXEOLOJİ MƏDƏNİYYƏTİNİN «QARABAĞ» QRUPU ABİDƏLƏRİ ..................43
*Kifayət Əhmədova.* GƏNC AİLƏLƏRDƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN FORMALAŞMASINA TƏSIR EDƏN AMİLLƏR ...........................................................................................51
*Samir Baxşəliyev.* GÖRKƏMLİ DÖVLƏT XADİMİNİN FƏALİYYƏTİNDƏN SƏHİFƏLƏR.......................................................59
*Nuru Məmmədov, Xəqani Məmmədov.*AZƏRBAYCAN XALQININ MİLLİ AZADLIQ HƏRƏKATI ..............................................................65
*Əzizağa Ələkbərov.* AZƏRBAYCAN-ÖZBƏKİSTAN ELMİ ƏLAQƏLƏRİ TARİXİNDƏN ....................................................................70
*Rəna Baxışova.* AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ MUSİQİNİN İNKİŞAFI TARİXİNDƏN ..................................................79
*Hüseyn Bəxtiyarov.* AZƏRBAYCAN-MDB MÜNASİBƏTLƏRİ ............88
*Müzəffər İsayev.* XX ƏSRİN SONUNDA ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏRAZİ İDDİALARI VƏ SOVET RƏHBƏRLİYİNİN QAFQAZ SİYASƏTİNDƏ QARABAĞ DÜYÜNÜ ..........................................................................................93
*Xəyalə Süleymanova.* SƏFƏVİ İMPERİYASI XVIII ƏSRİN İLK RÜBÜNDƏ ..........................................................................102

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – **sevinc0610@mail.ru** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2017, 1(16)*

*Nəşriyyatın direktoru:* *Hüseyn Hacıyev*
*Texniki redaktor:* *Mustafa Şəfiyev*
*Korrektor:* *Sevinc Mamoyeva*

***Çapa imzalanmış 29.03.2017*-ci *il***
***Kağız formatı** 70x100 $^{1/8}$, **çap vərəqi** 14*
***Sifariş 135, sayı** 200*

***ADPU-nun mətbəəsi***
***Bakı**, **Ü.Hacıbəy**li **küçəsi**, 68*
***Tel**: (+912) 493-74-10*
Email: sevinc0610@mail.ru